RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 232 (9977) 30 oktyabr 2025-ci il CÜMƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# "Bu torpaqların sahibləri bizik..."



## Qarabağın xilaskarı İlham Əliyev doğma yurdlarına qayıdan keçmiş məcburi köçkünlərin sevinclərini onlarla birlikdə yaşayır

2020-ci ilin noyabrında azad edilən torpaqlarımıza yollanaraq qələbə simvolumuz Şuşaya uzanan Zəfər yolunun təməlini qoyan Qarabağın baş memarı İlham Əliyevin tarixi yurdlarımıza mütəmadi səfərləri bu torpaqların əzəli sahiblərinin qayıtdığının dünyaya qürurlu bəyanını özündə əks etdirir. Bu onu göstərir ki, zirvələrində üçrəngli ayulduzlu Azərbaycan bayrağının əbədi dalğalandığı Qarabağda və Şərqi Zəngəzurda artıq həyat qaynayır, ata-baba yurdlarının sakinlərinin qəlbində indi vətən həsrəti qövr etmir, ana torpağa qovuşmağın xoşbəxtliyi yaşanır. O da gerçəklikdir ki, düz birqərinəlik zaman dilimində məcburi köçkünlüyün maddi-mənəvi çətinliklərinə sinə gərən bu insanlar bir an da olsa, doğma torpaqlarına dönəcəklərinə olan ümidlərini itirmədilər. Bu inamı onlara Prezident İlham Əliyevin xalqımızın milli maraqlarının təmini uğrunda həyata keçirdiyi qətiyyətli siyasət aşılamışdı. Ölkəmizə rəhbərlik etdiyi ilk gündən dövlətimizin başçısı İlham Əliyev işğal altında olan ərazilərimizin azadlığını özünün prioritet vəzifəsi hesab etdi. Ötən illər ərzində diqqəti, qayğısı ilə daim keçmiş məcburi köçkünlərimizin yanında olan dövlətimizin başçısı el-obasından didərgin salınmış vətəndaşlarımızla olan bütün görüşlərində onlara öz torpaqlarına qayıdacaqlarını qətiyyətlə söyləyirdi.

İndi xalqımız həmin tarixi günlərə şahidlik edir, Qarabağ və Şərqi Zəngəzura ardıcıl olaraq qayıdış karvanları yola salınır.

Bu il oktyabrın 28-də işğaldan azad edilən yaşayış məntəqələrimizdən daha bir neçəsində dirçəliş təntənəsi yaşandı. Həmin tarixdə Prezident İlham Əliyev Cəbrayıl rayonunun Horovlu kəndinin birinci mərhələsinin açılışında iştirak etdi, rayonun Şahvəlli kəndində "Şəms" və "Üfüq" Günəş-Elektrik stansiyalarının təməlini qoydu, "Şəfəq" Günəş-Elektrik Stansiyasına gedən avtomobil yolunu açdı. Həmçinin Cəbrayıl şəhərində ikinci və üçüncü yaşayış komplekslərinin, Cəbrayıl şəhər məscidinin təməlini qoydu.

9

## Birinci vitse-prezident Mehriban Əliyeva Türkiyənin Cümhuriyyət bayramı münasibətilə paylaşım edib






## Vaşinqton Bəyannaməsi konkret nəticələr verir

### Cənubi Qafqazın sülh və rifaha çatması istiqamətində tarixi fürsət əldə olunub

Azərbaycan və Ermənistan arasında sülhə doğru atılan addımlar, xüsusilə Zəngəzur dəhlizinin (TRIPP) açılması yalnız iqtisadi deyil, həm də siyasi qələbə kimi qiymətləndirilir. Artıq hər iki tərəfdə hesab edilir ki, bölgədə uzun müddətdir gözlənilən sülh yaxınlaşır. Avqustun 8-də Vaşinqtonda baş verən hadisələr iki ölkə arasındakı gərginliyin sonu oldu.

Cənubi Qafqazda sülhün bərqərar olması bütün regionda yaşayan xalqlar üçün böyük əhəmiyyət daşıyır. Uzun illər davam edən münaqişələr və gərginliklərdən sonra sülh və qarşılıqlı anlaşma təbii ki, çox önəmlidir. Sülhün təmin edilməsi təkcə dövlətlərarası razılaşmalara deyil, həm də insanların, toplumların bir-birinə olan etibarını, anlayışını və qarşılıqlı hörmətini inkişaf etdirməyə bağlıdır.

6

## Azərbaycan ilə Rumıniya dost və tərəfdaş ölkələrdir

### Prezident İlham Əliyev Rumıniya Parlamenti Senatının Sədrini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 29-da Rumıniya Parlamenti Senatının Sədri Mirça Abrudeanı qəbul edib.**

AZƏRTAC xəbər verir ki, qonaq Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşması, bu xüsusda Vaşinqtonda ABŞ Prezidentinin şahidliyi ilə bəyannamənin imzalanması, Azərbaycan ilə Ermənistan arasında sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında sazişin paraflanması münasibətilə dövlətimizin başçısını təbrik etdi, bunun bütün regionda sülhün təmin olunmasına və inkişafa xidmət edəcəyinə ümidvarlığını bildirdi.

2

## Azərbaycan-BƏƏ münasibətləri bütün istiqamətlər üzrə uğurla inkişaf edir

### Prezident İlham Əliyev Birləşmiş Ərəb Əmirlikləri Federal Milli Şurasının Sədrini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 29-da Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) Federal Milli Şurasının Sədri Saqr Qobaşın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, qonaq ilk növbədə Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın salamlarını dövlətimizin başçısına və Azərbaycan xalqına çatdırdı. Saqr Qobaş bildirdi ki, Şeyx Məhəmməd bin Zayed Al Nəhyan bu ilin sentyabrında Azərbaycana, Şuşa şəhərinə səfərini və dövlətimizin başçısı ilə görüşünü məmnunluqla xatırlayır.

Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsinin 30 illiyinə həsr olunmuş Beynəlxalq Parlament Konfransının yüksək səviyyədə təşkil edildiyini deyən Birləşmiş Ərəb Əmirlikləri Federal Milli Şurasının Sədri vurğuladı ki, bu tədbir ölkəmizin konstitusional dəyərlərə və suverenliyə nə qədər sadiq olduğunun və əhəmiyyət verdiyinin bariz nümunəsidir.

2



# Azərbaycan ilə Rumıniya dost və tərəfdaş ölkələrdir

## Prezident İlham Əliyev Rumıniya Parlamenti Senatının Sədrini qəbul edib



*Əvvəli 1-ci səh.*

Mirça Abrudean Bakıda Milli Məclisin xətti ilə keçirilən Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsinin 30 illiyinə həsr olunmuş Beynəlxalq Parlament Konfransında iştirakdan məmnunluğunu ifadə etdi, bu tədbirin yüksək səviyyədə təşkil olunduğunu dedi.

Azərbaycan ilə Rumıniyanın dost və tərəfdaş ölkələr olduğunu vurğulayan qonaq əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün geniş imkanların mövcudluğunu vurğuladı. Senatın Sədri ikitərəfli münasibətlərin inkişafında parlamentlərarası əlaqələrin, həmçinin beynəlxalq parlament təsisatlarında əməkdaşlığın önəmini qeyd etdi.

Təbriklərə görə təşəkkürünü bildirən dövlətimizin başçısı Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəli aparılması ilə bağlı məsələdə Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın xüsusi roluna toxundu, bu istiqamətdə əldə olunmuş nailiyyətlərin bütün region üçün tarixi əhəmiyyət kəsb etdiyini dedi.

Söhbət zamanı Azərbaycan, Rumıniya, Gürcüstan və Macarıstanın iştirakı ilə Buxarestdə imzalanmış Qara dənizin dibi ilə elektrik kabel xəttinin tikilməsi layihəsi üzrə sazişin önəmi vurğulandı, bunun ölkəmizin və Mərkəzi Asiya regionu dövlətlərinin bərpaolunan enerji resurslarının Avropa bazarlarına çıxarılması baxımından əhəmiyyətinə toxunuldu.

Görüşdə Azərbaycanla Rumıniya arasında müxtəlif sahələrdə əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparıldı.

# Azərbaycan-BƏƏ münasibətləri bütün istiqamətlər üzrə uğurla inkişaf edir

## Prezident İlham Əliyev Birləşmiş Ərəb Əmirlikləri Federal Milli Şurasının Sədrini qəbul edib

*Əvvəli 1-ci səh.*

Qonaq Azərbaycanın inkişafına toxunaraq, bunun Prezident İlham Əliyevin uzaqgörən siyasəti nəticəsində mümkün olduğunu vurğuladı. Saqr Qobaş paytaxt Bakının gözəlliyinin və memarlığının onda dərin təəssürat hissi yaratdığını dedi.

Dövlətimizin başçısı salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Birləşmiş Ərəb Əmirliklərinin Prezidentinə və xalqına çatdırmağı xahiş etdi.

Prezident İlham Əliyev Şeyx Məhəmməd bin Zayed Al Nəhyanla həm Əbu-Dabidə, həm də Azərbaycanda Bakı və Şuşa şəhərlərində görüşlərini və aparılmış müzakirələri məmnunluqla xatırladı.



Dövlətimizin başçısı Birləşmiş Ərəb Əmirliklərinin sabiq prezidenti Şeyx Zayed bin Sultan Al Nəhyanın uzaqgörən siyasəti və ölkə rəhbərliyinin ardıcıl səyləri nəticəsində Birləşmiş Ərəb Əmirliklərinin uğurlu nümunəvi inkişafını qeyd etdi.

Ulu Öndər Heydər Əliyevin BƏƏ-nin sabiq prezidenti Şeyx Zayed bin Sultan Al Nəhyan ilə 1994-cü ildə İslam Əməkdaşlıq Təşkilatının Kasablanka Sammitində görüşü xatırlanaraq, məhz həmin görüşdə ölkələrimiz arasında hazırkı münasibətlərin təməlinin qoyulduğu vurğulandı.

Qonaq regionda sülhün təmin olunması, Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşması münasibətilə Prezident İlham Əliyevi təbrik etdi.

Dövlətimizin başçısı təbriklərə görə təşəkkürünü bildirərək, Ermənistanın Azərbaycana qarşı 30 il davam edən işğalından sonra hər iki tərəfin hazırda sülh şəraitində yaşamağa uyğunlaşdığını bildirdi.

Prezident İlham Əliyev bundan sonra da ölkəmizin regionda davamlı sülhün təmin olunması, nəqliyyat layihəsinin, xüsusilə Zəngəzur dəhlizi (TRIPP) xətti üzrə nəqliyyat bağlantılarının yaradılması istiqamətində səylərini davam etdirəcəyini dedi.

Söhbət zamanı Azərbaycanla BƏƏ arasında münasibətlərin strateji tərəfdaşlıq səviyyəsində bütün istiqamətlər üzrə uğurla inkişaf etdiyi qeyd olundu. Bu xüsusda "Masdar" şirkətinin Azərbaycana bərpaolunan enerji sektoruna sərmayələrinə, SOCAR-ADNOC əməkdaşlığına, qarşılıqlı investisiyalara toxunuldu.

# "Beynəlxalq ticarətdə müəyyən təhlükəli kimyəvi maddələr və pestisidlər üzrə qabaqcadan əsaslandırılmış razılıq proseduru haqqında Rotterdam Konvensiyası"na qoşulmaq barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikası 1998-ci il sentyabrın 10-da Rotterdam şəhərində imzalanmış "Beynəlxalq ticarətdə müəyyən təhlükəli kimyəvi maddələr və pestisidlər üzrə qabaqcadan əsaslandırılmış razılıq proseduru haqqında Rotterdam Konvensiyası"na qoşulsun.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 sentyabr 2025-ci il*

# "Beynəlxalq ticarətdə müəyyən təhlükəli kimyəvi maddələr və pestisidlər üzrə qabaqcadan əsaslandırılmış razılıq proseduru haqqında Rotterdam Konvensiyası"na qoşulmaq barədə" Azərbaycan Respublikasının 2025-ci il 30 sentyabr tarixli 262-VIIQ nömrəli Qanununun tətbiqi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Beynəlxalq ticarətdə müəyyən təhlükəli kimyəvi maddələr və pestisidlər üzrə qabaqcadan əsaslandırılmış razılıq proseduru haqqında Rotterdam Konvensiyası"na qoşulmaq barədə" Azərbaycan Respublikasının 2025-ci il 30 sentyabr tarixli 262-VIIQ nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. "Beynəlxalq ticarətdə müəyyən təhlükəli kimyəvi maddələr və pestisidlər üzrə qabaqcadan əsaslandırılmış razılıq proseduru haqqında Rotterdam Konvensiyası"nın (bundan sonra - Konvensiya) 4-cü maddəsinin 1-ci bəndində nəzərdə tutulmuş səlahiyyətli milli qurum qismində Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi müəyyən edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Beynəlxalq ticarətdə müəyyən təhlükəli kimyəvi maddələr və pestisidlər üzrə qabaqcadan əsaslandırılmış razılıq proseduru haqqında Rotterdam Konvensiyası"na qoşulmaq barədə" Azərbaycan Respublikasının 2025-ci il 30 sentyabr tarixli 262-VIIQ nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Sərəncamın 1-ci hissəsinə uyğun olaraq Konvensiyanın 4-cü maddəsinin 1-ci bəndində nəzərdə tutulmuş səlahiyyətli milli qurumun müəyyən edildiyi barədə Konvensiyanın Katibliyinə müvafiq bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 oktyabr 2025-ci il*

# Apellyasiya instansiyası məhkəmələri sədrlərinin müavinlərinin, məhkəmə kollegiyaları sədrlərinin, birinci instansiya məhkəmələri hakimlərinin, sədrlərinin və sədr müavininin təyin edilməsi ilə bağlı bəzi məsələlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Məhkəmə-Hüquq Şurasının təkliflərini nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 9-cu və 32-ci bəndlərini rəhbər tutaraq **qərara alıram:**

1. "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 94-cü maddəsinə və 97-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq,

**apellyasiya instansiyası məhkəmələri üzrə:**

1.1. Ələddin Tofiq oğlu Məcidov Şəki Apellyasiya Məhkəməsi sədrinin müavini təyin edilsin;

1.2. Samir Firdusi oğlu Həsənov Şirvan Apellyasiya Məhkəməsinin İnzibati Kollegiyasının sədri vəzifəsindən azad edilərək həmin məhkəmənin sədrinin müavini təyin edilsin;

1.3. Zahid Tahir oğlu Məmmədov Sumqayıt Apellyasiya Məhkəməsinin Kommersiya Kollegiyasının sədri təyin edilsin;

1.4. Xəqani Hacı oğlu Səmədov Şəki Apellyasiya Məhkəməsinin Cinayət Kollegiyasının sədri təyin edilsin;

**ağır cinayətlər məhkəmələri üzrə:**

1.5. Hüseyn İnanc oğlu Hüseynli Bakı şəhəri Xəzər Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi təyin edilsin;

1.6. Nigar Arzu qızı İmanova Bakı şəhəri Sabunçu Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi təyin edilsin;

1.7. Babək Əkbər oğlu Pənahov Bakı şəhəri Nəsimi Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi təyin edilsin;

**hərbi məhkəmələr üzrə:**

1.8. Fərman Məmməd oğlu Abbasov Tərtər Hərbi Məhkəməsinin hakimi və sədri təyin edilsin;

**inzibati məhkəmələr üzrə:**

1.9. Rəşad Mövsüm oğlu Nuriyev Ağcabədi Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Şirvan İnzibati Məhkəməsinin hakimi təyin edilsin;

**kommersiya məhkəmələri üzrə:**

1.10. İlkin Əli oğlu Əliyev Bakı şəhəri Binəqədi Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Bakı Kommersiya Məhkəməsinin hakimi təyin edilsin;

1.11. Fərid Eldar oğlu Hətəmzadə Bakı şəhəri Binəqədi Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Bakı Kommersiya Məhkəməsinin hakimi təyin edilsin;

**Naxçıvan Muxtar Respublikasının rayon (şəhər) məhkəmələri üzrə:**

1.12. İlham Sadət oğlu İbrahimov Naxçıvan Muxtar Respublikası Hərbi Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Naxçıvan Muxtar Respublikası Kəngərli Rayon Məhkəməsinin hakimi və sədri təyin edilsin;

**Bakı şəhərinin rayon məhkəmələri üzrə:**

1.13. Fuad Ələsgər oğlu Hüseynov Bakı şəhəri Qaradağ Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Bakı şəhəri Yasamal Rayon Məhkəməsinin hakimi təyin edilsin;

**rayon (şəhər) məhkəmələri üzrə:**

1.14. İlqar Vidayət oğlu Hüseynov İsmayıllı Rayon Məhkəməsinin sədri təyin edilsin;

1.15. Emin İlham oğlu Məmmədli Bakı şəhəri Xəzər Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Oğuz Rayon Məhkəməsinin hakimi və sədri təyin edilsin;

1.16. Zaman Şakir oğlu İmanov Gəncə Şəhər Məhkəməsi sədrinin müavini təyin edilsin.

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 oktyabr 2025-ci il*

# "Azərbaycan Respublikasında dövlət büdcəsindən maliyyələşən idarə, müəssisə və təşkilatlarda nəqliyyat vasitələrindən istifadə qaydalarının təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 18 iyul tarixli 120 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 319** **Bakı şəhəri, 27 oktyabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 18 iyul tarixli 120 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 7, maddə 747 (Cild I); 2024, № 1, maddə 101, № 3, maddə 310, № 4, maddə 449, № 5 (II kitab), maddələr 572, 607, № 7, maddələr 895, 915, № 12 (II kitab), maddə 1428, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 22 sentyabr tarixli 279 nömrəli və 7 oktyabr tarixli 294 nömrəli qərarları) ilə təsdiq edilmiş 2 nömrəli əlavə - "Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti və məhkəmə orqanlarının aparatları (hərbi qurumlar, dövlət təhlükəsizliyi, xarici kəşfiyyat xidmətləri, hüquq mühafizə və prokurorluq orqanları, rayon (şəhər) məhkəmələri istisna olmaqla), mərkəzi icra hakimiyyəti orqanlarının yerli bölmələri, onların yanında, tabeliyində olan orqanlar, mərkəzi icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentliklərinin, dövlət xidmətlərinin aparatları və onların yerli bölmələri üçün xidməti minik avtomobillərinin say həddi (limiti)"nin cədvəlinin 22-ci hissəsinin "cəmi" sütununda "24" rəqəmləri "42" rəqəmləri ilə, "ərazi və yerli bölmələr üzrə" sütununda "18" rəqəmləri "36" rəqəmləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# "Minatəmizləmə fəaliyyətinin həyata keçirilməsi üçün qiymətləndirmənin aparılması Qaydası"nın təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 321** **Bakı şəhəri, 28 oktyabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Minatəmizləmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının 2024-cü il 13 dekabr tarixli 90-VIIQ nömrəli Qanununun tətbiqi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 3 fevral tarixli 316 nömrəli Fərmanının 2.4.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Minatəmizləmə fəaliyyətinin həyata keçirilməsi üçün qiymətləndirmənin aparılması Qaydası" təsdiq edilsin *(əlavə olunur)*.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

# "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 7 mart tarixli 154-VIIQD nömrəli Qanununun tətbiqi və "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 7 fevral tarixli 192 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 19 aprel tarixli 375 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 320** **Bakı şəhəri, 28 oktyabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 7 mart tarixli 154-VIIQD nömrəli Qanununun tətbiqi və "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 7 fevral tarixli 192 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 19 aprel tarixli 375 nömrəli Fərmanının 2.3-cü bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 25 dekabr tarixli 201 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 12, maddə 1076 (Cild I); 2024, № 7, maddə 904) ilə təsdiq edilmiş "Qeyri-hökumət təşkilatının illik maliyyə hesabatının forması, məzmunu və təqdim edilməsi Qaydası"nın 5.1-ci bəndinə "Maliyyə Nazirliyinə" sözlərindən sonra "e-mühasibat" informasiya sistemi vasitəsilə elektron qaydada" sözləri əlavə edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 27 may tarixli 97 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 5, maddə 474 (Cild I); 2024, № 5 (II kitab), maddə 584) ilə təsdiq edilmiş "Kommersiya təşkilatlarının illik maliyyə hesabatlarının və birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarının təqdim edilməsi və dərc edilməsi Qaydaları"nın 3.5-ci və 5.2-ci bəndlərinə "Maliyyə Nazirliyinə" sözlərindən sonra "e-mühasibat" informasiya sistemi vasitəsilə elektron qaydada" sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***




# Milli Məclisdə Beynəlxalq Parlament Konfransı keçirilib

**Oktyabrın 29-da Milli Məclisdə Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsinin 30 illiyinə həsr olunmuş "Konstitusiya müasir dünyada dövlətlərin müstəqilliyinin və suverenliyinin təməli kimi" mövzusunda beynəlxalq parlament konfransı keçirilib.**







Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, tədbirdə 20-dək ölkənin parlament nümayəndə heyətləri, 5 beynəlxalq təşkilatın təmsilçiləri iştirak ediblər.

Konfransı giriş nitqi ilə açan Milli Məclisin Sədri Sahibə Qafarova bildirib ki, "Konstitusiya müasir dünyada dövlətlərin müstəqilliyinin və suverenliyinin təməli kimi" mövzusuna həsr edilən beynəlxalq parlament konfransının Azərbaycanda keçirilməsinin dərin rəmzi mənası var. Bu il biz müstəqil dövlətimizin ilk Konstitusiyasının qəbul olunmasının 30 illiyini qeyd edirik. Bununla əlaqədar 2025-ci il Azərbaycanda "Konstitusiya və Suverenlik İli" elan olunmuşdur.

Milli Məclisin Sədri qeyd edib ki, Azərbaycan dövlətçiliyinin tarixi ağır sınaqlar və parlaq qələbələr tarixidir: "1991-ci ildə müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan siyasi, iqtisadi, hərbi və digər sahələrdə mürəkkəb vəziyyətə düşmüşdü. Ölkəmizə qarşı silahlı təcavüz və daxili böhran dövlət müstəqilliyinin itirilməsi təhlükəsini törətmişdi.

Belə bir şəraitdə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin əzmlə həyata keçirdiyi tarixi missiya ölkəmizin qarşısında dayanan problemləri aradan qaldırmağa, vəziyyəti sabitləşdirməyə, qanunçuluğu bərpa etməyə və müasir dövlətin əsaslarını yaratmağa imkan verdi. Onun rəhbərliyi ilə hazırlanmış və 1995-ci ildə qəbul edilmiş Konstitusiya ölkənin inkişaf strategiyasını irəli sürdü, xalqın suverenliyi, qanunun aliliyi, hakimiyyət bölgüsü prinsiplərini müəyyən etdi, insan hüquqlarının və azadlıqlarının müdafiəsi üçün təminatlar yaratdı. Bu mənada dövlətimizin Əsas Qanunu təkcə hüquqi sənəd deyil, həm də milli tariximizin yeni dövrünün, gələcəyə inam və quruculuq dövrünün simvoludur.

Milli Məclisin Sədri Sahibə Qafarova bildirib ki, Ulu Öndər Heydər Əliyevin başlatdığı yol Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilir: "Son iyirmi iki il Azərbaycanın dövlətçilik tarixinə dinamik və hərtərəfli inkişaf dövrü kimi daxil olmuşdur. Bu dövrdə həm də Konstitusiyamızın real gücü praktikada sınaqdan keçmişdir.

Bildiyiniz kimi, ölkəmizin beynəlxalq miqyasda tanınan ərazisinin 20 faizi otuz ilə yaxın Ermənistanın işğalı altında olmuşdur. Bu dövrdə Konstitusiya dövlətimizin ərazi bütövlüyü və suverenliyi uğrunda mübarizənin hüquqi, mənəvi və fəlsəfi əsasını təşkil edirdi. Ölkəmizin Əsas Qanunu silahlı təcavüzə son qoymaq və sülh yaratmaq uğrunda diplomatik səylərimizin təməlində dayanmışdı.

2020-ci ilin Vətən müharibəsində və 2023-cü ilin antiterror əməliyyatında əldə edilən tarixi qələbələr nəticəsində Azərbaycan özü beynəlxalq hüququn qüvvəsini bərpa etdi. Dövlətimizin ərazi bütövlüyünün və suverenliyinin bərqərar edilməsi ilə Azərbaycan Konstitusiyasında müəyyənləşdirilmiş prinsiplər real həyatda öz təcəssümünü tapdı.

Diqqətə çatdırılıb ki, ölkəmizin Konstitusiyası ümumbəşəri dəyərlərə sadiq olaraq bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamağı və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərməyi başlıca niyyətlərdən biri kimi bəyan edib. Eyni zamanda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev cari ilin sentyabrında BMT Baş Assambleyasının 80-ci sessiyasındakı çıxışında beynəlxalq hüquqa əsaslanan sülh və inkişafı, dövlətlərin daxili işlərinə qarışmamağı, qarşılıqlı hörmət və əməkdaşlığı Azərbaycanın baxışları kimi təqdim edib.

Azərbaycanın regional və qlobal səviyyədə bütün fəaliyyəti - həyata keçirdiyi irimiqyaslı enerji və nəqliyyat layihələri, sivilizasiyalar və mədəniyyətlər arasında dialoqu təşviqi, dünyanın üzləşdiyi müxtəlif çağırışlarla mübarizədə göstərdiyi səylər bu niyyət və baxışları əks etdirir.

Spiker xüsusilə qeyd edib ki, 30 illik işğal dövrünə baxmayaraq, məhz Azərbaycan Vətən müharibəsi başa çatdıqdan dərhal sonra sülh təşəbbüsü ilə çıxış edib. Sülhün əsasını təşkil edən 5 təməl prinsip və sülh sazişinin layihəsi Azərbaycan tərəfindən təqdim olunub. Cari ilin avqust ayında Vaşinqtonda Amerika Birləşmiş Ştatları Prezidentinin şahidliyi ilə Azərbaycan Respublikası Prezidentinin və Ermənistan Respublikası Baş nazirinin Birgə Bəyannamə imzalaması və iki ölkə arasında sülh sazişinin paraflanması münaqişə dövrünə son qoymuş və regionumuzda uzunmüddətli sülh və sabitliyin yolunu açmışdır.

Konfrans iştirakçılarının diqqətinə çatdırılıb ki, indiki qlobal geosiyasi dinamika şəraitində məhz konstitusiya qaydası dövlətlərə öz dayanıqlığını qorumaqda və milli maraqları əsasında inkişaf etməkdə kömək göstərir. Azərbaycanın təcrübəsi də əyani surətdə göstərir ki, Konstitusiya xalqın iradəsindən və milli dəyərlərdən güc alanda, hakimiyyət ilə xalq arasında uzlaşmanı təmin edəndə cəmiyyəti birləşdirən və dövlətin müstəqilliyini qoruyan böyük qüvvəyə çevrilir.

Azərbaycan Respublikasının Konstitusiyası xalqımızın tarixi təcrübəsini və azadlıq əzmini əks etdirir. O, milli birliyimizi möhkəmləndirir və cəmiyyətin sabit inkişafına kömək göstərir.

Müasir dövlətlər arasında siyasi, iqtisadi, hüquqi və humanitar əlaqələr getdikcə daha intensiv və dinamik xarakter alır. Bu baxımdan dövlətlərin suveren bərabərliyi və müstəqilliyi, daxili işlərə qarışmamaq və ərazi bütövlüyünə hörmət kimi beynəlxalq prinsiplərin möhkəmləndirilməsi xüsusi əhəmiyyət kəsb edir. Bununla əlaqədar parlamentlərarası əməkdaşlığın rolu da güclənir.

Sahibə Qafarova çıxışında deyib ki, bu gün parlament diplomatiyası ən mühüm yumşaq güc alətlərindən birinə çevrilib. Parlament təmasları vasitəsilə qarşılıqlı anlaşma körpüləri qurulur, ən kəskin məsələlər hüquq bərabərliyi və qarşılıqlı hörmət əsasında həll edilir. Biz hesab edirik ki, ənənəvi diplomatiyanı uğurla tamamlayan parlament diplomatiyası sülhün və qarşılıqlı anlaşmanın möhkəmləndirilməsində daha böyük rol oynaya bilər.

Qeyd olunub ki, müasir dövrdə bəşəriyyət saxta informasiyanın yayılmasından və hibrid hücumlardan başlamış xalqların mədəni və ideoloji müstəqilliyinə edilən qəsdlərə qədər müxtəlif yeni təhdidlərlə qarşılaşır. Bu təhdidlərə bizim cavabımız qəti və prinsipial olmalıdır. Biz qanunun aliliyi və Konstitusiyaya hörmət əsasında suverenliyimizi möhkəmləndirməliyik. Yalnız birgə səylərlə yeni çağırışlara və təhdidlərə qarşı mübarizə aparmaq, bütün dünyada sülhü və sabitliyi möhkəmləndirmək mümkündür. Digər tərəfdən, milli maraqların müdafiəsi, insan hüquqlarının və azadlıqlarının təmin edilməsi də Konstitusiya dəyərlərinə sadiqliyimizdən çox asılıdır.

Konstitusiya prinsipləri ölkələr arasında ahəngdar qarşılıqlı əlaqə üçün təməl rolunu oynayır, beynəlxalq münasibətlərdə qarşılıqlı hörmət və etimadın möhkəmlənməsinə şərait yaradır. Azərbaycan dövləti və parlamenti ardıcıl olaraq məhz bu yanaşmanı həyata keçirir.

Çıxışına yekun vuran Milli Məclisin Sədri inamını ifadə edib ki, bu konfrans sülh, ədalət və dövlətlərin rifahı naminə ətraflı fikir mübadiləsi aparmağa, xalqlarımız və parlamentlərimiz arasında qarşılıqlı anlaşmanı gücləndirməyə şərait yaradacaq. Biz əminik ki, konstruktiv dialoq və birgə səylər konstitusiya dəyərlərini daha da möhkəmləndirmək yollarını tapmağa kömək göstərə bilər.

Sahibə Qafarova Azərbaycan parlamenti adından forum iştirakçılarına səmərəli iş və maraqlı diskussiyalar arzulayıb.

Sonra konfrans iştirakçıları müasir dövlətlərin hüquqi əsaslarının möhkəmləndirilməsində konstitusiyaların rolu, dövlətlərin suverenliyi və milli müstəqilliyinin qorunması məsələlərinə dair fikirlərini bölüşüblər.

Tədbirdə çıxış edən Birləşmiş Ərəb Əmirliklərinin Federal Milli Şurasının Sədri Saqr Qobaş Azərbaycan Konstitusiyasının qəbul edilməsinin 30-cu ildönümü münasibətilə təbriklərini çatdıraraq, ölkənin suverenliyinin möhkəmləndirilməsində, dayanıqlı inkişafın təmin edilməsində Konstitusiyanın rolunu qeyd edib. Son 30 il ərzində Azərbaycanda milli iradə, siyasi uzaqgörənlik sayəsində hərtərəfli inkişafın müşahidə olunduğunu söyləyib. Bildirib ki, Azərbaycan təcrübəsi Konstitusiyanın cəmiyyət və dövlət arasında münasibətləri tənzimləyən, dövlətin konstitusion quruluşunu təsbit edən, ölkənin iqtisadi, siyasi, sosial xüsusiyyətlərini özündə əks etdirən, habelə regional və beynəlxalq münasibətlərdə mövqeyini müəyyən edən bir sənəd olduğunun bariz nümunəsidir.

Saqr Qobaş Azərbaycanda həyatın bütün sahələrində, o cümlədən təhsil, səhiyyə, ətraf mühitin qorunması, enerji təhlükəsizliyinin təmin edilməsi istiqamətlərində təqdirəlayiq nailiyyətlərin əldə edildiyini vurğulayıb. Birləşmiş Ərəb Əmirlikləri ilə Azərbaycan arasında qarşılıqlı hörmətə əsaslanan əməkdaşlığın gələcəkdə daha da möhkəmləndirilməsinə inamını ifadə edib. Hər iki ölkənin qanunverici orqanlarının konstitusiya dəyərlərinin və prinsiplərinin həyata keçirilməsində önəmli rolundan bəhs edib. Azərbaycan dövləti və xalqına davamlı tərəqqi və rifah arzulayıb.

Sonra Pakistan İslam Respublikası Senatının Sədri Syed Yusuf Raza Gilani çıxış edərək Azərbaycan üçün əlamətdar hadisə - ölkə Konstitusiyasının qəbul edilməsinin 30 illiyi münasibətilə keçirilən tədbirdə iştirakından məmnunluğunu ifadə edib. O, Konstitusiyanın dövlət və xalq arasında körpü rolunu oynadığını, cəmiyyətdə ədalətin təmin edilməsi, dövlətçiliyin əsaslarının müəyyənləşdirilməsi ilə bağlı məsələlərin, insanların hüquq və azadlıqlarının təsbit edildiyi ali sənəd olduğunu bildirib. Ümummilli Lider Heydər Əliyevin Azərbaycanın demokratik prinsiplərə əsaslanan Konstitusiyasının hazırlanmasında və qəbul edilməsində müstəsna xidmətlərini xüsusi qeyd edib. Pakistan Senatının spikeri Prezident İlham Əliyevin Azərbaycan dövlətinin suverenliyini və müstəqilliyini qorumaq, ərazi bütövlüyünü təmin etmək və ölkənin beynəlxalq mövqeyini möhkəmləndirmək sahəsində atdığı mühüm əhəmiyyətli addımları təqdir edib. 2025-ci ilin Azərbaycanda "Konstitusiya və Suverenlik İli" elan edilməsinin dövlət başçımızın bu dəyərlərə sadiqliyinin nümunəsi olduğunu vurğulayıb. Azərbaycan Prezidentinin ölkəmizdə qanunun aliliyinə əsaslanan ədalətli, müasir cəmiyyətin qurulması, multikulturalizm və tolerantlığın inkişafı, regionda sülhün, sabitliyin, təhlükəsizliyin bərqərar olunması istiqamətində gördüyü işləri yüksək qiymətləndirib.

Konfransda çıxış edən Tacikistan Respublikası Ali Məclisinin Nümayəndələr Palatasının Sədri Fayzali İdizoda Azərbaycan Konstitusiyasının 30 illiyi ilə əlaqədar təbriklərini çatdıraraq, Konstitusiyanın hər bir müstəqil dövlətin hüquqi, siyasi və sosial əsasını təşkil edən, dövlətin suverenliyini təsdiqləyən ali hüquqi sənəd olduğunu qeyd edib. O, Tacikistanla Azərbaycan arasında dərin tarixi köklərə, ortaq mədəni dəyərlərə, adət-ənənələrə əsaslanan dostluq əlaqələrinin olduğunu söyləyib. Ölkələrimiz arasında münasibətlərin möhkəmlənməsində dövlət başçılarının qarşılıqlı səfərlərinin, mütəmadi təmaslarının mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıb. İkitərəfli əlaqələrin inkişaf etdirilməsində parlamentlərin rolunu qeyd edərək, hər iki ölkənin qanunverici orqanları arasında əməkdaşlıq haqqında sazişin imzalandığını və bunun ölkələrimiz arasında siyasi, iqtisadi, elmi-texniki, sosial-mədəni, humanitar və digər sahələrdə əməkdaşlığın daha da genişləndirilməsində vacibliyindən danışıb.

Fayzali İdizoda Azərbaycan Konstitusiyasının ölkənin əsas siyasi-hüquqi sənədi kimi ən dəyərli və mütərəqqi ünsürləri özündə cəmləşdirdiyini, dövlət müstəqilliyini, suverenliyini və beynəlxalq nüfuzunu möhkəmləndirdiyini bildirib. Bu sənəddə dayanıqlı inkişaf, milli birlik və daxili sabitlik üçün möhkəm təməllərin təsbit edildiyini və bunun ölkənin yeni tarixi şəraitdə davamlı tərəqqisini təmin etdiyini deyib.

Tədbirdə Rumıniya Parlamenti Senatının Sədri Mirça Abrudean çıxış edərək Rumıniyanın Azərbaycanla əlaqələrinə önəm verdiyini bildirib, Azərbaycan Konstitusiyasının 30 illiyinin qeyd edilməsini ölkə həyatında mühüm hadisə kimi dəyərləndirib. Konstitusiyanın dövlətçilik ənənələrinin möhkəmləndirilməsi, ölkənin siyasi sisteminin əsaslarının təmin edilməsi, ərazi bütövlüyünün, suverenliyin qorunması, qanunun aliliyi, insan hüquq və azadlıqlarına əməl edilməsi baxımından önəmli olduğunu söyləyib. Konstitusiyanın 30-cu ildönümünə həsr olunmuş Beynəlxalq Parlament Konfransının keçirilməsinin qanunverici orqanlar arasında əməkdaşlığın əyani sübutu olduğunu deyib. Azərbaycan Konstitusiyasının ölkəmizin və xalqımızın gələcək inkişafı üçün möhkəm təməl rolunu oynadığını vurğulayıb.

Konfransda Belarus Milli Assambleyası Respublika Şurasının Sədr müavini Vladislav Tatarinoviç, Gürcüstan Parlamentinin Sədr müavini Nino Tsilosani, Serbiya Milli Assambleyasının Sədr müavini Covan Canciç, Kamboca Milli Assambleyası Sədrinin ikinci müavini Sot Vonq, Türkiyə Böyük Millət Məclisinin üzvləri Hasan Turan və Şamil Ayrım, Özbəkistan Ali Məclis Senatının komitə sədri Əbdulhakim Eşmuratov, Rusiya Federal Məclis Federasiya Şurasının deputatı Natalya Kuvşinova, Pakistan Milli Assambleyasının deputatı Sofiya Said Şah, Qazaxıstan Parlament Məclisinin üzvü Aydos Sarım, İtaliya Deputatlar Palatasının üzvü Eucenio Zoffili, Malayziya Senatının üzvü Mohd Hatta Bin Ramli və Cənubi Afrika Milli Assambleyasının üzvü Verner Horn çıxış edərək Azərbaycan Konstitusiyasının qəbul edilməsinin 30 illiyi münasibətilə səmimi təbriklərini, dəvətə və yüksək təşkilatçılığa görə Milli Məclisin Sədri Sahibə Qafarovaya minnətdarlıqlarını bildiriblər. Qeyd olunub ki, bu konfrans konstitusiya irsinin təntənəsinin bariz nümunəsi olmaqla yanaşı, qanunverici orqanlar arasında faydalı fikir mübadiləsi və əməkdaşlıq üçün səmərəli platforma yaradır.

Çıxış edənlər öz ölkələri ilə Azərbaycanın konstitusiya tarixləri arasında paralellər aparıblar, müstəqillik və suverenlik uğrunda mübarizədə oxşar tarixi təcrübələrə diqqət çəkiblər.

Qeyd olunub ki, Azərbaycan Respublikasının Konstitusiyası xalqın arzularının və milli iradəsinin ifadəsi kimi formalaşmış, Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi strateji məqsədlərin hüquqi əsasını yaratmaqla, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin möhkəm zəminini təşkil etmişdir.

Konfrans iştirakçıları Azərbaycanın bu gün Qarabağ Zəfəri ilə taclanan yeni bir tarixi dövr yaşadığını qeyd ediblər. Vurğulanıb ki, Azərbaycan bu gün yalnız ərazi bütövlüyünün deyil, həm də konstitusional quruluşunun və suverenliyinin təntənəsini yaşayır.

Sonra konfransda Qlobal Tolerantlıq və Sülh Şurasının sədri Əhməd Əlcarvan, Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Aktotı Raimkulova, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının baş katibi Asəf Hacıyev və Türk Dövlətləri Parlament Assambleyasının baş katibinin müavini Muhammet Alper Hayali çıxış ediblər.

Onlar bildiriblər ki, konstitusiya prinsiplərinin möhkəmləndirilməsi təkcə bir dövlətin tarixini və irsini qorumaq deyil, həm də uzunmüddətli dayanıqlı gələcəyin təminatıdır. Yalnız qarşılıqlı hörmət və suverenliyə riayət prinsipləri əsasında xalqlar arasında bərabərlik, dostluq və qarşılıqlı fayda üzərində qurulan əməkdaşlıq sülh və tərəqqinin əsasını təşkil edir.

Konfransda çıxış edənlər ölkəmizin sülhə, tərəqqiyə və əməkdaşlığa verdiyi töhfələri yüksək qiymətləndirərək, Azərbaycan Milli Məclisi ilə əməkdaşlıqdan məmnunluqlarını ifadə ediblər. Onlar Azərbaycanın daha böyük uğurlar qazanacağına əminliklərini bildiriblər və parlamentlərarası əməkdaşlığın sülhə və bəşəriyyətin rifahına xidmət edəcəyinə inandıqlarını vurğulayıblar.

*"Azərbaycan"*

# Parlament diplomatiyası

## Beynəlxalq Parlament Konfransının iştirakçıları Fəxri xiyabanı və Şəhidlər xiyabanını ziyarət ediblər

**Oktyabrın 29-da Milli Məclisdə keçirilən Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsinin 30 illiyinə həsr olunmuş Beynəlxalq Parlament Konfransının iştirakçıları Fəxri xiyabanı və Şəhidlər xiyabanını ziyarət ediblər.**





Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Milli Məclisin Sədri Sahibə Qafarova, Pakistan İslam Respublikası Senatının Sədri Syed Yusuf Raza Gilani, Birləşmiş Ərəb Əmirlikləri Federal Milli Şurasının Sədri Saqr Qobaş, Tacikistan Respublikası Ali Məclisi Nümayəndələr Palatasının Sədri Fayzali İdizoda, Rumıniya Parlamenti Senatının Sədri Mirça Abrudean, eləcə də digər ölkələrin parlament nümayəndə heyətlərinin rəhbərləri və üzvləri, beynəlxalq təşkilatların təmsilçiləri əvvəlcə Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini dərin ehtiramla yad edib, məzarı önünə əklil qoyublar.

Sonra Beynəlxalq Parlament Konfransının iştirakçıları Şəhidlər xiyabanını ziyarət ediblər. Azərbaycanın azadlığı və müstəqilliyi uğrunda mübarizədə canlarını qurban vermiş qəhrəman Vətən övladlarının əziz xatirəsi ehtiramla yad olunub, məzarları üzərinə tər güllər düzülüb, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyulub.

Bakının ən hündür nöqtəsindən şəhəri seyr edən qonaqlara Şəhidlər xiyabanının tarixi və şəhərimizdə görülən abadlıq-quruculuq işləri barədə ətraflı məlumat verilib.

*"Azərbaycan"*

## Azərbaycan-Tacikistan əlaqələri uğurla inkişaf edir

### Milli Məclisin Sədri Sahibə Qafarova Tacikistan Ali Məclisi Nümayəndələr Palatasının Sədri ilə görüşüb

**Milli Məclisin Sədri Sahibə Qafarova Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsinin 30 illiyinə həsr olunmuş Beynəlxalq Parlament Konfransında iştirak etmək məqsədilə ölkəmizdə səfərdə olan Tacikistan Respublikası Ali Məclisi Nümayəndələr Palatasının sədri Fayzali İdizoda ilə görüşüb.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Fayzali İdizodanı Nümayəndələr Palatasının Sədri seçilməsi münasibətilə təbrik edən spiker Sahibə Qafarova Tacikistanın bu beynəlxalq konfransda yüksək səviyyədə iştirakına görə təşəkkür edib.

Görüşdə xalqlarımızı ortaq mədəni və mənəvi dəyərlərin birləşdirdiyi qeyd olunaraq, bu əlaqələrin daha da inkişaf etdirilməsinin mühüm əhəmiyyət daşıdığı diqqətə çatdırılıb. Söhbət zamanı Azərbaycan-Tacikistan arasında münasibətlərin qarşılıqlı anlaşma şəraitində strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyi qeyd olunaraq, bu münasibətlərin hazırkı yüksək səviyyəyə çatmasında dövlət başçılarımızın xüsusi rolu vurğulanıb. Qeyd olunub ki, dövlət başçılarının dövlətlərimizin və xalqlarımızın rifahı naminə həyata keçirdikləri uğurlu siyasət, eləcə də xalqlarımızın tam dəstəyi nəticəsində Azərbaycan-Tacikistan əlaqələri bu gün uğurla inkişaf edir.

Tərəflər parlamentlər arasında da əlaqələrin mövcud səviyyəsindən məmnunluqlarını ifadə ediblər.

Görüşdə Fayzali İdizoda Azərbaycan və Ermənistan arasında sülh sazişinin paraflanması münasibətilə təbriklərini çatdırıb. Milli Məclisin Sədri Sahibə Qafarova Vaşinqtonda aparılan danışıqların və ümumilikdə normallaşma prosesinin region üçün əhəmiyyətini vurğulayıb.

Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlər haqqında da fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

## Azərbaycan-Belarus münasibətləri qarşılıqlı etimada və dostluğa əsaslanır

### Milli Məclisin Sədri Sahibə Qafarova Belarus Milli Assambleyası Respublika Şurası Sədrinin müavini ilə görüşüb

**Milli Məclisin Sədri Sahibə Qafarova Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsinin 30 illiyinə həsr olunmuş Beynəlxalq Parlament Konfransında iştirak etmək məqsədilə ölkəmizdə səfərdə olan Belarus Respublikası Milli Assambleyası Respublika Şurası Sədrinin müavini Vladislav Tatarinoviç ilə görüşüb.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Vladislav Tatarinoviçi Milli Assambleyanın Respublika Şurası Sədrinin müavini seçilməsi münasibətilə təbrik edən spiker Sahibə Qafarova Belarus nümayəndə heyətinin bu beynəlxalq tədbirdə iştirakından məmnunluğunu bildirib.

Vladislav Tatarinoviç Beynəlxalq Parlament Konfransının yüksək səviyyədə təşkili ilə əlaqədar təbriklərini ifadə edib. O, Azərbaycan Respublikası Konstitusiyasının 30 illiyi ilə əlaqədar Belarus Milli Assambleyası Respublika Şurasının Sədri Natalya Koçanovanın təbrik məktubunu Milli Məclisin Sədri Sahibə Qafarovaya təqdim edib və salamlarını çatdırıb.

Görüşdə ölkələrimiz arasında münasibətlərin qarşılıqlı etimada və dostluğa əsaslanaraq uğurla inkişaf etdiyi qeyd olunub, əlaqələrin dərinləşməsində iki ölkənin dövlət başçıları arasında yüksəksəviyyəli münasibətlərin mühüm rolu vurğulanıb. Bildirilib ki, ölkələrimiz və xalqlarımız arasında yüksəksəviyyəli əlaqələr parlamentlərimiz arasında da münasibətlərin inkişafına təkan verir.

Qeyd olunub ki, qanunvericilik orqanlarımız beynəlxalq parlament təşkilatlarında da uğurla əməkdaşlıq edirlər. O cümlədən Azərbaycan Milli Məclisinin Asiya Parlament Assambleyasına sədrliyi dövründə Belarusun təşkilatda müşahidəçi statusu qazanması məmnunluqla qeyd edilib. Həmçinin Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə yaradılan Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin fəaliyyəti təqdir olunub.

Milli Məclisin Sədri onun da salamlarını Respublika Şurasının Sədrinə və Nümayəndələr Palatasının Sədri İqor Sergeyenkoya çatdırmağı xahiş edib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər haqqında da fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

## Münasibətlərin inkişafından məmnunluq ifadə olunub

### Milli Məclisin Sədri Sahibə Qafarova Kamboca Milli Assambleyası Sədrinin müavini ilə görüşüb

**Milli Məclisin Sədri Sahibə Qafarova oktyabrın 29-da Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsinin 30 illiyinə həsr olunmuş Beynəlxalq Parlament Konfransında iştirak etmək məqsədilə ölkəmizdə səfərdə olan Kamboca Krallığı Milli Assambleyası Sədrinin müavini Sot Vonq ilə görüşüb.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə Azərbaycan və Kamboca parlamentləri arasında əlaqələrin yüksək səviyyədə olduğu vurğulanıb. Spiker Sahibə Qafarova Azərbaycan üçün mühüm əhəmiyyət kəsb edən bu konfransda dost ölkələrin parlament nümayəndə heyətlərinin iştirakını yüksək qiymətləndirdiyini bildirib.

Kamboca Milli Assambleyası Sədrinin müavini Beynəlxalq Parlament Konfransının uğurlu təşkilini qeyd edərək həm Xuon Sudarinin, həm də Senatın Sədri Hun Senin təbriklərini çatdırıb.

Söhbət zamanı parlamentlərimiz arasında münasibətlərin inkişafından məmnunluq ifadə olunub. Milli Məclisin Sədri Cənub-Şərqi Asiya Dövlətləri Parlamentlərarası Assosiasiyası Baş Assambleyasının iclasında iştirak etmək üçün Kambocaya səfərini və səfər çərçivəsində keçirdiyi görüşləri, həmçinin Malayziyaya işgüzar səfəri çərçivəsində Kamboca Milli Assambleyasının Sədri Xuon Sudari ilə görüşünü məmnunluqla xatırladaraq, bu təmasların parlamentlərimiz arasında əlaqələrin daha da dərinləşməsinə töhfə verdiyini bildirib.

Qeyd olunub ki, parlamentlərimiz arasında 2022-ci ildə imzalanmış Anlaşma Memorandumu əlaqələrimizin daha da inkişafı üçün mühüm əsas yaradır və bu istiqamətdə yeni imkanlar mövcuddur. Tərəflər parlamentlərdəki dostluq qruplarının və müxtəlif komitələrin əməkdaşlığının vacibliyini qeyd ediblər. Həmçinin beynəlxalq parlament təşkilatlarında, o cümlədən Qoşulmama Hərəkatı Parlament Şəbəkəsi, Asiya Parlament Assambleyası və Cənub-Şərqi Asiya Dövlətləri Parlamentlərarası Assosiasiyası çərçivəsində əməkdaşlığın əhəmiyyəti vurğulanıb.

Görüşdə digər məsələlər haqqında da fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

## Azərbaycan və Xorvatiya arasında əməkdaşlıq yüksələn xətlə inkişaf edir

**Oktyabrın 29-da Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov Azərbaycan Respublikasının Konstitusiyasının qəbul edilməsinin 30 illiyinə həsr olunmuş Beynəlxalq Parlament Konfransında iştirak etmək məqsədilə ölkəmizdə səfərdə olan Xorvatiya parlamentinin Xarici işlər komitəsinin sədri Andro Krstuloviç Oparanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə qonaqları salamlayan Səməd Seyidov Xorvatiya parlamenti Sədrinin bu il ölkəmizə rəsmi səfərini məmnunluqla xatırladaraq, bunun iki ölkə arasında dostluq və tərəfdaşlıq münasibətlərinin və parlamentlərarası əlaqələrin möhkəmlənməsinə mühüm töhfə verdiyini qeyd edib. Vurğulanıb ki, parlamentlərarası dialoqun intensivləşdirilməsi, qarşılıqlı səfərlərin və komitələrarası əməkdaşlığın genişləndirilməsi qanunverici orqanlar arasında əlaqələrin daha da dərinləşməsinə xidmət edəcək.

Xorvatiya parlamentinin Xarici işlər komitəsinin sədri Andro Krstuloviç Opara ikitərəfli əməkdaşlığın inkişafının və parlamentlərarası dialoqun daha da gücləndirilməsinin vacibliyini vurğulayıb. Parlamentlərin dövlətlərarası münasibətlərin inkişafında vacib siyasi və diplomatik platformalardan biri olduğunu deyən qonaq qeyd edib ki, Azərbaycan parlamentində təşkil olunan beynəlxalq konfransda aparılan müzakirələr parlamentlər arasında təcrübə və fikir mübadiləsinə mühüm töhfə verəcək.

Xorvatiya ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Könül Nurullayeva iki ölkə arasında siyasi münasibətlərin yüksək səviyyədə olduğunu qeyd edərək bildirib ki, Azərbaycan və Xorvatiya arasında əməkdaşlıq humanitar, mədəni və iqtisadi istiqamətlərdə də dinamik və yüksələn xətlə inkişaf edir.

*"Azərbaycan"*

# Bakıda Türkiyənin milli bayramı münasibətilə rəsmi qəbul təşkil edilib







**Türkiyə Respublikasının yaranmasının 102-ci ildönümü münasibətilə oktyabrın 29-da Bakıda rəsmi qəbul təşkil edilib.**

Tədbirdə əvvəlcə Türkiyə Respublikasının qurucusu Mustafa Kamal Atatürkün və şəhidlərin xatirəsi birdəqiqəlik sükutla yad edilib. Sonra Azərbaycanın və Türkiyənin Dövlət himnləri səsləndirilib.

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın ölkəsinin milli bayramı münasibətilə təbrik məktubu Türkiyənin ölkəmizdəki səfiri Birol Akgün tərəfindən oxunub.

Birol Akgün bildirib ki, dünyanın bütün xalqları ilə barış və harmoniya içində yaşamaq Türkiyənin əsas məqsədlərindən biridir.

Onun sözlərinə görə Mustafa Kamal Atatürkün "Yurdda sülh, cahanda sülh" kəlamı bu fikri ən gözəl şəkildə ifadə edir: "Biz hamımız Azərbaycan və Türkiyə arasında qəlblərə kök salmış istisna bir qardaşlığın şahidiyik. Tariximizin dərinliklərindən gələn dəyərlərdən, ilham və cəsarətdən güc alaraq, "bir millət, iki dövlət" anlayışı ilə Türkiyə hər zaman Azərbaycanı beynəlxalq platformalarda ən güclü şəkildə dəstəkləməyə davam edəcək", - deyə səfir vurğulayıb.

O bildirib ki, Prezident İlham Əliyevin liderliyi ilə Azərbaycan tək yumruq kimi birləşərək işğal altındakı torpaqlarımı azad etdi, öz milli sərhədləri daxilində tam suverenliyinə qovuşdu: "Azərbaycan döyüş meydanında qazandığı nailiyyətləri diplomatik masaya da daşıyıb. Bölgədə davamlı sülhün təmin olunması, bərpa və inkişafın başlanması, eləcə də qlobal sabitliyin və rifahın artması üçün tarixi bir fürsət yaranıb. Bu bölgədə qurulacaq sülh və sabitlikdən yalnız region ölkələri deyil, bütün dünya fayda görəcək. Ona görə də qalıcı sülhün təmin olunması hamımızın ən vacib məqsədidir".

Tədbirdə çıxış edən Milli Məclisin Sədri Sahibə Qafarova Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin səmimi təbriklərini və ən xoş arzularını çatdırıb və tədbir iştirakçılarını və bütün Türkiyə xalqını Cümhuriyyət bayramı münasibətilə ürəkdən təbrik edib.

Milli Məclisin Sədri çıxışında müasir Türkiyənin qurucusu Qazi Mustafa Kamal Atatürkü dərin ehtiramla xatırlayaraq qeyd edib ki, Böyük Atatürkün respublika quruluşu, dünyəvi dövlətçilik və demokratik dəyərlər haqqında ideyaları qardaş Türkiyə Respublikasının davamlı inkişafının təməlində dayanır.

Sahibə Qafarova vurğulayıb ki, müasir dövrün böyük siyasi və dövlət xadimi, Türkiyə Respublikasının Prezidenti cənab Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi ilə Türkiyə dünyanın ən qüdrətli dövlətlərindən birinə çevrilib. Bu gün qardaş ölkəmiz yeni beynəlxalq münasibətlər sisteminin cizgilərini müəyyən edən dövlətlər arasında aparıcı yer tutur. Türkiyə müstəqil və çoxvektorlu xarici siyasəti ilə məsuliyyət, prinsipiallıq və uzaqgörənlik nümunəsi göstərir.

Milli Məclisin Sədri diqqətə çatdırıb ki, Yaxın Şərqdən başlamış Şərqi Avropayadək bir sıra böhranlı regionlarda Türkiyənin göstərdiyi səylər sülhə və dialoqa xidmət edir, bütün dünyada dərin hörmət və rəğbət doğurur. Türkiyənin diplomatiyası çeviklik və müdrikliyin rəmzi, səsi isə sülh, sabitlik və ədalətin sədasıdır.

Qeyd edilib ki, türk xalqının yaradıcılıq enerjisinin birləşdirilməsi iqtisadiyyat, elm, texnologiya, müdafiə sənayesi və digər sahələrdə heyrətamiz uğurların əldə edilməsinə gətirib çıxarıb. Qardaş ölkə bu gün dünyanın ən böyük iqtisadiyyatları sırasında layiqli yer tutur, strateji sahələrdə mühüm layihələr həyata keçirir. Türkiyə qitələri birləşdirən enerji, nəqliyyat və logistika marşrutlarının əsas mərkəzinə çevrilib.

Sahibə Qafarova bildirib ki, Türkiyə gələcəyə inamla baxan, milli dəyərlərə sadiq və yeniliyə açıq ölkədir. Türkiyənin təcrübəsi sübut edir ki, dövlətin gücü yalnız iqtisadi və hərbi imkanlar ilə deyil, həm də mənəvi məsuliyyəti, qurub-yaratmaq və müdafiə etmək qabiliyyəti ilə ölçülür.

Milli Məclisin Sədri vurğulayıb ki, qardaş ölkənin uğurlarına Azərbaycanda öz uğurlarımız kimi sevinirik. Ulu Öndər Heydər Əliyevin ifadə etdiyi kimi, Azərbaycanla Türkiyə "bir millət, iki dövlətdir". Ölkələrimizin dostluq və qardaşlıq münasibətləri ortaq köklərimizdən və milli-mənəvi dəyərlərimizdən güc alır, qarşılıqlı hörmət və etimada əsaslanır.

O qeyd edib ki, Şuşa Bəyannaməsi iki ölkə arasındakı münasibətləri ən yüksək zirvəyə - müttəfiqlik səviyyəsinə yüksəldib. Müxtəlif sahələrdə işbirliyimiz dostluq və qardaşlıq münasibətlərimizi daha da möhkəmləndirir, xalqlarımızın rifahına və tərəqqisinə xidmət edir. Birgə strateji layihələrimiz Cənubi Qafqaz bölgəsinin sülh, sabitlik və əməkdaşlıq məkanına çevrilməsində mühüm rol oynayır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sözləri ilə desək, "dünyada ikinci belə ölkələr yoxdur ki, bir-birinə bu qədər bağlı olsun".

Milli Məclisin Sədri vurğulayıb ki, Azərbaycan və Türkiyə beynəlxalq məsələlərdə daim eyni mövqedən çıxış edirlər. Türk Dövlətləri Təşkilatında birgə fəaliyyət isə türk birliyinin möhkəmlənməsinə dəyərli töhfələr verir.

Sahibə Qafarova bildirib ki, 44 günlük Vətən müharibəsində Türkiyənin Azərbaycanın yanında olmasını xalqımız heç zaman unutmayacaq. Türkiyə Respublikasının Prezidenti cənab Rəcəb Tayyib Ərdoğan başda olmaqla bütün Türkiyənin verdiyi siyasi və mənəvi dəstək, türk xalqının tutduğu qəti mövqe Azərbaycan torpaqlarının işğalına son qoyulmasında önəmli rol oynayıb.

Milli Məclisin Sədri qeyd edib ki, bu gün Türkiyə Qarabağda və Şərqi Zəngəzurda aparılan bərpa-quruculuq işlərində və digər məsələlərdə də Azərbaycanın yanında yer alır. O, əminliklə söyləyib ki, Azərbaycanla Türkiyənin birlik və bərabərliyi qarşıdakı illərdə xalqlarımıza yeni-yeni uğurlar gətirəcək.

Sahibə Qafarova çıxışının sonunda Türkiyə xalqını bir daha Cümhuriyyət bayramı münasibətilə təbrik edib, Türkiyənin tərəqqisi, rifahı və xoşbəxtliyi üçün ən xoş arzularını ifadə edib.

Rəsmi qəbul konsert proqramı ilə davam edib.

Rəsmi qəbulda Milli Məclisin deputatları, dövlət və hökumət rəsmiləri, Azərbaycanda akkreditə olunmuş səfirliklərin, beynəlxalq təşkilatların rəhbərləri və üzvləri, həmçinin mədəniyyət və incəsənət xadimləri, media subyektlərinin nümayəndələri iştirak ediblər.

***"Azərbaycan"***

# Belarusun Baş nazirinin müavini Füzuli və Ağdam rayonlarına səfər edib






**Azərbaycan Respublikası və Belarus Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə birgə Hökumətlərarası Komissiyanın Azərbaycan tərəfindən həmsədri Baş nazirin müavini Samir Şərifov və Belarus tərəfindən həmsədri Baş nazirin müavini Natalya Petkeviçin rəhbərlik etdikləri nümayəndə heyəti oktyabrın 29-da işğaldan azad olunan Füzuli rayonuna səfər edib.**

AZƏRTAC xəbər verir ki, Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov Füzuli Beynəlxalq Hava Limanında qonaqlara aeroport haqqında ətraflı məlumat verib. Bildirilib ki, Qarabağın "hava qapısı" adlandırılan Füzuli Beynəlxalq Hava Limanı ən müasir səviyyədə inşa olunub və istənilən hava gəmisini qəbul etmək imkanına malikdir. Diqqətə çatdırılıb ki, işğaldan azad olunan ərazilərdə genişmiqyaslı bərpa-quruculuq işləri davam edir. Füzuli şəhərində yaşayış məhəlləsi salınıb və keçmiş məcburi köçkünlər doğma yurda qayıdır.

Özbəkistan Prezidenti Şavkat Mirziyoyev tərəfindən özbək xalqı adından hədiyyə olaraq inşa edilən Füzuli şəhər Mirzə Uluqbəy adına tam orta məktəb, qazax xalqının hədiyyəsi olan Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzi haqqında da məlumat verilib.

Sonra nümayəndə heyəti Ağdam rayonuna səfər edib. Qonaqlar rayonun Qızıl Kəngərli kəndinin layihələndirilməsi barədə təqdimatla tanış olublar. Kənddə yaradılacaq aqrar şəhərcik haqqında məlumat verilib. Layihənin Ağdam rayonunda yaşayış məskənlərinin hərtərəfli inkişafına, kənd ərazilərinin dirçəldilməsinə, bölgənin iqtisadiyyatına önəmli təsiri olacağı bildirilib.

Daha sonra Ağdam Sənaye Parkı ilə tanışlıq olub. Nümayəndə heyətinə sənaye parkında fəaliyyətə başlayan müəssisələr barədə, həmçinin burada yaradılan daimi iş yerləri haqqında məlumat verilib.

Qeyd edilib ki, Prezident İlham Əliyevin 2021-ci il 28 may tarixli fərmanına əsasən, İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəçiliyində Ağdam rayonunda 190 hektar ərazidə Ağdam Sənaye Parkı yaradılıb. Ağdam Sənaye Parkının yaradılmasında məqsəd işğaldan azad edilmiş ərazilərin dirçəldilməsi, Qarabağın sənaye potensialının inkişafı, sahibkarlığın dəstəklənməsi, əhalinin istehsal sahəsində məşğulluğunun artırılmasıdır. Ağdam Sənaye Parkında ümumi investisiyalarının həcmi 292 milyon manatdan çox olan 31 sahibkarlıq subyektinə rezidentlik, 4 sahibkara isə qeyri-rezidentlik statusu verilib. Bu 35 sahibkarlıq subyekti tərəfindən sənaye parkında ümumilikdə 2500-dən çox iş yerinin yaradılması nəzərdə tutulur. Bu günədək rezidentlər tərəfindən sənaye parkına 142 milyon manatdan artıq investisiya yatırılıb, 900-dən çox daimi iş yeri yaradılıb. Hazırda sənaye parkında 12 müəssisə istehsal fəaliyyətinə başlayıb və 8 müəssisədə tikinti işləri davam etdirilir. Müəssisələr tərəfindən bu günədək 945 milyon manatdan çox satış həyata keçirilib ki, bunun da 40 milyon manata yaxın hissəsi ixracın payına düşüb.

Belaruslu qonaqlara sənaye parkında yaradılan infrastruktur, rezidentlər üçün tətbiq olunan dəstək mexanizmləri, logistika imkanları, habelə hazırda fəaliyyət göstərən və işə salınması planlaşdırılan istehsal sahələri barədə ətraflı məlumat verilib. Tərəflər sənaye kooperasiyası, birgə müəssisələrin yaradılması ilə bağlı perspektivləri müzakirə ediblər.

Qonaqlar həmçinin Ağdam səfəri zamanı ikinci yaşayış kompleksi ilə də tanış olublar. Bildirilib ki, şəhərin təsdiq edilmiş Baş planına uyğun olaraq, Ağdamın mərkəzi küçəsində salınan kompleksin ümumi sahəsi təxminən 14 hektardır. Layihə çərçivəsində 1268 mənzilli çoxmənzilli yaşayış binaları inşa olunur. Kompleksin ərazisinin böyük hissəsi yaşıllıq zonası olacaq. Binaların memarlıq həllində müasir yanaşmalarla yanaşı, milli naxış elementlərindən də istifadə edilir. Layihə çərçivəsində sakinlərin rahatlığı üçün zəruri infrastruktur obyektlərinin yaradılması nəzərdə tutulur.

Baxış zamanı qonaqlara görülən işlərin gedişi, mərhələli icra qrafiki və kompleksin istifadəyə verildikdən sonra formalaşacaq şəhər mühitinin əsas xüsusiyyətləri barədə ətraflı məlumat verilib.

Bununla da nümayəndə heyətinin işğaldan azad olunan ərazilərə səfəri başa çatıb.

# Azərbaycan ilə Oman arasında əməkdaşlığın müxtəlif istiqamətlərdə genişləndirilməsi imkanları müzakirə olunub

**Oktyabrın 29-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Oman Sultanlığına rəsmi səfəri çərçivəsində Oman Dövlət Şurasının Sədri Şeyx Əbdülməlik Al Xəlili ilə görüşüb.**



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüş zamanı tərəflər Azərbaycan ilə Oman arasında dostluq və qarşılıqlı hörmətə əsaslanan münasibətlərin inkişafından məmnunluq ifadə edib, əməkdaşlığın müxtəlif istiqamətlərdə, o cümlədən iqtisadi, ticarət, enerji və humanitar sahələrdə genişləndirilməsi imkanlarını müzakirə ediblər.

Ölkələrimiz arasında parlamentlərarası əməkdaşlıq əlaqələrinin inkişafı məmnunluqla qeyd edilib, hər iki parlamentdə dostluq qruplarının yaradılmasının münasibətlərin inkişafı istiqamətində mühüm addım olduğu vurğulanıb.

Görüşdə Azərbaycan ilə Oman arasında münasibətlərin inkişafında ikitərəfli siyasi təmasların mühüm rolu vurğulanıb.

Omanda Azərbaycan səfirliyinin fəaliyyətə başlamasının iki ölkə arasında əməkdaşlığın daha da genişlənməsinə və əlaqələrin dərinləşməsinə yeni imkanlar yaratdığı qeyd olunub. Nazir Ceyhun Bayramov Azərbaycan tərəfindən 2026-cı ildə Bakıda keçiriləcək İslam Əməkdaşlıq Təşkilatının növbəti Zirvə görüşü və Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasına (WUF13) evsahibliyinin əhəmiyyətinə toxunaraq, bu tədbirlərin dialoq, həmrəylik və dayanıqlı inkişaf prinsiplərinin təşviqi baxımından yeni əməkdaşlıq imkanları yaradacağını bildirib.

Söhbət zamanı həmçinin regional və beynəlxalq məsələlər, o cümlədən qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Azərbaycanın Serbiyadakı səfirliyi və Monteneqrodakı diplomatik ofisi vətəndaşlarımızın təhlükəsizliyinin təmin olunması məqsədilə zəruri tədbirlər görür

**Azərbaycanın Serbiyadakı səfirliyi və Monteneqrodakı diplomatik ofisi Monteneqronun paytaxtı Podqoritsa şəhərində baş vermiş və Türkiyə vətəndaşlarının və bir nəfər Azərbaycan vətəndaşının saxlanılması ilə nəticələnən iğtişaşlarla əlaqədar yayılan məlumatları diqqətlə izləyir.**

Azərbaycanın Serbiyadakı səfirliyindən AZƏRTAC-a bildiriblər ki, səfirliyimiz və diplomatik ofisimiz Monteneqroda yaşayan və çalışan vətəndaşlarımızın təhlükəsizliyinin təmin olunması, eləcə də onların hüquqlarının və qanuni maraqlarının qorunması məqsədilə zəruri tədbirlər görür.

Bir nəfər vətəndaşımızın saxlanılması ilə bağlı Monteneqro hüquq-mühafizə orqanları ilə müvafiq danışıqlar aparılır və məsələ diplomatik kanallar vasitəsilə diqqətdə saxlanılır.

"Monteneqro ərazisində yaşayan və səfərdə olan bütün Azərbaycan vətəndaşlarına müraciət edərək, ictimai asayişin qorunması və mümkün insidentlərdən yayınmaq məqsədilə keçirilə biləcək hər hansı kütləvi aksiyalardan uzaq durmağı, yerli qanunvericiliyin tələblərinə ciddi riayət etməyi və zərurət yarandığı təqdirdə səfirlik və diplomatik ofisimizlə dərhal əlaqə saxlamağı tövsiyə edirik", - deyə açıqlamada qeyd olunub.

# Azərbaycanın xarici siyasətinin uğurları



Cənubi Qafqazda yeni reallıqların formalaşması regionun gələcəyi üçün mühüm perspektivlər açır. Bunu şərtləndirən amil isə avqustun 8-də Vaşinqtonda keçirilən üçtərəfli görüş zamanı Azərbaycan və Ermənistan liderləri tərəfindən imzalanmış Birgə Bəyannamədir.

## Vaşinqton Bəyannaməsi konkret nəticələr verir

### Cənubi Qafqazın sülh və rifaha çatması istiqamətində tarixi fürsət əldə olunub

Bu sənəd Azərbaycan və Ermənistan arasında daha böyük bir sülh müqaviləsinin müzakirələrinə hazırlıq mərhələsi hesab olunurdu. Gələcəkdə həm Azərbaycan, həm də Ermənistan arasında qarşılıqlı etimadın artması və daha güclü diplomatik əlaqələrin qurulması ehtimalı yüksək dəyərləndirilirdi. Bununla yanaşı, beynəlxalq ictimaiyyətin dəstəyi ilə sülh prosesinin davamlı olması üçün lazımi tədbirlərin görülməsi vacib hesab edilirdi. Ən əsası, qeyd edilirdi ki, bu bəyannaməyə əsasən, tərəflər arasında ərazi münaqişələrinin həlli və xalqın gələcəyinə dair daha müsbət bir perspektiv yaradılması mümkündür.

Bu tarixi görüşdən ötən müddət ərzində həm Azərbaycanda, həm də Ermənistanda baş verən proseslərə nəzər yetirsək görərik ki, hər iki ölkə sülhə doğru əsaslı addımlar atmaqdadır. Azərbaycanın mövqeyi daim bəlli olub. Hələ münaqişədən öncə də Azərbaycan müharibə yox, sülh yolu ilə keçmiş Dağlıq Qarabağ münaqişəsinin həllinin tərəfdarı olub. Ermənistan isə bütün dövrlərdə cəzasızlıq mühitindən istifadə edərək Azərbaycanı təxribata çəkib. Sonuncu təxribatı isə ona çox ağır başa gəlib.

İndi isə rəsmi İrəvan anlayır ki, sülh müqaviləsini imzalamayacağı təqdirdə, Ermənistan düşdüyü acınacaqlı durumdan qurtula bilməyəcək. Baş nazir Nikol Paşinyanın çıxışında söylədikləri də bunu bir daha təsdiqləyir. N.Paşinyan bəyan edib ki, Ermənistanda yoxsulluq səviyyəsi yüksək olaraq qalır - 23 faiz. "Burada bir ziddiyyət var: biz iqtisadi artım, böyük pul dövriyyəsi göstəririk. Lakin yoxsulluqda əhəmiyyətli dərəcədə azalma müşahidə etməmişik. Məncə, bunun səbəbi köhnəlmiş məktəblərdir, uşaqların əhəmiyyətli bir hissəsinin lazımi keyfiyyətli təhsil almaq hüququndan məhrum olmasındadır", - deyə o qeyd edib. Paşinyanın sözlərinə görə, əvvəlki hökumətdə ali təhsilin keyfiyyəti kəskin şəkildə aşağı düşüb, universitetlər korrupsiya və siyasi təzyiq alətlərinə çevrilib: "Bugünkü yoxsulluq bunun nəticəsidir".

Baş nazir qeyd edib ki, Vaşinqton Bəyannaməsi və əldə edilmiş razılaşmalar konkret nəticələr verir. Hökumətin iclasındakı çıxışında N.Paşinyan bir daha vurğulayıb ki, Azərbaycanın öz ərazisindən Ermənistana yüklərin tranziti ilə bağlı bütün məhdudiyyətləri aradan qaldırması qərarı Ermənistanın blokadadan çıxması deməkdir.

"İqtisadiyyatımızın strukturunda tezliklə köklü dəyişikliklər baş verəcək. Artıq iki gündür ki, Azərbaycanın Ermənistana yüklərin tranziti ilə bağlı məhdudiyyətləri aradan qaldırması haqqında bəyanatı müzakirə olunur. Bu, çox vacib qərardır və onu göstərir ki, Vaşinqton Bəyannaməsi və əldə olunmuş razılaşmalar sadəcə bəyannamələr deyil. Bu, konkret nəticələr gətirən bəyannamələrdir", - o qeyd edib.

Sülh müqaviləsinin imzalanması məsələsinə də toxunan baş nazir diqqətə çatdırıb ki, barış sənədinin imzalanması hər iki tərəfə çox müsbət dividendlər gətirəcək. Hələ sənədin imzalamasına hazırlıq prosesi gedir: "İlk dəfə olaraq, biz Ermənistanın büdcəsini Azərbaycanla bağlanmış sülh şəraitində müzakirə edirik. Artıq bir il səkkiz aydır ki, Ermənistan-Azərbaycan sərhədində atışma nəticəsində əsgərlər arasında itki olmayıb. Ermənistanın bütün müstəqillik tarixində heç vaxt belə bir il səkkiz ay olmayıb". Paşinyanın fikrincə, bərqərar olmuş sülhün yeni faktlar və hallar ortaya çıxarması vacibdir. "Xüsusilə, mən Azərbaycanın - rəsmi Bakının Ermənistana tranzit məhdudiyyətlərini qaldırdığı barədə açıqlamasını nəzərdə tuturam. Bu, mahiyyət etibarilə tarixi bir hadisədir və Ermənistanın blokadasının qaldırılmasının ilk mərhələsini qeyd edir. Ermənistanın bu bəyanatlara cavab verməsi və müvafiq addımlar atması da vacibdir. Hazırkı durum isə belədr: bu gündən etibarən yük maşınlarının Türkiyədən Azərbaycana və Azərbaycandan Türkiyəyə, xüsusən də Marqara-Yeğeqnadzor-Sisian-Gorus marşrutu ilə tranzitini təmin etməyə hazırıq. Bunu vurğulayıram, çünki bu gün tətbiq edə biləcəyimiz yeganə seçim budur", - deyə Paşinyan bildirib. O vurğulayıb ki, Azərbaycan Ermənistan üçün tranzit məhdudiyyətlərini qaldırdığı kimi, Ermənistan da Azərbaycan üçün tranzit məhdudiyyətlərini qaldıracaq.

Ümumiyyətlə, Azərbaycan və Ermənistan arasında sülhə doğru atılan addımlar, xüsusilə Zəngəzur dəhlizinin (TRIPP) açılması, yalnız iqtisadi deyil, həm də siyasi qələbə kimi qiymətləndirilir. Artıq hər iki tərəfdə hesab edilir ki, bölgədə uzun müddətdir gözlənilən sülh yaxınlaşır. Avqustun 8-də Vaşinqtonda baş verən hadisələr iki ölkə arasındakı gərginliyin sonu oldu.

Cənubi Qafqazda sülhün bərqərar olması bütün regionda yaşayan xalqlar üçün böyük əhəmiyyət daşıyır. Uzun illər davam edən münaqişələr və gərginliklərdən sonra sülh və qarşılıqlı anlaşma təbii ki, çox önəmlidir. Sülhün təmin edilməsi, təkcə dövlətlərarası razılaşmalara deyil, həm də insanların, toplumların bir-birinə olan etibarını, anlayışını və qarşılıqlı hörmətini inkişaf etdirməyə bağlıdır. Bir çox münaqişənin kökündə mədəni və tarixi fərqliliklər, qısqanclıqlar və siyasi gərginliklər yatarkən, real sülhün bərpası üçün tərəflərin vicdanlı, açıqfikirli və ən başlıcası, bir-birini dinləməyə hazır olmaları vacibdir.

İki ölkə arasında barışın əldə edilməsi prosesi həm də daha bir tarixi hadisənin reallaşacağını şərtləndirəcək. Bu da Zəngəzur dəhlizinin (TRIPP) açılması və hər iki tərəfin iqtisadiyyatının canlanması deməkdir.

Zəngəzur dəhlizinin açılması, Cənubi Qafqazda sülh və əməkdaşlıq baxımından çox mühüm bir addım ola bilər. Bu, Azərbaycanın iqtisadi inkişafını və strateji mövqeyini gücləndirəcək, həmçinin Naxçıvanın da inkişafına imkan verəcək.

Azərbaycanın təşviq etdiyi sülh gündəliyi göstərir ki, münaqişələrin bitməsi ilə yanaşı, yeni imkanlar da yaranır. Bu imkanlardan düzgün istifadə etmək isə bütün region ölkələrinin siyasi iradəsinə, əməkdaşlıq əzminə və gələcəyə baxışına bağlıdır. Sülh yalnız silahların susması deyil - bu, inkişaf, əməkdaşlıq və insan rifahı üçün açılan yeni səhifədir. Rəsmi Bakı tərəfindən irəli sürülən təşəbbüslər Cənubi Qafqazda sabitlik, inkişaf və əməkdaşlıq üçün real platforma yaradacaq.

*Rəşad BAXŞƏLİYEV, "Azərbaycan"*

## Sülh istiqamətində real addımlar atılır

### Beynəlxalq birlik Azərbaycanın bu addımını təqdirəlayiq hesab edir

**Prezident İlham Əliyev Qazaxıstana dövlət səfəri zamanı Ermənistana Azərbaycan üzərindən tranzit məhdudiyyətinin aradan qaldırıldığını bildirdi. Gürcüstanda keçirilən 5-ci "İpək yolu" forumunda iştirakı zamanı Ermənistanın Baş naziri isə bununla bağlı dövlət başçımıza təşəkkürünü ifadə etdi. Bütün bunlar sülh şəraitində regional əməkdaşlığı yaxınlaşdırır.**



Milli Məclisin deputatı Pərvanə Vəliyeva qəzetimizə açıqlamasında bildirib ki, məhdudiyyətin ilk dəfə Qazaxıstana münasibətdə ləğv edilməsi və bu ölkədən göndərilən taxılın Azərbaycandan keçərək Ermənistana çatdırılması dövlət başçımızın dost və qardaş ölkə Qazaxıstana jesti idi: "Həm Qazaxıstan, həm də Azərbaycan Orta dəhlizin etibarlı və iqtisadiyyatı güclü iki ölkəsidir. Bu, Azərbaycan tərəfindən Ermənistana qarşı humanist bir addım olmaqla yanaşı, Orta dəhlizin funksionallığına daha bir töhfədir. Mərkəzi Asiya - Azərbaycan və Avropa marşrutu alternativ, sabit və təhlükəsiz ticarət yoluna çevrilir. Bu istiqamətdə yükdaşımaları artır, iqtisadi əlaqələr, humanitar, mədəni əlaqələr sürətlə inkişaf edir".

Deputat vurğulayıb ki, bölgədə yaranmış sülh reallığını beynəlxalq təşkilatlar da yaxından izləyirlər. Avropa İttifaqının Cənubi Qafqaz üzrə nümayəndəsi Maqdalena Qrono da Azərbaycanın bu addımını təqdirəlayiq hal hesab edib. Kommunikasiyaların açılması 2020-ci ildə imzalanan üçtərəfli Bəyanatın tələblərindən biri olsa da, proses Ermənistan tərəfinin sülhdə manipulyativ addımları və xarici güclərin təsiri altına düşməsi nəticəsində 5 il ləngiyib: "Nəhayət, bu ilin avqustunda Vaşinqtonda imzalanan Birgə Bəyannamə ilə Zəngəzur dəhlizinin (TRIPP yolu) açılması ABŞ Prezidenti Donald Trampın şahidliyi əsasında təsdiqləndi. Ermənistan Azərbaycanın şərtlərini qəbul etdi".

Deputat bildirib ki, Azərbaycan tərəfindən Ermənistana tranzitin açılması paraflanmış sülhün yalnız kağız üzərində deyil, əməldə də özünü göstərdiyinin bariz nümunəsidir. Bundan başqa, Azərbaycan vətəndaş cəmiyyəti nümayəndələri erməni həmkarları ilə görüşmək üçün İrəvana səfər ediblər. Görüşün məqsədi sülh prosesinin perspektivləri kontekstində vətəndaş cəmiyyətlərinin fikir mübadiləsi olub. Sülh prosesi ərəfəsində belə görüşlərin keçirilməsi bu istiqamətdə praktiki addımların atıldığına bir nümunədir. Etimad-quruculuq tədbirləri çərçivəsində tərəflər bundan öncə də irəliyə doğru bir neçə addım atıblar. Beynəlxalq tədbirdə iştirak məqsədilə Ermənistanın təhlükəsizlik naziri Azərbaycana səfər edib, Azərbaycanın beyin mərkəzinin nümayəndəsi Ermənistanda tədbirdə iştirak edib. Milli Məclisin Sədri Sahibə Qafarova İsveçrəyə səfəri zamanı erməni həmkarı ilə görüşüb.

P.Vəliyeva Ermənistanın Baş nazirinin Çinə Azərbaycanın hava məkanı üzərindən səfər etdiyini xatırladaraq deyib ki, delimitasiya və demarkasiya prosesi çərçivəsində hər iki tərəf bir-birinin ərazisinə daxil olub: "Vətəndaş cəmiyyəti nümayəndələrinin, siyasi ekspertlərin "dəyirmi masa" müzakirəsi həm də sülhdə ictimai fonun yaranmasına xidmət edir. Yəni siyasi danışıqlarla yanaşı, ictimaiyyət təmsilçilərinin də real vəziyyəti qiymətləndirməsi və əməkdaşlıq imkanlarını dəyərləndirməsi iki ölkə arasında etimad quruculuğuna dəstək baxımından çox əhəmiyyətlidir. Nəticədə bu, regionda davamlı və dayanıqlı sülhə nail olunmasına xidmət edir".

*Əsmər QARDAŞXANOVA, "Azərbaycan"*

## Azərbaycan və Ermənistan getdikcə sülhə daha da yaxınlaşır

### Münasibətlərin normallaşması real nəticələrdə özünü göstərir

**Azərbaycan və Ermənistan arasında normallaşma prosesi bütövlükdə regionun inkişafı üçün vacibdir. Vaşinqton Sammitindən sonra Azərbaycan normallaşma istiqamətində adekvat addımlar atır. Ermənistan da bu addımlara uyğunlaşmağa çalışır.**



Milli Məclisin deputatı Nigar Məmmədova qəzetimizə açıqlamasında bildirib ki, Azərbaycanın tranzit məhdudiyyətini aradan qaldırması ilə bağlı jestindən sonra Ermənistanın Baş naziri Nikol Paşinyan da yeni bir marşrut təklifi ilə çıxış edib. Bu marşrutun səmərəliliyi barədə danışmaq hələ tezdir: "Amma ümumilikdə götürsək, bu, Ermənistanın sülh istiqamətində fəaliyyət cəhdi kimi qiymətləndirilə bilər. Lakin bu, heç bir halda Zəngəzur dəhlizinə alternativ deyil. Digər tərəfdən, bu, Türkiyə-Ermənistan sərhədlərinin açılması anlamına da gəlməməlidir. Çünki rəsmi Ankaranın bu məsələdə mövqeyi prinsipialdır - Ermənistan Türkiyə ilə sərhədlərin açılmasını istəyirsə, ilk növbədə, Azərbaycanla əlaqələri normallaşdırmalıdır. Bu kontekstdə Ermənistan rəhbərliyinin yeni marşrut təklifi destruktiv istiqamətlərə yönəlməməlidir. Azərbaycan Ermənistandan gələn konstruktiv təkliflərə hər zaman açıqdır. Burada söhbət tranzit imkanlarından düzgün yararlanmaqdan gedir. Marşrutlar yükdaşımanı artırır, nəqliyyat xərclərini azaldır, eyni zamanda sərhəd bölgələrində tranzit haqları və əlavə iş yerləri üçün potensial yaradır. Təkmilləşdirilmiş infrastruktur həm də nəqliyyat sektoruna investisiyaların cəlb edilməsinə stimul verir və belə layihələr Cənubi Qafqazda nəqliyyat şəbəkələrinin daha genişmiqyaslı inteqrasiyasına töhfə verir, - deyə o əlavə edib.

Deputat qeyd edib ki, Azərbaycan Prezidenti dəfələrlə Ermənistan rəhbərliyinə regionun mövcud tranzit reallıqlarını xatırladıb. Qarşı tərəf artıq anlayır ki, Azərbaycan olmadan bu imkanların reallaşması qeyri-mümkündür.

N.Məmmədova vurğulayıb ki, vətəndaş cəmiyyətləri arasında qarşılıqlı dialoq da sülh prosesinə töhfə verən addımlardandır: "Bu günlərdə İrəvanda "xalq diplomatiyası" çərçivəsində vətəndaş cəmiyyəti üzvlərinin ilk görüşü keçirildi. Belə görüşlər qarşılıqlı etimadın möhkəmləndirilməsi, sabit iqtisadi əməkdaşlığın inkişafı, eləcə də birbaşa və uzunmüddətli əlaqələrin qurulması baxımından müsbət qiymətləndirilməlidir. Hesab edirəm ki, belə təmaslar intensiv olmalıdır. Bu, iki ölkə cəmiyyətini narahat edən çoxsaylı mövzuların, o cümlədən Azərbaycan və Ermənistan arasında sülh prosesi perspektivlərinin, humanitar məsələlərin müzakirəsi baxımından əhəmiyyətli platformadır. Sosial qrupların, vətəndaş cəmiyyəti institutlarının, ekspert çevrələrinin və medianın da prosesə cəlb olunması daha effektiv nəticələr əldə etməyə imkan verə bilər".

Deputat hesab edir ki, Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşması artıq real nəticələrdə özünü göstərir. Vaşinqton Sammitində əldə olunan razılaşmalar tərəflərin dayanıqlı sülh istiqamətində praktik addımlar atmasını şərtləndirir. Lakin bu addımlar qarşılıqlı olmalı və heç bir halda tərəfləri yekun sülh sazişindən uzaqlaşdırmamalıdır.

*Əsmər QARDAŞXANOVA, "Azərbaycan"*

## <u>*Türk ekspert:*</u> "TRIPP təşəbbüsü regionda sabitlik və rifahın əsas dayaqlarından birinə çevriləcək"

**Düşənbə Sammitindən sonra Azərbaycan Prezidenti İlham Əliyevin Ermənistana yükdaşımalarla bağlı məhdudiyyətlərin aradan qaldırılacağını elan etməsi regional iqtisadi inteqrasiyanın real şəkildə başlanması deməkdir.**



Bu sözləri AZƏRTAC-a açıqlamasında türkiyəli politoloq Hüsaməddin İnaç deyib.

Onun sözlərinə görə, Ermənistanın Baş naziri Nikol Paşinyanın da Azərbaycan və Türkiyə ilə bağlı bütün məhdudiyyətlərin, o cümlədən logistika sahəsindəki məhdudiyyətlərin aradan qaldırılmasına razılıq verməsi mühüm tarixi dönüş nöqtəsidir.

Politoloq vurğulayıb ki, Zəngəzur dəhlizi (TRIPP) layihələrinin inkişafı xüsusilə Orta dəhlizin rəqabət qabiliyyətini və onun beynəlxalq tranzit marşrutu kimi rolunu əhəmiyyətli dərəcədə artıracaq. "Bu təşəbbüslər Çinin "Bir kəmər, bir yol" layihəsi ilə uzlaşaraq Cənubi Qafqazda Azərbaycan, Gürcüstan və Ermənistan vasitəsilə Türkiyə və Avropa ilə yeni kommunikasiya körpüsü yaradacaq", - deyə ekspert qeyd edib.

Onun fikrincə, bu təşəbbüslərin ABŞ tərəfindən də dəstəklənməsi regionda etimad mühitinin bərpasına və uzunmüddətli sabitliyin təmin edilməsinə mühüm töhfə verəcək. "Cənubi Qafqazda yaranan sabitlik Orta Şərqdə atəşkəs və sülh proseslərinə də müsbət təsir göstərəcək. Azərbaycanın təbii qazının Suriyaya ötürülməsi, həmçinin Qəzzada yaradılması planlaşdırılan beynəlxalq sabitlik qüvvələrinə Azərbaycanın mümkün qoşulması regionun geosiyasətində yeni mərhələnin əsasını qoyacaq", - deyə İnaç bildirib.

Ekspert əlavə edib ki, TRIPP təşəbbüsünün həm dəmir, həm də avtomobil yollarını əhatə etməsi nəqliyyat xərclərinin azalmasına və daha səmərəli alternativ marşrutların formalaşmasına imkan yaradacaq. Onun sözlərinə görə, təşəbbüsün İran istiqamətində genişləndirilməsi bu ölkənin beynəlxalq sistemə inteqrasiyasını da mümkün edir. "Bu proses nəticəsində bölgədəki ziddiyyətlər və qarşıdurmalar əməkdaşlıq və ortaq maraqlarla əvəz olunacaq, Cənubi Qafqaza xarici təsirlərin müdaxiləsi isə əhəmiyyətli dərəcədə azalacaq", - deyə o əlavə edib.

Hüsaməddin İnaç qeyd edib ki, Ukrayna-Rusiya müharibəsinin təsirləri nəticəsində ekspansionist siyasət aparan qüvvələrin birtərəfli müdaxilə cəhdləri regionun təhlükəsizliyinə ciddi təhdid yaradır. Belə bir şəraitdə TRIPP kimi təşəbbüslərin təmin etdiyi sabitlik, iqtisadi inteqrasiya və rifah paylaşımı indiki dövr üçün xüsusi strateji əhəmiyyət daşıyır.

# Leyla Əliyeva və Arzu Əliyeva Qax rayonunda Axar-Baxar Milli Parkının açılış mərasimində iştirak ediblər















**Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva və Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyevanın iştirakı ilə Qax rayonunda Axar-Baxar Milli Parkının açılış mərasimi keçirilib.**

AZƏRTAC xəbər verir ki, tədbir çərçivəsində ağacəkmə aksiyası təşkil olunub. Ərazidə iqlim və torpaq şəraitinə uyğun hesab olunan Eldar şamı, qara şam, adi şam, zeytun, daş palıdı, Arizona sərvi və piramidal sərv ağacları əkilib. Leyla Əliyeva və Arzu Əliyeva həmçinin Milli Parkın ərazisi və təbiəti ilə yaxından tanış olublar.





Eyni zamanda ekosistemdə balansın bərpası və biomüxtəlifliyin qorunmasına dəstək məqsədilə Acınohur çölü ərazisində 10 ceyran, 2 çöl pişiyi (qamışlıq və meşə pişiyi) və 4 vəhşi quş, o cümlədən 2 bərqud, 1 bozqır qartalı və 1 ağbaş kərkəs təbii mühitə buraxılıb.

Açılış mərasimi çərçivəsində Leyla Əliyeva və Arzu Əliyeva Əyriçaya 20 min balığın buraxılması tədbirində də iştirak ediblər. Buraxılan balıqların 5 mini forel, 15 mini isə sazan növünə aiddir.

Qeyd edək ki, Axar-Baxar Milli Parkı Prezident İlham Əliyevin 2025-ci il 14 iyul tarixli sərəncamı ilə yaradılıb. Yeni Milli Park xüsusi mühafizə olunan təbiət əraziləri şəbəkəsinin genişləndirilməsini, biomüxtəlifliyin qorunub saxlanılmasını, ətraf mühitin dayanıqlı idarə olunması ilə yanaşı, sosial-iqtisadi imkanların artırılmasını, yerli icmaların ekoloji təşəbbüslərə inteqrasiyasını və regionlarda ekoturizmin inkişafını təmin etmək məqsədilə yaradılıb.

# Birinci Qarabağ müharibəsinin dörd itkin şəhidi 33 ildən sonra Vətən torpağına tapşırılıb

**Oktyabrın 29-da Birinci Qarabağ müharibəsinin itkin şəhidləri - Rəfael Sultan oğlu Abbasov, İlham İmdad oğlu Mehdiyev, Əliyar Fərrux oğlu Əliyev və Azər Ziraddin oğlu Bayramovun paytaxtın Suraxanı rayonu ərazisində yerləşən "Dədə Qorqud" qəbiristanlığındakı Şəhidlər xiyabanında dəfn mərasimləri keçirilib.**









AZƏRTAC xəbər verir ki, dəfn mərasimində şəhidlərin ailə üzvləri, Müdafiə, Daxili İşlər, Fövqəladə Hallar nazirliklərinin əməkdaşları, Suraxanı, Sabunçu, Xətai Rayon İcra hakimiyyətlərinin nümayəndələri, müharibə veteranları, şəhid ailələri və sakinlər iştirak ediblər.

Suraxanı Rayon İcra Hakimiyyətinin başçısı Adil Əliyev 2020-ci ildə Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun 30 ilə yaxın işğalda qalan torpaqlarımızı 44 günə azad etdiyini, bütün dünyanın "dəmir yumruğ"un nəyə qadir olduğunu gördüyünü bildirib.

Şəhid Rəfael Abbasovun atası Sultan Abbasov şəxsiyyətləri müəyyənləşdirilərək təhvil verilən itkinlərin ailələrinə gözaydınlığı verib. O, şəhidin bir evdən deyil, bir eldən getdiyini bildirərək həm uzun illər, həm də belə vacib məqamda onları tək qoymayan hər kəsə minnətdarlığını bildirib: "Şəhidlərimizin intiqamı alınıb, torpaqlarımız azad edilib. Artıq başımız dikdir. Ümid edirəm ki, tezliklə digər itkin ailələri də öz şəhidləri barəsində xəbər ala biləcəklər".

Sonra şəhidlərin ailə üzvlərinə bayraqların təqdim edilməsi mərasimi olub.

Şəhidlər üçün cənazə namazı qılınıb, din xadimləri tərəfindən "Qurani-Kərim"dən ayə və surələr oxunub. Onlar yaylım atəşi və hərbi orkestrin müşayiəti ilə Dövlət himnimizin sədaları altında torpağa tapşırılıblar. Qəhrəmanların ruhuna dualar oxunub, məzarlarının üzərinə əklil qoyulub, gül dəstələri düzülüb.

Tabutun büküldüyü Azərbaycanın Dövlət Bayrağı şəhidlərin yaxınlarına təqdim olunub.

**İtkin şəhidlərin doğmaları: "33 ildən sonra itkin şəhidimizə qovuşduğumuz üçün gözlərimiz aydın olsun"**

AZƏRTAC-ın müxbirləri şəhidlərin ailə üzvləri, yaxınları ilə həmsöhbət olublar.

Birinci Qarabağ müharibəsində itkin düşmüş Əbülfət və Əliyar Əliyevin qardaşı Bəxşeyiş Əliyev deyib: "Müharibə başlayanda Əliyar Əbülfətlə birlikdə neft şirkətində işləyirdi. Onlar döyüşə də birlikdə yollandılar, eyni gündə və eyni yerdə - 1992-ci il mayın 8-də Şuşada itkin düşdülər. Əvvəlcə elə bilmişdilər ki, Əliyarla Əbülfət BTR-də yanaraq şəhid olublar. Amma sonra müəyyənləşdi ki, onlardan biri Əliyar, digəri isə bu gün onunla birgə dəfn olunan Rəfael Abbasovdur. Əbülfətdən hələ də xəbər yoxdur. Ümid edirəm ki, tezliklə ondan da xəbər alacağıq".

Qardaşları barədə xatirələrini bölüşən B.Əliyev Əliyarın yumşaq xarakterli və utancaq, Əbülfətin isə qürurlu və yenilməz olduğunu deyib: "Əbülfət Əliyarı döyüşdə tək qoymadı. Hər ikisi ailələrini, doğmalarını geridə qoyub, Vətən qarşısında borclarını yerinə yetirməyə yollandılar. Əliyar kimi Əbülfətin də tapılacağına, onun da təsəlli üçün məzarının olacağına ümidvarıq".

Şəhidin oğlu Ələsgər Əliyev bütün itkin ailələrinə doğmalarının tapılması barədə xəbər almağı arzulayıb: "Uzun illərdən sonra atamdan bir xəbər aldıq. Biri var doğmanın sağ olub-olmadığını bilmirsən, biri də var ki, gözlərin yoldan çəkilir. Bilirsən ki, ziyarət edəcəyin yer var. Prosesdə iştirak edən bütün dövlət qurumlarına çəkdikləri əziyyətə görə minnətdaram".

Şəhidin xalası qızı Simuzər Şirinova Əliyarla Əbülfətin çox yaxşı insan, çox gözəl ailə başçıları olduqlarını qeyd edib: "Hər ikisi Şuşada şəhid olub. Əslində, inanmazdıq ki, onlardan xəbər alaq. Çox şükür ki, heç olmazsa birinin taleyinə aydınlıq gəldi və uzun illərdən sonra torpağa tapşırdıq. Allahdan arzum budur ki, Əbülfət də tapılsın, onu da adına layiq şəkildə dəfn edək".

İtkin şəhid Rəfael Abbasovun atası Sultan Abbasov deyib: "Rəfael Əfqanıstanda xidmət edirdi. O vaxt Ermənistanın Amasiya rayonunda yaşayırdıq. 1988-ci ildə Ermənistandan olanları ordu sıralarından tərxis edirdilər. Rəfael də tərxis olunub evə gəldi. Daha sonra öz yurd-yuvamızdan deportasiya edildik və Azərbaycana köçdük. Rəfael hərbi xidmətini Azərbaycanda davam etdirdi. Birinci Qarabağ müharibəsi zamanı o, neft şirkətində işləyirdi. Döyüşlərə qoşulmaq istəyəndə anası ilə həyat yoldaşı etiraz etməyə çalışsa da, bir kəlməmlə hər kəs sakitləşdi. Dedim ki, Rəfael bu Vətənin əsgəridir. O, xüsusi təyinatlı batalyonun tərkibində Şuşa istiqamətində hərbi əməliyyatlara qoşuldu. Rafael BTR sürücüsü idi. 1992-ci il mayın 8-də Şuşada yanacaqdoldurma məntəqəsi tərəfdə düşmənin qəfil hücumu nəticəsində çox qızğın döyüşlər gedib. Həmin vaxt o ərazidə Rəfaellə bərabər, Azərbaycanın Milli Qəhrəmanı Albert Aqarunov, bu gün dəfn edilən Əliyar Əliyev, onun itkin qardaşı Əbülfət Əliyev və bir sıra qəhrəmanlar şəhid oldular. Onların bir hissəsinin nəşi tapılaraq dəfn edilsə də, bir hissəsinin taleyi naməlum olaraq qaldı. Lakin onlar şəhid olsalar da, düşmənin xeyli sayda canlı qüvvəsini də məhv etməyi bacarıblar. Rəfaelin nəşinin qalıqları Şuşada yol çəkilməsi məqsədilə aparılan qazıntı işləri zamanı elə döyüşdüyü yerdə aşkarlandı. DNT analizi nəticəsində şəxsiyyəti müəyyənləşdirildi. 33 ildən sonra itkin şəhidimizə qovuşduğumuz üçün gözlərimiz aydın olsun".

İtkin şəhid İlham Mehdiyevin qardaşı Mehdi Mehdiyev bildirib ki, İlham gənc yaşlarından iradəli, vətənpərvər və cəsarətli insan olub: "Müharibə vaxtı nə özüm, nə də ailəm qardaşımın şəhid olmasına inanmaq istəyirdik. İnanırdıq ki, sağdır. Amma bu gün onun döyüş yoldaşları ilə birgə qəhrəmancasına şəhid olduğu təsdiqləndi. Təəssüf ki, anamız bu xəbəri eşidə bilmədi, iki il əvvəl dünyasını dəyişdi".

Mehdi Mehdiyev qeyd edib ki, anasının məzarı da şəhid qardaşının yanında yerləşir və bu, ailə üçün mənəvi bir təsəlli mənbəyidir. "İndi hər dəfə ziyarətə gələndə elə biləcəyik ki, onlar bir-birinə qovuşublar. Allah bütün şəhidlərimizə rəhmət eləsin", - deyə o əlavə edib.

Xatırladaq ki, Rəfael Abbasov, Əliyar Əliyev və Azər Bayramov 1992-ci il mayın 8-də Şuşada, İlham Mehdiyev isə 1992-ci il fevralın 26-da Xocalıda itkin düşmüşdü.

# *Paris Sülh Forumu:* COP30 konfransında "Bakıdan Belemə yol xəritəsi" adlı yeni sənəd təqdim olunacaq

**"Bu gün iqlim böhranının artıq uzaq bir təhlükə deyil, gündəlik həyatımızın bir hissəsi olduğunu görürük. Qlobal istiləşmə, su qıtlığı, ekosistemlərin tənəzzülü və enerji keçidinin çağırışları bütün ölkələrin ortaq məsuliyyətini tələb edir.**

Azərbaycan 2024-cü ildə evsahibliyi etdiyi COP29 konfransında iqlim fəaliyyətini sürətləndirmək və ölkələr arasında etimadı gücləndirmək üçün mühüm addımlar atdı. Bizim məqsədimiz yalnız danışıqlar aparmaq deyil, fəaliyyətə keçmək, vədləri real nəticələrə çevirməkdir".

AZƏRTAC xəbər verir ki, bu fikirləri "Palais de Chaillot" sarayında keçirilən 8-ci Paris Sülh Forumu çərçivəsində COP Prezidentləri Dərnəyi paneli çərçivəsində "Planet üçün yeni koalisiyalar" adlı müzakirələr zamanı ölkəmizi bu paneldə təmsil edən Azərbaycan Prezidentinin iqlim məsələləri üzrə nümayəndəsi, COP29-un prezidenti Muxtar Babayev deyib.

Bildirib ki, bu sahədə səyləri davam etdirməyin vaxtıdır. O, COP29 prosesindən irəli gələn iqlim maliyyələşməsinin ədalətli artırılması, iqlim diplomatiyasında etimadın bərpası, inteqrasiya və şəffaflıq kimi əsas istiqamətləri qeyd edib. Vurğulayıb ki, inkişaf etməkdə olan ölkələrin iqlim təsirlərinə qarşı müqavimətini gücləndirmək üçün kifayət qədər vəsait ayrılmalıdır. Bu, ədalət və etimadın əsas sütunudur. Şimal və Cənub, inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında yeni bir həmrəylik mərhələsinə ehtiyac var. COP29-da iqlim diplomatiyasında etimadı bərpa etməyə çalışdıq və bu dialoqu davam etdirmək niyyətindəyik. İqlim idarəçiliyi yalnız texniki məsələ deyil, bu, ədalət, bərabərlik və beynəlxalq həmrəylik məsələsidir. Hər bir qərarın mərkəzində insan rifahı dayanmalıdır.

Azərbaycanın regionda bu istiqamətdə lider rolu oynamağa hazır, Xəzər hövzəsində, eləcə də qlobal səviyyədə daha dayanıqlı gələcək üçün birgə işləməyə sadiq olduğu vurğulanıb.



COP29-un prezidentinin sözlərinə görə, iqlim fəaliyyəti maliyyə olmadan mümkün deyil. O, 2024-cü ildə ölkələr arasında əldə olunan razılaşmanı xatırladaraq qeyd edib ki, inkişaf etmiş ölkələr tərəfindən inkişaf etməkdə olan dövlətlərə 300 milyard ABŞ dolları həcmində vəsaitin ayrılması barədə öhdəlik götürülüb.

M.Babayev bildirib ki, bu vəsaitin necə həyata keçiriləcəyi xüsusilə kiçik ada dövlətləri, az inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr üçün çox vacib məsələdir. COP29 prezidenti həmçinin xəbərdarlıq edib ki, artıq qəbul olunmuş qərarlardan geri addım atmaq olmaz.

"Əfsuslar olsun ki, 2024-cü və 2025-ci illərin ambisiyaları arasında fərq çox böyükdür. Keçən il iqlim liderləri dünya üzrə fəal idilər, bu il isə ambisiyalı təşəbbüsləri görmürük", - deyə COP29-un prezidenti qeyd edib. M.Babayev beynəlxalq maliyyə institutlarının və çoxtərəfli inkişaf banklarının (MDB-lərin) vədlərinin icrasına da toxunub. "Onlar öz öhdəliklərini necə yerinə yetirməyi planlaşdırırlar? Donor ölkələrin hökumətləri hazırda maliyyə prioritetlərini necə müəyyənləşdirəcəklər - müdafiəyə, yoxsa iqlim, sosial və humanitar sahələrə yönəldəcəklər?", - deyə o əlavə edib ki, bu sualların cavabları gələcək COP prosesləri üçün həllediciدir. O, Belem şəhərində keçiriləcək COP30 konfransında bu istiqamətdə "Bakıdan Belema yol xəritəsi" adlı yeni sənədin təqdim olunacağını bildirib.

Sənədin məqsədi iqlim maliyyələşməsini 300 milyard dollardan 1,3 trilyon dollara qədər artırmaq üçün konkret mexanizmlərin hazırlanmasıdır.

"Bu, inkişaf etməkdə olan ölkələrin böyük gözləntisidir. COP30 komandasının və beynəlxalq tərəfdaşların birgə işi nəticəsində bu məsələlərə aydın cavablar tapacağımıza inanıram. İndi həm milli səviyyədə, həm də qlobal miqyasda yeni bir dinamika yaratmaq vaxtıdır", - deyə M.Babayev qeyd edib.

# Paris Sülh Forumu çərçivəsində COP30-a hazırlıq prosesi mövzusunda yüksəksəviyyəli görüş keçirilib

**Paris Sülh Forumu çərçivəsində reallaşan "COP29-dan COP30-a: Qlobal İqlim Dialoqunun irəlilədilməsi və XIII Qlobal Bakı Forumuna hazırlıq" mövzusunda görüş Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə təşkil olunub.**



AZƏRTAC xəbər verir ki, görüş Serbiyanın sabiq prezidenti Boris Tadiçin moderatorluğu, dünyanın müxtəlif ölkələrindən sabiq dövlət və hökumət başçıları, beynəlxalq təşkilat rəhbərləri, parlament üzvləri və ekspertlərin iştirakı ilə baş tutub. Görüş COP29-un nəticələrindən çıxış edərək, COP30-a hazırlıq prosesi, qlobal iqlim maliyyələşməsi və dayanıqlı inkişafın çağırışlarını müzakirə etmək məqsədini daşıyıb. Görüşdə müzakirə olunan mövzular arasında Xəzər dənizinin hüquqi statusu enerji və ekoloji əməkdaşlıqla bağlı gündəlik məsələləri əhatə edən "Caspian Sea agenda"da yer alıb.

Qeyd edək ki, mərkəz son illərdə London və Bakı İqlim Fəaliyyəti həftələri, eləcə də Pekin, Daşkənd və Nyu Yorkda keçirilmiş yüksəksəviyyəli toplantılarda iqlim gündəliyinə töhfə verib. Parisdə keçirilən bu tədbir də mərkəzin davamlı təşəbbüslərinin əsas hissəsi hesab olunur.

Görüş çərçivəsində 2026-cı ilin mart ayında baş tutacaq XIII Qlobal Bakı Forumuna dair müzakirələr də xüsusi yer alıb, o cümlədən forumun təqdimatı reallaşıb.

Tədbirdə çıxış edənlər arasında COP29 prezidenti və Azərbaycan Respublikası Prezidentinin iqlim məsələləri üzrə nümayəndəsi Muxtar Babayev, eləcə də COP20, COP21, COP22, COP24 və COP30 prezidentləri, Şimali Makedoniya Prezidenti Qordana Silyanovska-Davkova, Latviyanın xarici işlər naziri Baiba Braze, Fransa Senatının vitse-prezidenti Xavier İokavelli, Fransa senatoru Natali Gulet, Serbiyanın sabiq prezidenti Boris Tadiç, Yunanıstanın sabiq baş naziri Georgios Papandreu və Avropa Mərkəzi Bankının sabiq prezidenti Jan-Klod Trişe və digər nüfuzlu liderlər yer alıb.





## “Böyük qayıdış” proqramı sürətlə icra olunur







# 7 şəhər, 22 kənd, 2 qəsəbə...

## Azərbaycan dövləti bu yerlərə yeni həyat bəxş edir

**"Böyük qayıdışın əyani sübutu bu gün gözünüzün önündədir. Belə gözəl şərait yaratmaqla Azərbaycan dövləti bir daha öz siyasətini göstərir. İşğal dövründə ovaxtkı köçkünlərlə çoxsaylı görüşlərimdə mən demişdim ki, torpaqlar işğaldan azad olunandan sonra şəhərlərimiz, kəndlərimiz yenidən qurulacaq, əvvəlkindən daha gözəl olacaq. Bugünkü gün bu sözlərin əyani sübutudur. Bu gün sizin həyatınızda yeni dövr başlayır".**

Prezident İlham Əliyevin oktyabrın 28-də Cəbrayıl rayonunun Horovlu kəndində sakinlərlə görüşü zamanı dediyi kimi, düz beş il əvvəl Qarabağ və Şərqi Zəngəzurun işğaldan azad edilməsi, tarixi ədalətin şanlı Zəfərlə bərqərar olması yalnız başlanğıc idi. Əzəli torpaqlarımızın azadlığından sonra qarşıya qoyulan növbəti hədəf bu yurd yerlərində həyatın tam bərpası, rifahın və sabitliyin təmin edilməsi idi. Qısa zaman kəsiyində həyata keçirilən layihələr, yenidənqurma və bərpa işləri dövlətimizin gücünü, qüdrətini bir daha nümayiş etdirir. Bu gün Qarabağ və Şərqi Zəngəzurda tikilən hər ev, salınan hər yol, əkilən hər ağac gələcək nəsillərə miras qalacaq bir dirçəliş dastanıdır.

Gün keçdikcə Qarabağ və Şərqi Zəngəzur sakinlərinin qovuşduqları yurd yerlərinin sayı artır. Onilliklər boyu ocaqlarına həsrət qalan, vətəndə qəribçilik çəkən keçmiş məcburi köçkünlərimiz üçrəngli bayraqlarımızın bəzədiyi qayıdış karvanları ilə dədə-baba torpaqlarına dönürlər. Ocağına qovuşan hər bir ailə bu torpaqlarda yalnız evini deyil, həm də həyatını, gələcəyini qurur.

Artıq 20 mindən çox keçmiş məcburi köçkün doğma yurduna qovuşub, 7 şəhər, 2 qəsəbə və 22 kənddə daimi məskunlaşma təmin edilib. Qarabağda və Şərqi Zəngəzurda keçmiş məcburi köçkünlərlə yanaşı, bu bölgədə layihələrin icrasında çalışan, həmçinin ayrı-ayrı dövlət qurumlarının yerli bölmələrində xidməti vəzifələrini yerinə yetirən, yenidən fəaliyyətə başlamış səhiyyə, təhsil, mədəniyyət, turizm, sənaye, energetika müəssisələrində işləyən ümumilikdə 50 mindən çox insan yaşayır. 2026-cı il, Böyük qayıdışın birinci mərhələsi başa çatana qədər Qarabağ və Şərqi Zəngəzurda 140 min nəfərin - 34 min 500 ailənin doğma yurdlarında daimi məskunlaşması təmin ediləcək.

Elə bir ay, elə bir həftə olmur ki, həsrəti sona yetmiş sakinlərin sevinc göz yaşlarına, vüsal həyəcanlarına şahidlik etməyək. Prezident İlham Əliyev Qarabağ və Şərqi Zəngəzura etdiyi mütəmadi səfərlər zamanı burada yeni yaşayış məntəqələrinin bünövrələrini atır, açılışlar edir, görülən işlərlə yerində tanış olur. Əzəli yurdlarına qayıdan sakinlərə evlərinin açarlarını təqdim etmək, onları öz doğma mənzillərində ziyarət etmək, qayıdış sevinclərini bölüşmək artıq ənənəyə çevrilib.

Prezident İlham Əliyev oktyabrın 28-də Cəbrayıl rayonunun Horovlu kəndinin birinci mərhələsinin, Zəngilan rayonunun Ağalı kəndinin 2-ci mərhələsinin və Məmmədbəyli kəndinin açılışlarında iştirak edib. Dövlət başçısı görüş zamanı bildirib ki, ermənilər dədə-baba torpaqlarımızı viran qoyub, biz isə qurub-yaradan xalqıq: "Biz düşməni torpaqlarımızdan qovmuşuq. İndi də doğma torpağımızda qurub-yaradırıq, şərait yaradırıq, binalar, məscidlər tikirik, tarixi abidələri bərpa edirik. Yəni biz - bu torpaqların sahibləri qayıtmışıq və burada əbədi yaşayacağıq. Mən sizə də xoşbəxt həyat arzulayıram".

2020-ci il oktyabrın 4-də işğaldan azad edilən Horovlu kəndinin təməli 2023-cü ilin mayında qoyulub. Ümumi sahəsi 248 hektar olan kənddə müasir kommunikasiya şəbəkəsi ilə təmin olunmuş 334 fərdi ev inşa edilib. Şəhər və kəndlərin bərpasında milli ruhun qorunmasına xüsusi diqqət yetirilib. Evlərin üzərində Qarabağ xalçalarının ornamentləri həkk edilməsi də bunun bariz nümunəsidir. Kənddə məktəb, körpələr evi-uşaq bağçası, inzibati bina, bazar kompleksi, çoxfunksiyalı iaşə obyektləri, tibb məntəqəsi və idman-sağlamlıq mərkəzi də inşa edilib. Habelə işğal dövründə dağıdılmış "Əsgər", "Şığı", "Orta", "Gülqasım" və "Xəlifə" kəhrizləri bərpa olunub. Horovlunun su təminatının bir hissəsi məhz bu kəhrizlər hesabına təmin olunacaq.

Horovlu kəndində 4,4 hektarlıq park kompleksində uşaqlar üçün oyun zonası, idman sahəsi, basketbol meydançası, masaüstü oyunlar üçün zona, söhbətgahlar yaradılıb. Bayraq meydanından bazar kompleksinə qədər gəzinti yolları salınıb. Eyni zamanda parkın ərazisində işğal zamanı dağıdılmış 4 bina tarixi yaddaşın qorunması məqsədilə saxlanılıb. Bu, həmin dövrün izlərini və reallıqlarını gələcək nəsillərə çatdıran əyani sübutdur.

Məmmədbəyli kəndinin ümumi sahəsi isə 51,6 hektardır. Kənddə 188 fərdi ev inşa edilib, hər bir ev üçün həyətyanı ərazi nəzərə alınaraq hasarlanıb. Evlər günəş panelləri ilə təchiz edilib, su, işıq, qaz və yüksəksürətli internetlə təmin olunub. Kənddə çoxfunksiyalı 2 qeyri-yaşayış binası da tikilib. İnzibati binalarda, eləcə də keçid və istinad divarlarında zövqlə işlənmiş rəsmlər çəkilib. Bu isə kəndin ümumi görünüşünə estetik dəyər qatır.

Azad edilmiş torpaqlarımızda aqrar və turizm potensialı bərpa olunur, Qarabağ və Şərqi Zəngəzuru "yaşıl enerji zonası"na çevirən günəş və külək stansiyaları tikilir, yeni iş yerləri açılır. Təkcə Cəbrayıl və Zəngilan rayonlarında icra edilmiş və ediləcək günəş və su-elektrik stansiyalarının gücü təqribən 400 meqavata çatacaq. Bu, böyük bir şəhərin enerji tələbatını tam ödəyən göstəricidir. Təbii resurslar və münbit torpaqlar bu regionları gələcəyin inkişaf mərkəzinə çevirir.

Qarabağ və Şərqi Zəngəzurda reallaşdırılan bütün bu genişmiqyaslı layihələr Azərbaycanın maliyyə gücü hesabına həyata keçirilir. Ümumilikdə 2020-2024-cü illərdə işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün dövlət büdcəsindən 17,6 milyard manat, o cümlədən 2024-cü ildə 5,3 milyard manat vəsait ayrılıb, 2025-ci ildə bu məqsədə 4,3 milyard manat vəsait nəzərdə tutulub. İşğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası ilə bağlı xərclərin 2026-2029-cu illərdə 13,5 milyard manat təşkil edəcəyi proqnozlaşdırılır.

Bu torpaqlarda həyata keçirilən hərtərəfli tikinti quruculuq-işləri, şəhər və kəndlərimizin dirçəldilməsi göstərir ki, qarşıda bizi hələ çox qayıdış sevincinə şahid olacağımız illər gözləyir. Qarabağ və Şərqi Zəngəzurda başlayan bu dirçəliş təkcə bölgənin deyil, bütöv Azərbaycanın yenidən doğuluş salnaməsidir.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

# İşğaldan azad olunmuş ərazilərdə sürətli inkişaf Azərbaycanın iqtisadi gücünün göstəricisidir

**Bu gün Azərbaycanın bütün regionları, o cümlədən işğaldan azad edilmiş ərazilər sürətli inkişaf və yenidənqurma mərhələsini yaşayır. Xüsusilə qeyd edilməlidir ki, Azərbaycanın müharibədən dərhal sonra genişmiqyaslı bərpa və quruculuq işlərinə başlaması beynəlxalq miqyasda yüksək qiymətləndirilir və bu addım dünya hərb tarixində analoqu olmayan nümunə kimi dəyərləndirilir.**



Milli Məclisin deputatı Kamran Bayramov qəzetimizə açıqlamasında bildirib ki, hazırda azad edilmiş ərazilərdə icra edilən infrastruktur layihələri, sosial obyektlərin tikintisi, yaşayış məntəqələrinin bərpası və iqtisadi fəaliyyətin canlandırılması ölkəmizin iqtisadi gücünün, siyasi iradəsinin və strateji hədəflərinə sadiqliyinin bariz göstəricisidir: "Prezident İlham Əliyevin Sabirabad, İmişli, Cəbrayıl və Zəngilan rayonlarına səfəri bir daha göstərdi ki, dövlət başçısının diqqət və qayğısı təkcə işğaldan azad edilmiş ərazilərlə məhdudlaşmır, ölkənin bütün regionlarının hərtərəfli inkişafını əhatə edir. Bu səfərlər həm bölgələrdə icra olunan sosial-iqtisadi layihələrin gedişatı ilə yerində tanışlıq məqsədi daşıyır, həm də yeni infrastruktur obyektlərinin açılışı, istehsal müəssisələrinin fəaliyyətə başlaması və vətəndaşların rifahının yüksəldilməsi istiqamətində mühüm qərarların qəbuluna şərait yaradır. Prezidentin regionlara mütəmadi səfərləri dövlət siyasətinin mərkəzində insan amilinin, bərabər regional inkişafın və dayanıqlı sosial rifahın dayandığını bir daha təsdiqləyir".

Deputat qeyd edib ki, Böyük qayıdış proqramının icrası planlı və mərhələli şəkildə uğurla davam edir. Proqramın birinci mərhələsinin yekununda, yəni 2026-cı ilin sonunadək Qarabağ və Şərqi Zəngəzurda 140 mindən artıq insanın daimi məskunlaşması nəzərdə tutulur. Bu, Azərbaycanın tarixində bərpa və yenidənqurma sahəsində ən genişmiqyaslı layihələrdən biridir. Hazırda bütün Qarabağ və Şərqi Zəngəzur əraziləri böyük tikinti və dirçəliş meydanına çevrilib. Yeni yaşayış məntəqələri salınır, müasir yollar, elektrik və qaz xətləri, su təchizatı sistemləri, məktəblər, xəstəxanalar və sosial obyektlər inşa olunur. Artıq 50 mindən çox insan bu torpaqlarda yaşayır, çalışır və təhsil alır. Onlardan təxminən 20 mini öz doğma yurdlarına qayıdan keçmiş məcburi köçkünlərdir. Bu proses təkcə ərazilərin bərpasını deyil, həm də ədalətin, mənəvi və tarixi qayıdışın təcəssümünü ifadə edir.

K.Bayramov vurğulayıb ki, səfər çərçivəsində görülən işlərə diqqət yetirdikdə Azərbaycanın iqtisadi və maliyyə gücünün, dövlət idarəçiliyinin səmərəliliyinin və inkişaf strategiyasının aydın mənzərəsi formalaşır: "Bu reallıq ölkəmizin son illərdə həyata keçirdiyi düşünülmüş, mərhələli və gələcəyə hesablanmış siyasətin, həmçinin sosial-iqtisadi sahədə aparılan təkmil islahatların məntiqi nəticəsidir. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan heç vaxt əldə olunanlarla kifayətlənmir, əksinə, yeni hədəflərə doğru inamla irəliləyir. Əsas məqsəd azad edilmiş ərazilərin tam bərpası, dayanıqlı məskunlaşmanın təmin edilməsi və soydaşlarımızın doğma yurdlarına qürurla, təhlükəsiz şəkildə qayıdışıdır. Müzəffər Ali Baş Komandan İlham Əliyevin vurğuladığı kimi, bu gün biz Azərbaycan xalqının əyilməz iradəsini və milli birliyini Qarabağa və Şərqi Zəngəzura dönən insanların timsalında görürük. Onlar illərlə doğma yurd həsrəti ilə yaşasalar da, indi o torpaqlarına sahib çıxaraq həyatlarını yenidən qururlar. Heç vaxt o torpaqlarda yaşamamış gənc nəsil belə, bu gün ata-baba yurduna qayıtmaq sevincini yaşayır".

Deputat bildirib ki, bu reallıqlar Azərbaycanın bərpa prosesinə necə sistemli və uzaqgörən yanaşdığını bir daha göstərir. Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən layihələr, salınan hər bir yeni məskən xalqımızın həmrəyliyinin və sarsılmaz inamının ifadəsidir. Məhz bu baxımdan dövlət başçısının azad edilmiş ərazilərə hər səfəri, sakinlərlə görüşləri həm mənəvi, həm də siyasi baxımdan xüsusi önəm daşıyır. Prezident İlham Əliyevin oktyabrın 28-də Zəngilan rayonunun Məmmədbəyli və Ağalı kəndlərinin sakinləri ilə görüşdə söylədiyi fikirlər bu mənzərənin mahiyyətini dolğun ifadə edir: "Ermənilər viran qoyub bizim dədə-baba torpaqlarımızı, biz isə qurub-yaradan xalqıq. Biz düşməni torpaqlarımızdan qovmuşuq. İndi də doğma torpağımızda qurub-yaradırıq, şərait yaradırıq, binalar, məscidlər tikirik, tarixi abidələri bərpa edirik. Yəni biz - bu torpaqların sahibləri qayıtmışıq və burada əbədi yaşayacağıq. Mən sizə də xoşbəxt həyat arzulayıram. Bir daha sizi təbrik edirəm".

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Daha 366 nəfər Ağdam sakini doğma yurda qovuşub




**Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, Böyük qayıdış proqramı çərçivəsində keçmiş məcburi köçkünlərin işğaldan azad edilmiş ərazilərə qayıdışı davam edir. Oktyabrın 29-da yola salınan növbəti köç karvanı Ağdam rayonunun Xıdırlı kəndinə çatıb.**

AZƏRTAC xəbər verir ki, uzun illərin həsrətindən sonra daha 91 ailə olmaqla, 366 nəfər Ağdam sakini doğma yurduna qovuşub.

Ailələrə evlərinin açarlarının təqdim edilməsi mərasimində Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin nümayəndələri iştirak ediblər.

Doğma yurda qayıdan sakinlər hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür ediblər. Onlar həmçinin torpaqlarımızı işğaldan azad edən rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət diləyiblər.

Qeyd edək ki, hazırda Qarabağ və Şərqi Zəngəzurda oraya köçürülən keçmiş məcburi köçkünlərlə yanaşı, bu bölgədə aparılan layihələrin icrasında çalışan, ayrı-ayrı dövlət qurumlarının yerli bölmələrində xidməti vəzifələrini yerinə yetirən, yenidən fəaliyyətə başlamış səhiyyə, təhsil, mədəniyyət, turizm, sənaye, energetika müəssisələrində işləyən, həmçinin təhsil alan tələbələr də daxil olmaqla, ümumilikdə, 50 mindən çox insan yaşayır.

# Ağdərənin Həsənriz kəndinə növbəti köç olub

**Oktyabrın 29-da Ağdərə rayonunun Həsənriz kəndinə növbəti köç olub. Bu mərhələdə kəndə 17 ailə olmaqla, 83 nəfər keçmiş məcburi köçkün qayıdıb.**



Xankəndi şəhəri, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, sakinlər əvvəlcə kənddə yaradılmış şərait barədə məlumatlandırılıblar. Qeyd olunub ki, Həsənriz kəndində bütün zəruri infrastruktur - su, qaz, elektrik enerjisi və internet təminatı tam şəkildə bərpa edilib. Kənddə sakinlərin rahat yaşayışı, sosial rifahı və məşğulluğunun təmin olunması istiqamətində zəruri tədbirlər görülür.

Sonra ailələrə evlərinin açarları təqdim edilib. Beləliklə, bu köç mərhələsi ilə birlikdə Ağdərənin Həsənriz kəndində, ümumilikdə, 205 ailə, yəni 764 nəfər daimi məskunlaşıb.

Qeyd edək ki, hazırda Qarabağ və Şərqi Zəngəzurda oraya köçürülən keçmiş məcburi köçkünlərlə yanaşı, bu bölgədə aparılan layihələrin icrasında çalışan, ayrı-ayrı dövlət qurumlarının yerli bölmələrində xidməti vəzifələrini yerinə yetirən, yenidən fəaliyyətə başlamış səhiyyə, təhsil, mədəniyyət, turizm, sənaye, energetika müəssisələrində işləyən, həmçinin təhsil alan tələbələr də daxil olmaqla, ümumilikdə, 50 mindən çox insan yaşayır.



# “Bu torpaqların sahibləri bizik...”



## Qarabağın xilaskarı İlham Əliyev doğma yurdlarına qayıdan keçmiş məcburi köçkünlərin sevinclərini onlarla birlikdə yaşayır

**Şanlı Zəfərimizin beşinci ildönümünü qürurla qeyd etdiyimiz bu günlərdə qalib lider İlham Əliyevin işğaldan azad edilən torpaqlarımıza - Cəbrayıla, Zəngilana səfər etməsi, yurdlarına qovuşdurulan keçmiş məcburi köçkünlərə yeni evlərinin açarlarını öz əlləri ilə təqdim etməsi, vətən həsrətinə son qoyulan bu insanların qayıdış sevinclərini bölüşməsi tarix salnamələrimizin gələcəkdə də fəxrlə vərəqlənəcək parlaq səhifələri oldu. Ümumiyyətlə, son beş il ərzində müzəffər sərkərdə İlham Əliyevin xilas etdiyi Qarabağ və Şərqi Zəngəzura səfərlərinin hər biri rəmzi mənası, daşıdığı tarixi ismarışlarla yaddaşlarda silinməz izlərlə həkk olunub.**

### Yurdda dirçəliş zəfəri

2020-ci ilin noyabrında azad edilən torpaqlarımıza yollanaraq qələbə simvolumuz Şuşaya uzanan Zəfər yolunun təməlini qoyan Qarabağın baş memarı İlham Əliyevin tarixi yurdlarımıza mütəmadi səfərləri bu torpaqların əzəli sahiblərinin qayıtdığının dünyaya qürurlu bəyanını özündə əks etdirir. Bu onu göstərir ki, zirvələrində üçrəngli ay-ulduzlu Azərbaycan bayrağının əbədi dalğalandığı Qarabağda və Şərqi Zəngəzurda artıq həyat qaynayır, ata-baba yurdlarının sakinlərinin qəlbində indi vətən həsrəti qövr etmir, ana torpağa qovuşmağın xoşbəxtliyi yaşanır. O da gerçəklikdir ki, düz birqərinəlik zaman dilimində məcburi köçkünlüyün maddi-mənəvi çətinliklərinə sinə gərən bu insanlar bir an da olsa, doğma torpaqlarına dönəcəklərinə olan ümidlərini itirmədilər. Bu inamı onlara Prezident İlham Əliyevin xalqımızın milli maraqlarının təmini uğrunda həyata keçirdiyi qətiyyətli siyasət aşılamışdı. Ölkəmizə rəhbərlik etdiyi ilk gündən dövlətimizin başçısı İlham Əliyev işğal altında olan ərazilərimizin azadlığını özünün prioritet vəzifəsi hesab etdi. Ötən illər ərzində diqqəti, qayğısı ilə daim keçmiş məcburi köçkünlərimizin yanında olan dövlətimizin başçısı el-obasından didərgin salınmış vətəndaşlarımızla olan bütün görüşlərində onlara öz torpaqlarına qayıdacaqlarını qətiyyətlə söyləyirdi.

İndi xalqımız həmin tarixi günlərə şahidlik edir, Qarabağ və Şərqi Zəngəzura ardıcıl olaraq qayıdış karvanları yola salınır.

Bu il oktyabrın 28-də işğaldan azad edilən yaşayış məntəqələrimizdən daha bir neçəsində dirçəliş təntənəsi yaşandı. Həmin tarixdə Prezident İlham Əliyev Cəbrayıl rayonunun Horovlu kəndinin birinci mərhələsinin açılışında iştirak etdi, rayonun Şahvəlli kəndində "Şəms" və "Üfüq" Günəş-Elektrik stansiyalarının təməlini qoydu, "Şəfəq" Günəş-Elektrik Stansiyasına gedən avtomobil yolunu açdı. Həmçinin Cəbrayıl şəhərində ikinci və üçüncü yaşayış komplekslərinin, Cəbrayıl şəhər məscidinin təməlini qoydu. Zəngilan rayonunun Ağalı kəndinin 2-ci mərhələsinin və Məmmədbəyli kəndinin açılışlarında iştirak edən Prezident İlham Əliyev Zəngilan şəhərində 104 mənzilli yaşayış kompleksində görülmüş işlərlə tanış oldu.

### Gözəl həyat qururuq

Həmin tarixdə ölkəmizin rəhbəri Zəngilan rayonunun Məmmədbəyli və Ağalı, eləcə də Cəbrayıl rayonunun Horovlu kəndinin sakinlərini yurda qayıdış münasibətilə təbrik edib onlara mənzillərinin açarlarını verdi.

"İşğal dövründə ovaxtkı köçkünlərlə çoxsaylı görüşlərimdə mən demişdim ki, torpaqlar işğaldan azad olunandan sonra şəhərlərimiz, kəndlərimiz yenidən qurulacaq, əvvəlkindən daha gözəl olacaq. Bugünkü gün bu sözlərin əyani sübutudur", - deyə, Cəbrayıl rayonunun Horovlu kəndində sakinlərlə görüşü zamanı Prezident İlham Əliyev söylədi.

Ötən üç onillik boyu xalqımız adına yaşanan həssas və fəxarətli məqamlara bir daha vurğu edən dövlətimizin başçısı dedi ki, bu gün sizin həyatınızda yeni dövr başlayır: "Siz uzun illər - 30 il ərzində ağır şəraitdə köçkün, qaçqın həyatını yaşamısınız, mənəvi əzablar çəkmisiniz. Xüsusilə işğalın ilk mərhələsində köçkünlərin mütləq əksəriyyəti çadır şəhərciklərində yerləşmişdir. Ona görə bugünkü reallıq, bugünkü gün, o cümlədən ədalətin təntənəsidir. Ədalətə inanmaq və onu təmin etmək lazımdır. Bax bizim xalqımız həm ədalətə inanıb, həm də onu təmin edib. Bu torpaqların sahibləri bizik. Düşməni öz torpaqlarımızdan qovmuşuq və bu gün gözəl həyat qururuq".





Qayıdış köçləri ilə el-obalarına dönən keçmiş məcburi köçkünlərlə doğma evlərində görüşmək, onlarla söhbət etmək, yurd sevinclərini bölüşmək Prezident İlham Əliyevin adətinə çevrilib. 28 oktyabrda Cəbrayılın Horovlu, eləcə də Zəngilanın Ağalı və Məmmədbəyli kəndlərinin sakinləri ilə görüşün timsalında bu xoş ənənə bir daha təkrarlandı. Həm sevincli, həm də duyğulu anlar yaşanan bu görüşlər, edilən söhbətlər keçmiş məcburi köçkünlərin onları yurda qovuşduran Prezident İlham Əliyevə minnətdarlıqları ilə müşayiət olundu.

Dövlət başçısının doğma ocaqlarına dönən keçmiş məcburi köçkünləri daim diqqətdə saxlaması, evlərinin qonağı olması, onlarla səmimi söhbət etməsi bu vətəndaşlarımızın sevinclərini daha da artırır. Horovlu sakinləri də bu diqqət və qayğıdan doğan minnətdarlıq hisslərini Prezidentlə görüş zamanı səmimi şəkildə izhar etdilər: "...Sizin sayənizdə hər bir yerdə bizim şəraitimiz yaxşıdır. Allah Sizə cansağlığı versin. Mehriban xanıma da buradan səmimi salamlarımızı, çox-çox istəklərimizi bildiririk".

Horovlu kənd sakini ilə dövlətimizin başçısı İlham Əliyev arasında keçən dialoq həm də işğaldan azad edilən ərazilərdə dövlətimiz tərəfindən aparılan dünyamiqyaslı quruculuq işlərini bir daha gözlər önünə sərdi.

*Kişi sakin: Biz bu gün kəndimizə gələndə həqiqətən də kəndimizi tanıya bilmədik. Sanki İsveçrədir, çox möhtəşəmdir, həddindən artıq möhtəşəmdir.*

*Prezident İlham Əliyev: Azərbaycan standartları belədir.*

*Kişi sakin: Bəli, təbii ki, Sizin sayənizdə, cənab Prezident. Biz həqiqətən də inana bilmədik. Yəni bir kənddə bu qədər şərait, bu qədər gözəlliklər. Allah Sizdən razı olsun. Təşəkkür edirik, bu gün bizim sevincimizə sevinc qatdınız. Gəldiniz, bizimlə görüşdünüz, köçməyimiz münasibətilə bizi təbrik etdiniz. Çox sağ olun, Allah Sizdən razı olsun.*

Görüş zamanı dövlət başçısı onu da vurğuladı ki, indi gənclər də darıxmamalıdır burada: "Çünki birincisi, doğma torpaqdır. İkincisi, şərait yaxşıdır. Üçüncüsü, bütün bu Qarabağ, Şərqi Zəngəzur ən inkişaf etmiş bölgələrdən biri olacaq - nəinki Azərbaycanda, dünya miqyasında. Belə kəndlər harada salınır?"

### Abadlıq-quruculuq, xoşbəxt həyat və sülh ünvanı

Oktyabrın 28-də dövlətimizin rəhbərinin Zəngilan rayonunun Məmmədbəyli və Ağalı kəndlərinin sakinləri ilə görüşü də yaddaqalan tarixə çevrildi.

"Xoş gəlmisiniz doğma vətəninizə", - deyə, dədə-baba torpaqlarında keçmiş məcburi köçkünləri salamlayan Prezident İlham Əliyev söylədi ki, bu gün Böyük qayıdışın növbəti mərhələsidir: "Bilirsiniz ki, biz "Böyük qayıdış" proqramının başlanğıcını da Zəngilan rayonunda qoyduq. Birinci kənd - Ağalı kəndində artıq üç il yarımdır ki, insanlar yaşayır və çox gözəl şərait yaradılmışdır və gözəl də saxlanılır".

Vətən müharibəsindən dərhal sonra işğaldan azad edilən ərazilərdə genişmiqyaslı quruculuq və bərpa işlərinə başlanılıb. Zəngilan rayonu da yenidən qurulur. Bununla bağlı dövlətimizin rəhbəri söylədi ki, bu bölgənin çox gözəl gələcəyi olacaq: "Necə ki, bütün Qarabağın, Şərqi Zəngəzurun gələcəyi çox parlaq olacaq. Bugünkü reallıq - qurduğumuz şəhərlər və kəndlər bunu göstərir".

Düşmən düz 30 il boyu işğal etdiyi ərazilərimizdə "yandırılmış torpaq" siyasəti həyata keçirərək bu yerlərdə həyatı "öldürməyə" çalışdı. Ancaq bu gün yenidən yaşıllaşan, meşələri pöhrələyən Qarabağ və Şərqi Zəngəzur düşmənə gözdağıdır. Ağalı və Məmmədbəyli kəndlərinin sakinləri ilə görüşündə ölkəmizin liderinin "Mən indi Ağalının içi ilə keçdim və yeni binalarla tanış olarkən gördüm ki, bütün həyətyanı sahələr sanki gözəl bir bağa çevrilib", - deməsi də bu mənada təsadüfi xarakter daşımırdı.

1990-cı illərin əvvəllərində yurdlarından didərgin salınmış, müsibətlərə tuş gəlmiş, çadırlarda, vaqonlarda, yataqxanalarda maddi-mənəvi məhrumiyyətlərlə yaşamış keçmiş məcburi köçkünlər artıq əbədi bəxtəvər günlərinə qədəm qoyublar. Qalib lider İlham Əliyevin vurğuladığı kimi, bu gün Qarabağ və Şərqi Zəngəzur abadlıq-quruculuq, xoşbəxt həyat və sülh ünvanıdır.

***Yasəmən MUSAYEVA, "Azərbaycan"***

# Sumqayıtda "44 Zəfər plakatı" rəsm sərgisi açılıb

**Sumqayıtda Zəfər Günü ilə əlaqədar təşkil olunan "Zəfərin rəngi" adlı tədbirdə "44 Zəfər Plakatı" rəsm sərgisi açılıb. Heydər Əliyev Mərkəzində keçirilən açılışda şəhər rəhbərliyi, Milli Məclisin deputatları, şəhid ailələrinin üzvləri, qazilər, ictimaiyyət və media nümayəndələri iştirak ediblər.**






Tədbir 44 günlük Vətən müharibəsində Azərbaycan Ordusunun qəhrəmanlıq səhnələrinin, azad edilmiş şəhər və kəndlərin görüntülərinin, eləcə də şəhidlərin xatirəsinin əbədiləşdirilməsinin əks olunduğu videoçarxın nümayişi ilə başlayıb. Sərginin açılışında çıxış edən şəhər icra hakimiyyətinin başçısı Zakir Fərəcov Zəfər Gününü Azərbaycan xalqının qürur və şərəf səhifəsi kimi dəyərləndirib. Bildirib ki, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordumuz düşməni torpaqlarımızdan qovaraq 30 illik həsrətə son qoydu: "Bu qələbə xalqımızın birliyinin, Vətən sevgisinin və əsgərlərimizin qəhrəmanlığının nəticəsidir. Biz şəhidlərimizin qanı ilə yazılmış bu tarixi Zəfəri heç vaxt unutmayacağıq".

Milli Məclisin deputatı Səbinə Salmanova tədbiri Azərbaycan xalqının qəhrəmanlıq tarixinin bədii təcəssümü olaraq xarakterizə edib. Vurğulayıb ki, sərgi gənclərin vətənə, şəhidlərə olan sevgisinin göstəricisidir: "Biz bu əsərləri Sumqayıt məktəblərinə hədiyyə etməklə Zəfər tariximizi gələcək nəsillərə ötürmək istəyirik. Şəhidlərimizin ruhu qarşısında baş əyir, qazilərimizə minnətdarlığımızı bildiririk".

Çıxış edən şəhid ailələrinin üzvləri Vətən müharibəsində canlarını fəda etmiş oğullarının xatirəsinin anılmasının onlara böyük mənəvi dəstək olduğunu vurğulayıblar.

Sərgidə nümayiş olunan əsərlərdə Vətən müharibəsindəki birlik, mübarizə ruhu və Qələbə sevinci bədii şəkildə ifadə edilib. Qeyd edək ki, həmin rəsmlər sərgidən sonra Sumqayıt şəhər məktəblərinə hədiyyə olunacaq.

***Akif ƏLİYEV, "Azərbaycan"***

## 30 oktyabr 2020-ci il

## Azərbaycan: ZƏFƏR gündəliyi

### Bir gündə düşmənin 2 Su-25 təyyarəsi, 3 tankı, 2 "Smerç"i, 10 topu məhv edilib

*Oktyabrın 30-u Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində Azərbaycan Ordusu bölmələrinin yerləşdiyi mövqeləri və yaşayış məntəqələrimizi müxtəlif silahlardan, o cümlədən artilleriya və raketlərdən atəşə tutub. Döyüş əməliyyatları, əsasən, cəbhənin Ağdərə, Xocavənd və Qubadlı istiqamətlərində davam edib. Düşmənin hücum cəhdlərinin qarşısı qətiyyətlə alınıb.*

*Gecə saatlarında cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, 2 ədəd Su-25 təyyarəsi, 3 ədəd T-72 tankı, 1 PDM, 2 ədəd "Smerç" və 1 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemləri, 10 ədəd müxtəlif tipli topu, 2 ədəd "Qvozdika" özüyeriyən haubitsası, 1 ədəd "Osa" ZRK, 1 ədəd P-18 radiolokasiya stansiyası, 4 ədəd avtomobil texnikası məhv edilib və sıradan çıxarılıb.*

#### Goranboy, Tərtər, Ağdam və Ağcabədi artilleriya atəşinə tutulub

Saat 07:35-dən başlayaraq, Goranboy, Tərtər, Ağdam və Ağcabədi rayonlarının ərazisi artilleriya atəşinə tutulub. Ordumuz tərəfindən adekvat tədbirlər görülüb.

#### Düşmənə məxsus "Smerç" reaktiv sistemi məhv edilib



Bərdə şəhərində dinc əhalini və mülki infrastrukturu atəşə tutan Ermənistan silahlı qüvvələrinə məxsus "Smerç" yaylım atəşli reaktiv sisteminin atəş mövqeyi bölmələrimiz tərəfindən aşkar edilib.

Bölmələrimizin dəqiq atəşi ilə düşmənin "Smerç" yaylım atəşli reaktiv sistemi sıradan çıxarılıb.

Müdafiə Nazirliyi qeyd olunan reaktiv sistemin məhv edildiyi anın videogörüntüsünü yayıb.

#### Prezident İlham Əliyev xalqa daha bir müjdəli xəbər verib



İlham Əliyev
@azpresident

Müzəffər Azərbaycan Ordusu Cəbrayıl rayonunun Xudaverdili, Qurbantəpə, Şahvələdli, Xubyarlı, Zəngilan rayonunun Aladin, Vecnəli, Qubadlı rayonunun Kavdadıq, Məmər, Mollalı kəndlərini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!

Translate Tweet

3:00 PM · Oct 30, 2020 · Twitter for iPhone

Prezident İlham Əliyev özünün "X" hesabında xalqa daha bir müjdəli xəbər verib. Paylaşımda deyilir: "Müzəffər Azərbaycan Ordusu Cəbrayıl rayonunun Xudaverdili, Qurbantəpə, Şahvələdli, Xubyarlı, Zəngilan rayonunun Aladin, Vejnəli, Qubadlı rayonunun Kavdadıq, Məmər, Mollalı kəndlərini işğaldan azad etmişdir.

Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!"

#### Düşmənin raket-artilleriya silah anbarı havaya uçurulub

Ermənistan mətbuatı guya Azərbaycan Ordusuna məxsus döyüş sursatı anbarının məhv edilməsi ilə bağlı növbəti yalan məlumat yayıb. Lakin düşmən həmin anbarın yaxın məsafədən çəkilmiş videogörüntüsünü məlumata əlavə etməklə öz saxtakarlığını bir daha ifşa edib.

Həqiqətdə isə oktyabrın 29-da gecə saatlarında Ermənistan silahlı qüvvələrinin işğal olunmuş ərazimizdəki yeni inşa edilmiş raket-artilleriya silahları anbarı bölmələrimiz tərəfindən məhv edilib.

#### Ermənistana məxsus daha 2 ədəd "Smerç" məhv edilib

Bərdə və Tərtər şəhərlərində dinc əhalini və mülki infrastrukturu atəşə tutan Ermənistan silahlı qüvvələrinə məxsus növbəti 2 ədəd "Smerç" yaylım atəşli reaktiv sisteminin tutduğu mövqelər bölmələrimiz tərəfindən aşkar edilib.

Saat 12:55 və saat 14:18 radələrində bölmələrimizin dəqiq atəşi ilə düşmənin 2 ədəd "Smerç" yaylım atəşli reaktiv sistemi məhv edilib.

Müdafiə Nazirliyi reaktiv sistemlərin məhv edildiyi anın videogörüntülərini yayıb.

#### İrəvanın yalan məlumatları ifşa edilib

Ermənistanın yalan məlumatları bir daha ifşa edilib. Azərbaycan Müdafiə Nazirliyinin yaydığı məlumatda deyilir ki, Xocalı rayonunun Qarabulaq kəndinin (keçmiş Əsgəran rayonunun Aknaxpyur kəndi) guya Azərbaycan Ordusu tərəfindən atəşə tutulması nəticəsində mülki əhalinin xəsarət alması barədə Ermənistan mətbuatının yaydığı məlumat yalandır.

Rəsmi olaraq bildirilib ki, Azərbaycan Ordusu mülki əhaliyə deyil, yalnız hərbi hədəflərə atəş açıb.

#### Ağdam istiqamətində düşmənə məxsus 1 ədəd "Osa" ZRK məhv edilib

Azərbaycan Ordusunun bölmələri düşmənin qüvvə və döyüş vasitələrini dəqiq zərbələrlə darmadağın edib.

Saat 20:25 radələrində cəbhənin Ağdam istiqamətində Ermənistan silahlı qüvvələrinə məxsus 1 ədəd "Osa" ZRK bölmələrimiz tərəfindən məhv edilib.

***Rəşad BAXŞƏLİYEV, "Azərbaycan"***

# İŞİMİZ, GÜZƏRANIMIZ

## "Şəfəq", "Üfüq", "Şəms" Şərqi Zəngəzura günəş işığı saçacaq

**Beş il əvvəl işğaldan azad olunmuş digər bölgələrimiz kimi, Cəbrayıl rayonu da əsl işıqlı günlərə qovuşub. Cəbrayıl, ümumiyyətlə, Azərbaycanın ən günəşli bölgələrindən biridir. İndi təbiətin bu torpağa bəxş etdiyi nemətlərdən, o cümlədən günəş işığından gen-bol bəhrələnmək üçün hər cür imkan var.**



Hazırda burada "Şəfəq" Günəş-Elektrik Stansiyasının tikinti işləri nəzərdə tutulmuş qrafikə uyğun irəliləyir. "Şəfəq"in önəmi, ilk növbədə, ondadır ki, işğaldan azad edilmiş və Prezident İlham Əliyev tərəfindən "yaşıl enerji" zonası elan olunmuş ərazilərimizdə tikilir. Stansiyanın təməli keçən il Bakıda COP29-un davam etdiyi vaxt qoyulub. Yekun investisiya qərarı isə bu ilin iyun ayında qəbul edilib. Təsdiqlənmiş 200 milyon dollar dəyərində olan "Şəfəq" günəş layihəsi çərçivəsində tikilən stansiya 240 MVt AC gücündə olacaq.

Layihədə iştirak payları belədir: BP 50,01 faiz, SOCAR Green (bütövlükdə SOCAR-a məxsus törəmə şirkəti) 39,99 faiz və ABİF (Azərbaycan Biznesinin İnkişafı Fondu) 10 faiz. "Şəfəq" layihəsi bütövlükdə BP şirkətinə məxsus olan "Lightsource BP" tərəfindən həyata keçirilir. Bu, indiyədək ölkəmizdə tikilən ən böyük günəş-elektrik stansiyası olacaq.

Təsadüfi deyil ki, Prezident İlham Əliyev bölgələrə budəfəki səfərində Hacıqabul-Bəhrəmtəpə-Ermənistan Respublikası ilə dövlət sərhədi avtomobil yolunun 197-ci kilometrindən Cəbrayıl rayonu ərazisində inşa olunan "Şəfəq" Günəş-Elektrik Stansiyasına gedən avtomobil yolunun açılışında iştirak edib.

IV texniki dərəcəyə uyğun inşa edilən yolun ümumi uzunluğu 11,5 kilometrdir. İki hərəkət zolağından ibarət yolun eni 6 metrdir. Bu yolun inşası ötən ilin dekabrında dövlətimizin başçısının imzaladığı sərəncama əsasən həyata keçirilib.

Bu, uzun bir yol olmasa da, əhəmiyyəti böyükdür. Belə ki, yolun istifadəyə verilməsi bu istiqamətdə nəqliyyat vasitələrinin hərəkətinin təhlükəsizliyini, əhalinin və ərazidə çalışan işçilərin rahat gediş-gəlişini təmin edəcək.

İndi "Şəfəq"in başladığı sıraya "Şəms" və "Üfüq" də qoşulacaq. Məlum olduğu kimi, Prezident İlham Əliyev oktyabrın 28-də Cəbrayıl rayonunun Şahvəlli kəndində hər birinin gücü 50 meqavat olan "Şəms" və "Üfüq" Günəş-Elektrik stansiyalarının təməlini qoyub. Bu layihə ölkəmizin "yaşıl enerji" strategiyasının mühüm tərkib hissəsidir və Cəbrayıl rayonunun enerji xəritəsinin zənginləşməsinə xidmət edir.

Xatırladaq ki, keçən ilin mart ayında Energetika Nazirliyi ilə "Nobel Energy" şirkəti arasında 100 MVt gücündə günəş-elektrik stansiyasının tikintisi, eləcə də elektrik enerjisinin istehsalı, satışı və istehlakı sahələrində əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb. Bu ilin aprel ayında isə Azərbaycan Respublikası Hökuməti "Enerso Cəbrayıl" MMC ilə 50 MVt gücündə "Üfüq" Günəş-Elektrik Stansiyası, "Clean-Energy Jabrayil" MMC ilə isə "Şəms" Günəş-Elektrik Stansiyası layihələri üzrə investisiya müqavilələri bağlayıb.

Ötən il bərpaolunan enerji mənbələrinin inkişafı üçün Cəbrayıl rayonunun inzibati ərazisində dövlət mülkiyyətinə aid 229 hektar torpaq sahəsi ayrılıb. Bu çərçivədə "Clean Energy Jabrayil" MMC üçün 135 hektardan çox, "Enerso Cəbrayıl" MMC üçün isə 93 hektardan çox ərazi müəyyən edilib.

Bu layihələrin icrası Şərqi Zəngəzurun "yaşıl enerji" mərkəzinə çevrilməsində Cəbrayıl rayonunun rolunu daha da gücləndirəcək. Çünki "Şəms" və "Üfüq" günəş-elektrik stansiyalarında ildə ümumilikdə 206 milyon kilovat-saat elektrik enerjisinin istehsalı nəzərdə tutulur. Nəticədə hər il təxminən 44 milyon kubmetr təbii qaza qənaət ediləcəyi, atmosferə atılan zərərli emissiyaların isə 96 min ton azalacağı gözlənilir.

Bu stansiyalarda istehsal ediləcək elektrik enerjisinin 75 milyon kilovat-saatı "AzərEnerji" ASC-yə, 131 milyon kilovatsaatı isə "elektrik enerjisinin virtual ötürülməsi" prinsipi əsasında iri istehlakçılarla birbaşa bağlanan alqı-satqı müqavilələri üzrə satılacaq. Hər iki stansiyanın 2027-ci ildə istismara verilməsi planlaşdırılır.

Onu da qeyd edək ki, indiyədək işğaldan azad olunmuş ərazilərimizdə bir sıra bərpaolunan eneji layihələri uğurla icra edilib. Bu ilin avqust ayında Kəlbəcərdə istifadəyə verilən üç yeni kiçik su-elektrik stansiyasının (KSES) açılışı ilə Qarabağ və Şərqi Zəngəzurda bu cür enerji obyektlərinin sayı ümumilikdə 38-ə, ümumi gücü isə 307 MVt-a çatıb. Həmin stansiyaların əksəriyyətinin açılışında Prezident İlham Əliyevin iştirak etməsi onların önəminə bir daha diqqət çəkir.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## Dünya Bankı: Azərbaycan hökuməti biznes mühitindəki çağırışların həlli istiqamətində addımlar atır

**"Azərbaycan hökuməti biznes mühitindəki çağırışların həlli istiqamətində sahibkarlıq fəaliyyətinin dəstəklənməsi məqsədilə addımlar atır".**

Bu barədə Dünya Bankının Azərbaycan üzrə böyük iqtisadçısı Nadir Ramazanov Dünya Bankının Azərbaycan üzrə Dövri İqtisadi Hesabatının təqdimat tədbirində deyib. AZƏRTAC-ın məlumatına görə, N.Ramazanov qeyd edib ki, Rəqabət Məcəlləsi 2024-cü ildə qəbul edilib, bu da hüquqi bazanı birləşdirərək, rəqabətə dair əsas qaydaları və tənzimləmələri müəyyənləşdirib. Hökumət lisenziya və icazələrin alınması prosesini sadələşdirib, onların verilməsini "ASAN xidmət" mərkəzləri və "KOB evləri" vasitəsilə mərkəzləşdirib.

"Lisenziyalar və icazələr elektron formada, "Lisenziyalar və icazələr" portalı vasitəsilə təqdim olunur ki, bu da bizneslər üçün xərcləri azaldır. Əhəmiyyətli vergi islahatları həyata keçirilib, əmək münasibətlərində şəffaflığın artırılması və qeyri-rəsmi məşğulluğun azaldılması təşviq olunur. Dövlət müəssisələrinin idarəçiliyində də mühüm irəliləyişlər əldə olunub, o cümlədən əsas dövlət korporasiyalarında ilk dəfə olaraq müşahidə şuralarının və idarə heyəti komitələrinin yaradılması təmin edilib", - deyə N.Ramazanov qeyd edib.

## 20-dən çox KOB subyekti birləşəcək

**2024-cü və 2025-ci illərdə yaradılmış iki KOB klaster şirkətində ümumilikdə 20-dən çox KOB subyekti birləşəcək. KOB subyektləri təbii meyvə konsentratı və nəqliyyat vasitələrinin mühərrikləri üçün sürtkü yağı istehsal edəcək.**



Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) yaydığı məlumatda bildirilir ki, KOB klaster şirkətləri, həmçinin müxtəlif mal və xidmətlərlə təmin olunacaq.

Mövcud və gələcəkdə yaradılacaq KOB klaster şirkətlərinin iştirakçısı olmaq istəyən KOB subyektləri müvafiq şirkətlərə, eləcə də əlaqələndirmə dəstəyi üçün KOBİA-ya müraciət edə bilərlər (info@smb.gov.az elektron poçt ünvanına və ya rəsmi internet səhifəsi üzərindən birbaşa).

Qeyd olunub ki, KOB klasterinin iştirakçısı olan sahibkarların 7 il müddətinə KOB klaster şirkətinə təqdim etdiyi mal mənfəət və ya gəlir vergisindən tam azad olunur. "KOB klaster şirkəti şəhadətnaməsi" almış sahibkar isə 7 il müddətinə mənfəət və ya gəlir vergisindən, torpaq və əmlak vergisindən, müvafiq təsdiqedici sənəd əsasında layihə çərçivəsində xaricdən idxal etdiyi texnika, texnoloji avadanlıq və qurğular üzrə ƏDV-dən tam azad olunur.

KOB klaster eyni və ya oxşar iqtisadi fəaliyyət sahələrində, müəyyən coğrafi bölgədə yerləşmə əsasında yaranan, işçi qüvvəsini, vahid bazarı və xidmətləri bölüşən, qarşılıqlı iqtisadi münasibətlər quraraq əlaqəli, bir-birini tamamlayan və birgə fəaliyyət göstərən KOB klaster şirkəti və KOB klaster iştirakçılarının məcmusudur. KOB klasterinin iştirakçısı isə KOB klasterində fəaliyyət göstərmək üçün KOB klaster şirkəti ilə müqavilə bağlamış, mikro, kiçik və orta sahibkarlıq subyekti olan və KOBİA tərəfindən KOB klasterinin iştirakçısı şəhadətnaməsi verilmiş hüquqi və ya fiziki şəxslərdir. KOB klasterin iştirakçısı azı 10 mikro, kiçik və ya orta sahibkarlıq subyektindən ibarət olduğu üçün bu mexanizm iqtisadiyyatın müxtəlif sektorları üzrə KOB-ları bir araya gətirməklə onlar arasında əlaqə yaradır.

## Müharibə əlillərinə 82 min reabilitasiya vasitəsi verilib

**Müharibədə əlil olan şəxslərin sosial dəstəklə əhatə edilməsi işlərinin bir istiqaməti də həmin şəxslərin reabilitasiya vasitələri ilə təmin olunmasıdır.**

Zəfərimizlə başa çatan 44 günlük Vətən müharibəsindən sonrakı dövrdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən müharibə ilə əlaqədar əlilliyi olan 2371 şəxsə 82 min reabilitasiya vasitəsi verilib. O cümlədən müharibədə əzalarını itirmiş 494 hərbçi 612 yüksəktexnologiyalı, son nəsil protezlərlə təmin edilib. Aktivlik və funksionallığı ilə seçilən bu protezlər vasitəsilə onlar aktiv həyata dönüş imkanı əldə ediblər.

Eyni zamanda həmin şəxslərinyüksək texnologiyalı xüsusi idman protezləri ilə də təminatı da həyata keçirilib ki, nəticədə onlar idman oyunlarında daha sərbəst, rahat hərəkətlər edə bilirlər.

## Neft ucuzlaşmaqda davam edir

**Londonun ICE ("InterContinental Exchange Futures") birjasında "Brent" markalı neftin bir barelinin qiyməti 0,11 dollar ucuzlaşaraq 64,29 dollar olub.**

Nyu Yorkun NYMEX ("New York Mercantile Exchange") birjasında "Light" markalı neftin bir barelinin qiyməti isə 0,11 dollar azalaraq 60,04 dollar təşkil edib.

AZƏRTAC həmçinin xəbər verir ki, Azərbaycan neftinin də qiyməti 3 faizədək ucuzlaşıb. "Azeri Light" markalı neftin bir barelinin qiyməti 1,82 dollar və ya 2,72 faiz düşərək 65,21 dollar olub.

Xatırladaq ki, "Azeri Light" neftinin ən aşağı qiyməti 2020-ci il aprelin 21-də (15,81 ABŞ dolları), maksimal qiyməti isə 2008-ci ilin iyulunda (149,66 ABŞ dolları) qeydə alınıb.

## "Yaşıl enerji" siyasətində Azərbaycan nümunəsi

### Bu nümunə beynəlxalq səviyyədə də təqdir olunur

**Müasir dövrdə qlobal iqlim dəyişmələri, enerji təhlükəsizliyinin təminatı və ekoloji tarazlığın qorunması məsələləri beynəlxalq ictimaiyyətin diqqət mərkəzindədir. Bu səbəbdən bərpaolunan enerji mənbələri (günəş, külək, su, bioenerji və s.) dünya ölkələrinin iqtisadi və ekoloji siyasətində prioritet istiqamətə çevrilib.**



"Yaşıl enerji" ilə zəngin olan Azərbaycan da son illər ənənəvi enerji modellərindən dayanıqlı və ekoloji cəhətdən təmiz enerji istehsalına keçid istiqamətində mühüm addımlar atır. Məlumdur ki, Azərbaycan coğrafi mövqeyinə və iqlim şəraitinə görə bərpaolunan enerji mənbələri baxımından böyük potensiala malikdir. Ölkənin ərazisində günəşli günlərin müddəti ildə 2200-2500 saat təşkil edir ki, bu da günəş enerjisinin səmərəli istifadəsi üçün əlverişli şərait sayılır. Külək enerjisi baxımından isə xüsusən Abşeron yarımadası və Xəzər dənizi sahil zolağı fərqlənir. Bu ərazidə küləyin orta illik sürəti 7-8 m/s-dən yuxarı olur. Dağlıq ərazilərdə isə su enerjisi resursları, kənd təsərrüfatı tullantılarından bioenerji istehsalı imkanları mövcuddur. Ekspertlərin hesablamalarına görə, Azərbaycanın bərpaolunan enerji potensialı ümumilikdə 27 min MVt-dan çoxdur. Bunun 23 mini günəş, 3 mini külək, qalan hissəsi su və bioenerji mənbələrin payına düşür. Həmin göstəricilər ölkənin enerji təhlükəsizliyinin təminatı və karbohidrogenlərdən asılılığın azaldılması üçün baza yaradır.

Azərbaycan üçün "yaşıl enerji" siyasəti çoxşaxəlidir. Bu siyasət neft və qazdan asılılığı azaltmaq, ixrac imkanları yaratmaq və "yaşıl iqtisadiyyat" modelinə keçidi sürətləndirmək baxımından səmərəlidir. Məsələyə beynəlxalq prizmadan yanaşanda isə deyə bilərik ki, ölkə bərpaolunan enerji layihələrinə xarici investorları cəlb etməklə beynəlxalq əməkdaşlığı gücləndirmək və enerji sektorunun dayanıqlılığını artırmaq məqsədini güdür. Bu siyasət Azərbaycanın ötən il BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) evsahibliyi etməsi ilə daha qlobal məna qazandı. Ölkəmizin isə yalnız enerji istehsalçısı deyil, həm də beynəlxalq iqlim siyasətində aktiv iştirakçı olduğunu ortaya qoydu. Üstəlik, qlobal tədbir vasitəsilə Azərbaycan bərpaolunan enerji imkanlarını dünyaya təqdim etdi və inkişaf etməkdə olan ölkələr üçün iqlim maliyyələşməsi sahəsində dialoq platforması rolunu oynadı.

Azərbaycan "yaşıl enerji" strategiyasını həyata keçirərkən beynəlxalq əməkdaşlıq mexanizmlərinin genişləndirilməsinə önəm verir. Ölkəmiz son illər dünyanın aparıcı enerji şirkətləri ilə strateji tərəfdaşlıqlar quraraq bərpaedilən enerji sahəsində mühüm layihələrin reallaşdırılmasına nail olmuşdur. Məsələn, Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti ilə əməkdaşlıq nəticəsində 230 MVt-lıq Qaradağ Günəş-Elektrik Stansiyası 2023-cü ildə istifadəyə verilmişdir. Bu layihə regionda ən iri günəş enerjisi stansiyalarından biri sayılır və ildə təxminən 500 milyon kVt/s elektrik enerjisi istehsalı ilə 110 min ev təsərrüfatını təmin etmək gücünə malikdir. Hazırda Səudiyyə Ərəbistanının "ACWA Power" şirkəti ilə imzalanmış saziş əsasında Xızı-Abşeron Külək-Elektrik Stansiyası (240 MVt) layihəsi həyata keçirilir. Bu stansiya işə düşdükdən sonra hər il 400 min tona yaxın karbon emissiyasının qarşısı alınacaq.

Paralel olaraq ölkəmiz Avropa bazarına "yaşıl enerji" ixracını təmin etmək məqsədilə "Xəzər - Qara dəniz - Avropa Yaşıl Enerji Dəhlizi" layihəsinə qoşulmuşdur. Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan arasında 2022-ci ildə imzalanmış saziş çərçivəsində Xəzər dənizinin qərb sahillərindən Avropaya elektrik interkonnektorunun çəkilməsi planlaşdırılır. Layihə regionun enerji inteqrasiyasına və Avropanın enerji təhlükəsizliyinə mühüm töhfə verəcək. Beləliklə, Azərbaycanın beynəlxalq enerji əməkdaşlığı iqtisadi baxımdan sərfəli olmaqla yanaşı, həm də qlobal ekoloji məqsədlərlə uzlaşan strateji bir istiqamət kimi formalaşır.

Bu əməkdaşlıqların coğrafiyası getdikcə genişlənir və artıq Asiya regionunun aparıcı enerji şirkətləri ilə də tərəfdaşlıq əlaqələri formalaşır. Bir neçə gün əvvəl Azərbaycanın energetika naziri Pərviz Şahbazov ilə "China Energy Engineering Corporation Limited" şirkətinin vitse-prezidenti Lu Xunun rəhbərlik etdiyi nümayəndə heyəti arasında keçirilmiş görüş xüsusi əhəmiyyət kəsb edir. Görüş zamanı enerji sahəsində hərtərəfli strateji tərəfdaşlıq çərçivəsində gündəlikdə olan layihələrin icrası, eləcə də Çin şirkətləri ilə əməkdaşlığın genişləndirilməsi müzakirə edilib. Müzakirələrdə Prezident İlham Əliyevin bərpaolunan enerji mənbələrinin inkişafı, istehlak və ixrac məqsədli "yaşıl enerji zonaları"nın yaradılması və bu sahədə Çin şirkətləri ilə əməkdaşlığın dərinləşdirilməsi siyasəti vurğulanıb. Eyni zamanda yeni enerji güclərinin elektrik şəbəkəsinə inteqrasiyası üzrə potensialın müəyyənləşdirilməsində Çinin Elektrik Enerjisinin Planlaşdırılması və Mühəndislik İnstitutu (EPPEI) ilə aparılan tədqiqatların əhəmiyyəti və "Yaşıl Enerjinin İnkişafı üzrə Birgə Tədqiqat Mərkəzi"nin yaradılmasının vacibliyi diqqətə çatdırılıb. Bütün bunlar onu deməyə əsas verir ki, Azərbaycan "yaşıl enerji" sahəsində tərəfdaş ölkələrin dairəsini genişləndirməklə yanaşı, Şərq və Qərb enerji sistemləri arasında texnoloji və elmi inteqrasiyaya da mühüm töhfə verir.

Ölkəmiz bərpaolunan enerji sahəsində ardıcıl və məqsədyönlü siyasət apararaq regionda "yaşıl keçid"in liderlərindən birinə çevrilməkdədir. Dövlət proqramları, beynəlxalq şirkətlərlə tərəfdaşlıq və COP kimi qlobal təşəbbüslərdə fəal iştirak Azərbaycanın enerji təhlükəsizliyini və ekoloji dayanıqlılığını möhkəmləndirir. "Yaşıl enerji zonaları"nın yaradılması və Asiya, Avropa dövlətləri ilə əməkdaşlığın genişlənməsi Azərbaycanın gələcəkdə qlobal enerji bazarlarında strateji rolunu daha da gücləndirəcək.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

## AZAL Gürcüstana ən çox sərnişin daşıyan aviaşirkətlərin siyahısında ilk onluqdadır

**"Azərbaycan Hava Yolları" QSC (AZAL) Gürcüstana ən çox sərnişin daşıyan aviaşirkətlər arasında ilk altılığa daxil olub. AZƏRTAC xəbər verir ki, bu barədə məlumat Gürcüstan Mülki Aviasiya Agentliyi 2025-ci ilin doqquz ayına dair hesabatında yer alıb.**

Bildirilib ki, AZAL 2025-ci ilin ilk doqquz ayında 358 min 291 sərnişin daşıyaraq ümumi bazarın 6 faizini təşkil edib. Agentliyin məlumatına görə, ölkənin hava limanlarında sərnişin axını 14 faiz, uçuşların sayı isə 18 faiz artıb.

Yanvar-sentyabr ayları ərzində Gürcüstanın hava limanları ümumilikdə 6 milyon 489 min 755 sərnişinə xidmət göstərib. 2024-cü ilin eyni dövründə bu rəqəm 5 milyon 682 min 304 nəfər təşkil edib. Məlumatda qeyd olunur ki, Gürcüstana sərnişin daşıyan aviaşirkətlərin siyahısında "Wizz Air" 1 milyon 65 min 618 sərnişinlə ilk yeri tutaraq 17 faiz bazar payına sahib olub. Onu "Georgian Airways" (8 faiz), "Türk Hava Yolları" (7 faiz), "Pegasus Airlines" (7 faiz), "Red Wings" (6 faiz) və AZAL (6 faiz) izləyib.

Mülki Aviasiya Agentliyinin məlumatına görə, ilin ilk doqquz ayında Gürcüstan hava məkanından istifadə edən uçuşların ümumi sayı 229 min 972 olub. Hava yolu ilə yükdaşıma həcmi isə 50 faiz artaraq 25,9 milyon tona çatıb.





# Mədəniyyət





● Kino xadimlərimiz

## Azərbaycan kino sənətinin unudulmaz nümayəndəsi

**Mübariz insan idi. Sözünü çəkinmədən, açıq deyirdi. Nə şöhrət marağında idi, nə də ad-san. Kinorejissor Hüseyn Seyidzadənin ən böyük istəyi filmlər çəkmək idi. İstedadlı kinorejissor olduğunu da çəkdiyi filmlərlə təsdiq edirdi. Ancaq nə həyat, nə də sənət yolu rəvan, enişsiz-yoxuşsuz deyildi. Özü deyirdi: "İnsan dünyaya ona görə gəlir ki, yaşasın, çalışsın, nəyinsə naminə mübarizə aparsın. Xoşbəxt olsun, amma mən anadan olandan taleyimlə əlbəyaxadayam…"**



O, yüz on beş il öncə, 1910-cu il oktyabrın 15-də İrəvanda dünyaya gəlib. Əsil-nəcabətli Seyidzadələr nəslinin övladı olub. Atası Mirəli bəy tacir, anası Ruqiyyə xanım evdar qadın idi. 1918-ci ilədək Qəmərlidə yaşayıblar. Ermənilərin azərbaycanlılara qarşı amansızlıqla törətdikləri qırğınlar onları da doğma yurdlarından ayırıb.



1918-ci ildə ata ocağını tərk edəndə Hüseyn Seyidzadə səkkiz yaşındaymış. Ermənilərin zülmlərindən baş götürüb qaçan ailə qürbətdə başqa bir faciə ilə üzləşib. Yurd həsrəti çəkdikləri bir vaxtda, Qarsda Mirəli bəy dünyasını dəyişib, orada da torpağa tapşırılıb.

Kiçik yaşda atasız qalan Hüseynə və ailəsinə əmisi Mirqasım Seyidov himayədarlıq edib. Mirqasım bəy qardaşının balalarını öz övladlarından ayırmayıb. Onlara qayğı göstərib, yaxşı təhsil almalarına çalışıb.

Hüseyn ailəsiylə iki il Türkiyədə yaşayıb. Sonra Tiflisə gediblər. 1925-ci ildə Bakıya köçüblər. Hüseyn Seyidzadə 1-ci dərəcəli məktəbə daxil olub. 1927-ci ildə Bakıda tikiş fabrikində əmək fəaliyyətinə başlayıb. Sonra Bakı fəhlə teatrına daxil olub, orada aktyor köməkçisi kimi fəaliyyət göstərib. 1928-ci ildə Çənc İşçi Teatrının aktyoru olub. Təhsil alması üçün teatr tərəfindən Leninqrada (indiki Sankt Peterburq) göndərilib. 1930-cu ildə Leninqradda rejissorluq kursunu bitirərək Bakıya dönüb.

Leninqraddan qayıtdıqdan sonra aktyorluq fəaliyyətini davam etdirib. Daha sonra Bakı kinostudiyasında aktyor və rejissor köməkçisi işləyib.

Qısa müddət Bakı kinostudiyasında rejissor köməkçisi işləyən Hüseyn Seyidzadənin ali təhsil almaq istəyi 1931-ci ildə reallaşıb. Bakı kinostudiyası onu Moskvaya Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutuna göndərib. İnstitutda təhsil illəri olduqca səmərəli keçib. Hüseyn Seyidzadə görkəmli sənətkarlar Lev Kuleşov və Sergey Eyzenşteyndən dərs alaraq rejissorluq sənətini dərindən öyrənib. Onların rejissorluq emalatxanasında, "Lenfilm", "Mosfilm", Maksim Qorki adına kinostudiyada təcrübə keçib. Həmin studiyalarda istehsal olunan filmlərdə rejissor assistenti, ikinci rejissor olub.

1936-cı ildə Moskvada Ümumittifaq Kinematoqrafiya İnstitutunun Kinorejissorluq fakültəsini bitirərək Bakıya qayıdıb. "Azərbaycanfilm" kinostudiyasında çalışıb, dublyaj rejissoru, rejissor assistenti işləyib.

O, hələ 1932-ci ildə "Əlacsız adamlar" filmində çəkilmiş, kino sənətində ilk addımını atmışdı. Hüseyn Seyidzadə artıq rejissor kimi bu sənətdə öz sözünü deməyə başlayıb. 1938-ci ildə "Bakılılar", "Böyük şəfəq" filmlərinin çəkilişlərində iştirak edib. 1939-cu ildə çəkilən "Ayna" filmi başıbəlalı olub. Hüseyn Seyidzadənin Niyazi Bədəlovla birgə çəkdiyi bu film məlum olmayan səbəblərdən yarımçıq dayandırılıb.

Daim sənət axtarışında olan Hüseyn Seyidzadə "Lenfilm" studiyasında öz peşəsini təkmilləşdirib.

Uğursuz olduğu deyilən, yarımçıq qalan "Ayna"nın materiallarından istifadə edərək Hüseyn Seyidzadə və Niyazi Bədəlov müharibə mövzusunda yeni bir film çəkiblər. İmran Qasımovun ssenarisi əsasında 1943-cü ildə hazır olan film bu dəfə "Sovqat" adlandırılıb. Baş rolu Leyla Bədirbəyli ifa edib. Film müharibəyə sovqat göndərən insanların vətənpərvərlik hisslərini əks etdirib.

1953-cü ildə kinostudiyada "Doğma xalqıma" bədii-sənədli filminin istehsalı başlayıb. Filmin quruluşu rejissor Yan Fridə həvalə olunub. Görkəmli rus kinorejissoru M.Rommun xahişindən sonra Hüseyn Seyidzadəyə Yan Fridlə birgə bu filmi çəkməyə icazə verilib. Beləcə, 1954-cü ildə Azərbaycanda ilk rəngli bədii-sənədli film - "Doğma xalqıma" müvəffəqiyyətlə çəkilərək ekranlara çıxarılıb. Bundan sonra Hüseyn Seyidzadəyə müstəqil tammetrajlı bədii film həvalə edilib.

1956-cı ildə Bakının kinoteatrlarında nümayiş etdirilən "O olmasın, bu olsun" filmi böyük müvəffəqiyyət qazanıb. Hüseyn Seyidzadənin quruluş verdiyi "O olmasın, bu olsun" Azərbaycan kino tarixinə ilk rəngli bədii film kimi daxil olub. Məşhur aktyorların çəkildiyi və böyük maraqla qarşılanan, dünyanı dolaşan bu film Hüseyn Seyidzadə yaradıcılığının şah əsərlərindən hesab edilir.

1969-cu ildə İsmayıl Şıxlının eyniadlı romanı əsasında yazdığı "Dəli Kür" ssenarisini ekranlaşdırmaq da Hüseyn Seyidzadəyə tapşırılıb. İstər "Dəli Kür", istərsə də "Yenilməz batalyon" (1965), "Koroğlu" (1960), "Qayınana" (1978) bədii filmləri rejissor Hüseyn Seyidzadəyə uğur gətirməklə yanaşı, Azərbaycan kinosunun ən gözəl nümunələrinə çevrilib.

Hüseyn Seyidzadə 1970-ci ildə Azərbaycan SSR-nin Əməkdar incəsənət xadimi adına layiq görülüb.

Yaradıcılıq planında Xurşidbanu Natəvan haqqında film çəkmək vardı. Ancaq arzusunu gerçəkləşdirməyə amansız ölüm imkan verməyib. Görkəmli rejissor Hüseyn Seyidzadə 1979-cu il iyunun 2-də dünyadan köçüb.

Doğma vətənini, xalqını çox sevən, böyük arzularla sevdiyi peşəsi ilə məşğul olan kinorejissor Hüseyn Seyidzadənin xatirəsini ekranlaşdırdığı Azərbaycan kino sənətinin incilərinə çevrilmiş filmlər yaşadır.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

● Gənc aktyorlarımız

## İstedadı gələcək uğurlarından soraq verir

**Redaksiyamızın budəfəki qonağı sanki özü ilə kiçik bir muzey də gətirmişdi. Burada nələr yoxdur? Diplomlar, fəxri fərmanlar və sertifikatlarla dolu bir qovluq. Onlar illər boyu əldə etdiyi uğurların sadəcə formal göstəricisi yox, bir ömrün, insan iradəsinin, daim axtarışda olan, öyrənən və inkişaf arzusunda olan bir qız uşağının yol xəritəsi idi. Bu kiçik xanımın indiyədək qazandığı mükafatların sadəcə adlarını yazsaq, bir neçə səhifəlik uzun bir siyahı alınar.**



Onun fitri istedadını anlamaq üçün cəmi bircə fakt kifayətdir - həmsöhbətimiz artıq 100-dən çox reklam çarxında və bir çox sənədli filmdə rol alıb. "Adəm və Həvva", "İfşa" və çəkilişləri davam edən "8" serialında tamamilə fərqli xarakterləri canlandıraraq istedadlı bir aktyor olduğunu sübut edib. Bunların üzərinə bədii gimnastika üzrə dəfələrlə respublika birincisi olmasını da əlavə etsək, onun hərtərəfli xanım olduğu barədə aydın təsəvvür yaranar.

Onun heç ali təhsili də yoxdur. Çünki cəmi 12 yaşı var. Hazırda Bakının 8 nömrəli orta məktəbinin 6-cı sinfində təhsil alır. Amma əlavə Rəşid Behbudov adına Musiqi Məktəbində oxuyur. Violonçel sinfində təhsil alan bu balaca istedad həm musiqi duyumunu inkişaf etdirir, həm də səhnə mədəniyyətinin sirlərini öyrənir. Uşaqların çoxu bu yaşda hələ hansı sahəyə yönələcəyinə qərar vermədiyi halda, Ahu artıq Azərbaycan səhnəsində uşaq rollarının peşəkar ifaçılarından biri kimi tanınır. Həm çalışqanlığı, həm də mənalı baxışlarının arxasında gizlənən istedadı gələcəkdə daha böyük uğurlarından soraq verir.

Ahu haqqında ilk dəfə Əməkdar artist, professor Azad Şükürovdan eşitmişdik. "8" serialında çəkilən tərəfdaşı haqqında bəhs edən professor vurğulayıb: "Mən bu gün aktyorluq sənətinin qeyri-adı bir istedad sahibi ilə rastlaşmışam. Yaşının az olmasına baxmayaraq, əsl peşəkarlıq nümunəsi göstərir. Elə yaşlı, təcrübəli aktyorlar var ki, onlar meyitxanada çəkilə bilmirlər, vahimələnirlər. Ahu isə yaşının az olmasına baxmayaraq, bizi təəccübləndirməyi bacarır. Hesab edirəm ki, Ahu sona kimi bu sənətlə məşğul olsa, gələcəkdə Azərbaycan aktyorluq sənətinin ən parlaq simalarından olacaq".

Ahu ilə söhbət etdikcə hiss etdik ki, bu balaca qızcığazın arzuları böyükdür. Onlar sadəcə bir uşağın arzusu, xəyalı deyildi, düşündüklərinə addım-addım yaxınlaşan bir qəhrəmanın gələcək həyat və yaradıcılıq yolu idi. Ahu deyir: "Düşünürəm ki, həyatda özümə layiq yer tutmaq üçün yaxşı oxumalı və çalışmalıyam. Türk, ingilis, rus dillərini sərbəst bilirəm. Xarici dil öyrənmək üçün özümə müəyyən vaxt ayırmışam. Hər gün mütəmadi olaraq dil öyrənməklə məşğul oluram. Oxuduğum məktəbdə dərs əlaçısıyam. Musiqi məktəbində isə müəllimlərim istedadlı şagird olduğumu deyirlər. Bədii gimnastika sahəsində dəfələrlə respublika birincisi olmuşam. Düşünürəm ki, həyatda uğur qazanmaq üçün insan etdiklərinə bəs deməməli, arxayın olmamalıdır. Qarşıma qoyduğum hədəf var. Bunun üçün mütləq daim öz üzərimdə çalışmalıyam. Arzum Türkiyədə çəkilən filmlərdə uşaq obrazlarında rol almaqdır. Sonra isə daha geniş, dünya miqyasında filmlərə çəkilmək istəyirəm. Özümü daha çox dramatik rollarda görürüəm. Əgər komediya janrında rejissorlardan hər hansı təklif gəlsə, qəbul etmərəm. Bu mənim xarakterimə və daxili dünyama uyğun olmaz".

Danışığında özünə inam, təmkin olan Ahu Əliyevanın uğurları sübut edir ki, insanın fitri istedadı anadangəlmə olsa da, onu cilalayan və hədəfə yaxınlaşdıran məhz zəhmət, öz üzərində çalışmaq və məsuliyyətdir. O, çalışmağı sevir, hər addımında mükəmməllik axtarır, oxumağı və məsuliyyətli olmağı özünə borc bilir.

Onunla söhbət etdikcə anladıq ki, Ahu balamız üçün uğur təsadüfi nəticə deyil. O həm peşəkarlığı, həm insanlığı, həm də ictimai fəallığı ilə yaşadığı cəmiyyət üçün bir nümunədir. Hər uğurunun arxasında çalışqanlıq, hər qələbəsinin özəyində sarsılmaz iradə dayanır.



Ahu Əliyeva yalnız bir sahənin nümayəndəsi deyil. O, həyatına dəyər qatan, enerjisi ilə ətrafına ruh verən, istedadı ilə seçilən, gələcək həyatı üçün öz yolunu uşaqkən müəyyənləşdirən və artıq formalaşmış şəxsiyyətdir. Təhsilindən tutmuş ictimai fəaliyyətinə qədər bütün mərhələlərdə ardıcıllığı, məsuliyyəti, işinə olan sevgisi aydın görünür. Bu qızcığazın yolunda təsadüfə yer yoxdur. Hər şey düşünülmüş addımların, səylə qurulan planların, ən əsası qəlbin səmimi istəyinin nəticəsidir. Bütün bunlar isə bir daha təsdiqləyir ki, istedadın yaşı olmur.

*Elşən QƏNİYEV,*
*İlham BABAYEV (foto),*
*"Azərbaycan"*

## "Məhəbbət oyunu":
### 90 il əvvəl ekranlara çıxan Azərbaycan kinokomediyası

**"Qızmar cənub küləyi sahilyanı şəhərin sakinlərini qayğı, əyləncə və zəhmətə çağırırdı". Rejissor Abbas Mirzə Şərifzadənin "Məhəbbət oyunu" səssiz filminin preambulasını məhz belə səsləndirmək olar.**

İlk Azərbaycan kinorejissoru kimi Abbas Mirzə Şərifzadənin kino karyerası cəmi üç filmlə məhdudlaşıb və onlardan biri bu il 90 illik yubileyini qeyd edir. AZƏRTAC artıq "Bismillah" ekran əsəri haqqında yazıb. Bu gün rejissorun 1935-ci ildə ekranlaşdırdığı sonuncu işi olan "Məhəbbət oyunu" filmindən bəhs edəcəyik. Təxminən üç il sonra istedadlı aktyor və rejissor repressiyaya uğrayıb və onun adı çəkdiyi filmlərin titrlərindən silinib. Yalnız iyirmi il sonra, 1955-ci ilin sentyabrında ona bəraət verilib. Həm də ölümündən sonra... "Kommunist" qəzetinin 22 may 1935-ci il tarixli nömrəsində dərc edilən "Azdövlətkinosənaye" trestinin direktor müavini "Azərkino" yaradıcılıq yollarında" sərlövhəli məqalədə qeyd edilirdi: "Əməkdar artist Abbas Mirzə Şərifzadə və yoldaş Popovun rejissorluğu ilə ekranlaşdırılan "Məhəbbət oyunu" komediyası üzərində iş gedir. Yol tikintisi və nəqliyyatdan bəhs edən bu bədii filmdə Əfəndiyev (Kirovabad (orijinal) Teatrının aktyoru), Sara Şərifova və Şamxalov yoldaşlar rol alırlar".



Şərifzadə bu filmi çəkməyə sovet hakimiyyətinin artıq bütün ölkədə möhkəmləndiyi və repressiya aparatının hərəkətə keçdiyi dövrdə başlayıb. O dövrün reallıqlarına uyğun olaraq, incəsənət Sovet İttifaqının dövlət ideologiyasının müəyyən etdiyi kursu tamamilə əks etdirməli idi.

Beləliklə, "Məhəbbət oyunu" hadisələrin hər hansı sənaye müəssisəsinin və ya kolxozun "dekorasiyası" olmadan ağlasığmaz olduğu bir dövrün klassik hekayəsinin formatına mükəmməl şəkildə uyğun gəlir.

Filmin süjeti komediya janrı kimi müəyyən edilirdi. Lakin sovet dövründə "Məhəbbət oyunu" bədii cəhətdən zəif alınıb. Ədalət naminə etiraf etmək lazımdır ki, bu ekran əsəri müəyyən dərəcədə həm ssenarinin, həm də süjetin rejissora yad olması hissini çatdırır...

İki dost şəhər qarajında mexanik işləyən Leylaya (Sara Şərifzadə) aşiq olur. Kərim (Məcid Şamxalov) çalışqan bir gəncdir, lakin Leyla özünü işinə həsr etməyən tənbəl bir kişi olan Səttara (İsmayıl Əfəndiyev) diqqət və sevgi göstərməyə başlayır. Süjet xətti inkişaf etdikcə Leylanın sevgisi Səttarın yaxşılığa doğru dəyişməsinə kömək edir. O, işə yanaşmasını yenidən nəzərdən keçirir və filmin sonunda avtomobil yarışında qalib gəlməyi bacarır.

Tənqidçilərə görə, "iş yerində xoşbəxtlik" ideyası sxematikdir və filmdə açıq şəkildə gülüş üçün bayağı hərəkətlərdən istifadə olunur. Filmin süjeti boyunca tədricən zəhmətkeş bir insana çevrilən qəhrəman, həmçinin bu dəyişikliyə rəğmən zarafatın əsas personajı kimi görünür.

Beləliklə, filmin süjeti müəyyən dərəcədə əmək və zəhmət olmadan sovet insanının həyatında xoşbəxtliyin mümkün olmadığı barədə qənaəti açıq və israrlı şəkildə təbliğ edir. Film həmçinin kişi baş qəhrəmana daha çox şəfqət və təmkin aşılamaq kimi sovet klişesinə uyğun gəlir. Məhz bu keyfiyyətlər ona azğın qəhrəmanı uğurla tərbiyə etməyə imkan verir.

Operator Rafiq Quliyevin "Azərbaycan səssiz kinosunun vizual irsi" adlı kitabında filmin vizual hekayə tərzi və kinematoqrafiya baxımından təsvir formalarının əhəmiyyəti qeyd olunur: "Müəllifin ekran əsərinin ssenaridən irəli gələn təfsirindəki nəzərəçarpacaq çatışmazlıqlara baxmayaraq, sərbəst, cəsarətli, dinamik kompozisiyalar, bucaqlı və hərəkətli kadrlar, filmin montaj strukturundakı ardıcıl kadrların dəqiq miqyas ölçüləri, idarəolunan ritm, eləcə də optik vurğular və işıq boyama kimi komponentlərdən formalaşan mükəmməl vizual hekayə tərzi sayəsində "Məhəbbət oyunu" komediya filmi 1930-cu illərdə yaradılmış "Lətif", "İyirmi altı komissar", "İsmət", "Almaz" kimi ekran əsərləri ilə eyni sırada dayanır və hətta vizual görüntülərin yüksək fotoqrafik keyfiyyəti baxımından daha ciddi təəssürat yaradır".

Filmdə həmçinin A. Lodzi (qaraj meneceri Şinkin), L.Vaitsix (Doktor Onegin), Mirzə Ağa Əliyev (Qeydiyyat şöbəsinin müdiri), Bakı Dövlət İncəsənət Universitetinin kino aktyorluğu kafedrasının rejissoru və müəllimi Vladimir Koçetov və Teza Qornik rol alıblar. Bədii filmdə rol alan ilk Azərbaycan qadını İzzət Orucova da bu ekran əsərində çəkilib. Qeyd etmək lazımdır ki, Kərim rolunu canlandıran aktyor Məcid Şamxalov məşhur "Qayınana" komediyasının müəllifidir.

Abbas Mirzə Şərifzadənin son filmi olan "Məhəbbət oyunu" müəyyən rejissorluq laqeydliyi əlaməti daşıya bilsə də, o, 2024-cü il Moskva Beynəlxalq Arxiv Film Festivalının nümayiş cədvəlinə daxil edilib və "İllüziya" kinoteatrında nümayiş etdirilib. Rusiya Dövlət Film Fondunun Analitik şöbəsinin aparıcı incəsənət tarixçisi və proqram kuratoru Kirill Vlaskin "Söz istəyirəm: səs dövründə sovet səssiz filmləri" mühazirəsi zamanı Azərbaycan rejissorunun işi haqqında belə şərh verib: "Hətta bu gün də kinosevərlər 1936-cı ildə ekranlara çıxan bir filmə - sevgi üçbucağına əsaslanan romantik komediya olan "Məhəbbət oyunu"na heyran ola bilərlər. O dövrdə bu film tənqidçilər tərəfindən bir çox hallarda nəzərdən qaçırılıb və dövrünün görkəmli filmləri arasında itib-batıb".

## "Söz dünyasının zirvəsində"

**Respublika Uşaq Kitabxanasında 1 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzinin şagirdlərinin iştirakı ilə Azərbaycan poeziyasının görkəmli nümayəndəsi, Xalq şairi Fikrət Qocanın anadan olmasının 90 illiyi münasibətilə "Söz dünyasının zirvəsində" adlı ədəbi-bədii tədbir keçirilib.**

Kitabxanadan bildirilib ki, tədbir zamanı şagirdlər Fikrət Qocanın "İş belə düşdü", "Yaxşı ki" və "Keçib gedəcək" kimi sevilən şeirlərini səsləndiriblər.

Uşaqların ifasında səslənən bu şeirlərdə həyatla insanın vəhdəti, insanlıq və mənəviyyat mövzuları öz əksini tapıb. Şeirlərin səsləndirilməsindən sonra şagirdlər arasında müzakirələr aparılıb, Fikrət Qocanın poeziyasında insan düşüncəsi, zaman və həyat fəlsəfəsi kimi mövzular geniş şəkildə təhlil olunub.

Sonda iştirakçılar şairin 80 illik yubileyinə həsr olunmuş yaradıcılıq gecəsindən hazırlanmış videoçarxı izləyiblər.



## Azərbaycan Brüssel festivalında təmsil olunub



**"Fireland" Azərbaycanlılar Birliyi Brüsseldə keçirilən beynəlxalq mədəniyyət festivalı "Farandole des Cultures"də Azərbaycanı təmsil edib.**

AZƏRTAC xəbər verir ki, ABM NOROC tərəfindən təşkil olunan bu tədbir Belçika, Moldova, Gürcüstan, Ukrayna, Portuqaliya, Slovakiya, Rumıniya, Konqo Demokratik Respublikası və Azərbaycan icmalarını bir araya gələrək onlara öz ölkələrinin mədəni irsini, mətbəxini, musiqi və milli rəqslərini təqdim etməyə imkan yaradıb.

Festival çərçivəsində ziyarətçilərə Azərbaycana aid müxtəlif mövzulu kitablar və broşürlər paylanıb, Azərbaycan mətbəxinin ləzzətli təamları, o cümlədən milli şərablar və müxtəlif növ Azərbaycan çayları təqdim olunub.

Tədbirin ən yaddaqalan məqamlarından biri "Fireland" Azərbaycanlılar Birliyinin rəqs müəllimlərinin Azərbaycan milli rəqslərini nümayiş etdirməsi olub. İştirakçılar milli rəqslərimizin ritm və zərifliyini böyük maraqla izləyiblər.

# Aİ-yə qanunsuz girişlər azalsa da, bu zaman ölüm halları yüksək olaraq qalır

**Avropa sərhəd xidməti "Frontex"in məlumatına görə, 2025-ci ilin 9 ayında Avropa İttidaqı (Aİ) ərazisinə qanunsuz girişlərin sayı 22 faiz azalaraq 133400-ə düşüb. Beynəlxalq Miqrasiya Təşkilatı isə qeyd edib ki, bu il Aralıq dənizi marşrutlarında 1328 nəfər ölüb və ya itkin düşüb.**






Ən kəskin azalma Qərbi Afrika marşrutunda qeydə alınıb - burada qanunsuz sərhəd keçidlərinin sayı 58 faiz azalıb. Qərbi Balkan və Şərqin quru sərhəd marşrutlarında da qeyri-leqal keçidlərdə azalma qeydə alınıb - müvafiq olaraq 47 və 36 faiz.

Mütəxəssislər qanunsuz keçidlərin azalmasının qlobal münaqişələr və hətta ətraf mühitlə əlaqəli olduğunu bildirirlər. Avropa Siyasət Mərkəzinin (EPC) Miqrasiya və Müxtəliflik üzrə Avropa Proqramının siyasi təhlilçisi Helena Han "Euronews" telekanalına bildirib ki, ümumi azalma bir sıra amillərlə, o cümlədən münaqişələrin yaranması və ya dayandırılması, siyasi müəyyənsizlik, sərhəd idarəçiliyi üzrə daha sıx əməkdaşlıq və hava şəraiti ilə əlaqələndirilə bilər. Ekspert həmçinin beynəlxalq miqrantların və məcburi köçkünlərin sayının 2020-ci ildən bəri artdığını deyib.

Digər marşrutlar aktiv olaraq qalır və ya artım müşahidə olunur. Mərkəzi Aralıq dənizi ən işlək marşrutdur və bu il bütün qanunsuz girişlərin təxminən 40 faizini təşkil edir. Burada əsas ölkə 2024-cü illə müqayisədə gedişlərdə 50 faiz artım qeydə alınan Liviyadır. Həmin marşrutdakı miqrantların əksəriyyəti Banqladeş, Eritreya və Misirdəndir.

Qərbi Aralıq dənizi marşrutunda da qanunsuz keçidlər 28 faiz artıb. Bu il həmin marşrutda aşkarlanan halların təxminən dörddəüçü Əlcəzairdəki insanlarla bağlı olub. "Frontex"in hesabatına görə, Mərakeşdə profilaktik tədbirlərin gücləndirilməsi daha çox insanı Əlcəzairdə qaçaqmalçılığa əl atmağa təşviq edib. Bu da öz növbəsində Əlcəzair və Mərakeş qaçaqmalçılıq şəbəkələri arasında daha sıx əməkdaşlığa və bəzi əməliyyatların Əlcəzair ərazisinə köçürülməsinə səbəb olub.

Statistikanın ümumi azalmasına baxmayaraq, insan itkisi yüksək olaraq qalır. Beynəlxalq Miqrasiya Təşkilatının məlumatına görə, 2025-ci ildə Aralıq dənizi marşrutları boyunca əksəriyyəti kişilər olan 1328 miqrant həlak olub və ya itkin düşüb. Mərkəzi Aralıq dənizi marşrutu ən ölümcül marşrutdur. Orada 895 nəfər həyatını itirib. Ölüm hallarının əsas səbəbi suda boğulmadır.

O da qeyd olunur ki, bir çox miqrant qanuni səyahət etməyə cəhd edib və yalnız viza verilmədikdən sonra qeyri-leqal hərəkətə keçib.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

# OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

## "AZƏRBAYCAN" *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**


AZƏRBAYCAN
AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI
İlham Əliyev regionların hərtərəfli inkişafını daim diqqətdə saxlayır
Azərbaycan-Türkiyə münasibətlərinin ən yüksək pillədə qərarlaşması böyük fəxr hissi doğurur
Türkiyə Respublikasının Prezidenti zati-aliləri cənab Rəcəb Tayyib Ərdoğana
Prezident İlham Əliyev Türkiyənin milli bayramı münasibətilə paylaşım edib
İlham Əliyev Çex Respublikasının Prezidentini təbrik edib
Çex Respublikasının Prezidenti zati-aliləri cənab Petr Pavelə
44 günlük Vətən müharibəsi
Düz 5 il əvvəl həmin gün

## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*

# "Euronews" telekanalı Azərbaycanın Naxçıvan bölgəsinə süjet həsr edib

**"Euronews" telekanalı "Explore Azerbaijan" rubrikasının son bölümündə Azərbaycanın Naxçıvan bölgəsinin təbiət möcüzələrini araşdırıb.**










Azərtac xəbər verir ki, "Euronews" müxbiri Anka Ulea "Around Azerbaijan" silsiləsinin bir hissəsi olaraq bu dəfə Naxçıvan Muxtar Respublikasına səyahətə çıxıb. Jurnalist vurğulayır ki, əsas məqsədi özü və təbiətlə yenidən əlaqə qurması olub...

"Həftəsonu mənimlə Naxçıvana gəlin", - deyə Anka təklif edir. O əlavə edir: "Gəlin bu gözəl bölgədə sağlamlıq və istirahət mədəniyyəti ilə tanış olaq".

Süjetdə qeyd edildiyi kimi, Naxçıvan unikal bir yerdir. Məlumatda İran, Ermənistan və Türkiyə arasında yerləşən Azərbaycanın muxtar diyarının heyrətamiz dərəcədə müxtəlif mənzərələrə malik olduğu vurğulanır. Əzəmətli qaya formasiyaları və dağlar əsrlər boyu əfsanələrə və yerli folklora ilham verib. Lakin bu quraq torpağın səthinin altında təbii bir xəzinə gizlənir: bölgənin ən böyük sağlamlıq turizmi mərkəzi olan Duzdağ duz mağaraları.

"Mən yavaş-yavaş yeraltına, 110 metr dərinliyə enirəm", - deyə Anka həyəcanla deyir. "Temperatur nəzərəçarpacaq dərəcədə aşağı düşür. Burada sabit 18 dərəcə Selsi temperatur var və yayın istisindən qaçmaq üçün ideal yerdir. Mağaranın qoxusu dərhal hiss olunur: kəskin və duzlu. Heç vaxt duzun qoxusunun olduğunu düşünməmişdim".

Sovet dövründə bu mağara mədən idi, indi isə sanatoriya və turistik məkandır. Süjetdə qeyd edildiyi kimi, dünyanın hər yerindən insanlar astma xəstəliyindən bronxitə qədər tənəffüs yolları problemlərini müalicə etmək üçün buraya gəlirlər.

"Duzdağ Terapiya Mərkəzi 1979-cu ildən bəri fəaliyyət göstərir", - deyə sağlamlıq mərkəzinin baş tibb bacısı Nuranə Mirzəyeva deyir. Onun sözlərinə görə, labirinti təşkil edən tunellərin ümumi uzunluğu 46 kilometr, girişdən palatalara qədər isə 360 metrdir.

Bütün ziyarətçilər üçün turlar mövcud olsa da, çarpayılar göndərişli xəstələr üçün ayrılıb. Bu xəstələrin 70 faizindən çoxu uşaqlardır. Tibb bacısı vurğulayır: "İnsanlar, adətən, bizə tənəffüs yolları xəstəlikləri ilə gəlirlər. Buradakı havada 19-21 mq/m3 natrium xlorid ionları var. Bu, əla göstəricidir və bronxial astma kimi müalicəsi çətin olan xəstəliklərdən tam sağalmanı təmin edir".

Daha sonra "Euronews" telekanalının müxbiri kitabxanaya baş çəkib və keçmiş pasiyentin birbaşa mağara divarlarına həkk etdiyi heyvan oymalarına heyran qalıb. Duzdağdan ayrılmazdan əvvəl Anka mağaranın çayxanasında çay içib və sanki səs-küylü dünyadan uzaq, sakit və dinc atmosferdə qısaca meditasiya edib.

Anka Ulea yerin altında daxili rahatlıq tapdıqdan sonra Naxçıvanın ən gözəl yerlərindən biri olan Batabat gölünün dağ zirvələrinə yollanıb. Batabat gölü dəniz səviyyəsindən 2500 metr yüksəklikdə, Şahbuz dağ bölgəsində yerləşir. Ankanın sözlərinə görə, bu ərazini hamıdan yaxşı tanıyan "Nakhchivan Travel" şirkətinin bələdçisi Səidə Musayeva ilə birlikdə göl sahilində gəzintiyə çıxıb. Səidə deyir: "Əslində, Batabat Naxçıvanın şimalında sıx meşələri olan mənzərəli Alp qismində vadidir. İnsanlar buraya piknik və gəzinti üçün gəlirlər, ona görə də bu dağların həmin məqsəd üçün ideal olduğunu demək olar. Bu məkanı turistlər daha çox sevirlər".

Bələdçi Ankaya Batabatda məşhur olan gözəl mənzərələri - göldə sərbəst üzən adaları və ilboyu axan büllur kimi şəffaf buzlu suları olan Zorbulaq bulağını göstərir. Müxbir deyir: "Gölün ətrafında dərman bitkiləri və qida məqsədilə istifadə olunan bitkilər bitir. Yaz və yay aylarında onları bələdçi ilə götürə və ilboyu təzə balın da satıldığı açıq hava mağazalarında ala bilərsiniz".

Batabat gölü yerli sakinlər arasında da məşhur piknik yeridir. Buna görə də qızlar qəlyanaltı almaq və öz pikniklərini təşkil etmək üçün yaxınlıqdakı bir kəndə yollanır. "Bu, ənənəvi Azərbaycan yeməyi olan qutabdır", - deyə Səidə Ankaya baxaraq izah edir. O, göyərti, ispanaq və yaşıl soğanla bişirilən qutabı jurnalistə təklif edir. Daha sonra digərlərinə də işarə edir: "Bunlar nazik xəmirdən hazırlanır və tərkibində müxtəlif içliklər - göyərti, ət, pendir var".

Ankanın sözlərinə görə, daha sonra əsl ziyafət qurulur: tərəvəz və ət qutabı, təndirdən çıxmış təzə çörək, turşuya qoyulmuş tərəvəzlər, qoz-fındıq və soğan piroqları. Bütün bunlar Naxçıvan ləzzətləridir... Ankanın vurğuladığı kimi, heç bir Azərbaycan ziyafəti isti çay olmadan tamamlanmış sayıla bilməz...

"Naxçıvanda səyahət etmək, sözün əsl mənasında, təmiz hava ilə nəfəs almaq kimidir", - deyə Anka Ulea heyranlıq və həvəslə süjeti yekunlaşdırır. O əlavə edir: "Bu dağların zirvələrindən Duzdağ duz mağaralarının dərinliklərinə qədər bütün məkanlara etdiyiniz səyahət öz köklərinə qayıdış, insan üçün artıq olan hər şeydən təmizlənmiş həyatdan zövq almaq üçün əla bir fürsətdir".

# Miqrendən necə qorunmaq olar

**Müasir dünyanın sürətli ritmi, stres, yuxusuzluq, elektron cihazların fasiləsiz istifadəsi sağlamlığa ciddi təsir edir. Bunların təsir etdiyi, getdikcə daha çox insanın həyat keyfiyyətini aşağı salan xəstəliklərdən biri də miqrendir. Mütəxəssislər hesab edirlər ki, bu amillər sadəcə prosesi sürətləndirir. Onlar miqrenin əsas səbəbi deyillər.**



Dünyada milyonlarla insana təsir edən bu nevroloji narahatlıq, adətən, başın bir tərəfində hiss edilən şiddətli, döyüntülü ağrı, işığa və səsə həssaslıq, ürəkbulanma kimi əlamətlərlə müşahidə edilir. Miqrendən öncə bəzi insanlar özlərində xəbərdarlıq siqnalları hiss edirlər. Bu siqnallar aura adlanır. Aura özünü görmə sahəsinin bir hissəsini tutan işıq ləkələri, qulaqda zəng səsi, bədənin müəyyən hissələrinin keyiməsi, danışıqda çətinlik əlamətləri ilə göstərir.

Miqren, adətən, 4 saatdan 3 günədək, böyüklərdə 4-72 saat, yeniyetmələrdə isə 2-72 saat davam edir. Tədqiqatlara görə, xəstələrin 89 faizi miqrenin onların psixi sağlamlıqlarına mənfi təsir göstərdiyini bildirirlər.

### Sağlam vərdişlər ən yaxşı dərmandır

Miqren çox vaxt adi baş ağrısı ilə qarışdırılır. Lakin, əslində, bu, beynin işindəki mürəkkəb pozğunluqların nəticəsidir. Xəstəliyin yaranmasına sinir hüceyrələri arasındakı əlaqənin pozulması, beyindəki kimyəvi maddələrin tarazlığının dəyişməsi, qan damarlarının genişlənməsi-daralması kimi proseslər səbəb olur. Buna görə də miqren təkcə baş ağrısı deyil, nevroloji xəstəlik hesab olunur.

Yeni araşdırmalar göstərir ki, hər üç qadından biri miqrendən əziyyət çəkir və bu nisbət ildən-ilə artır. Qadınlarda estrogen və progesteron səviyyəsi kişilərə nisbətən daha yüksəkdir və bu hormonlardakı dəyişikliklər miqrenə səbəb ola bilir. Hormon terapiyası bəzən kömək etsə də, bəzi hallarda ağrıları daha da gücləndirir. Mütəxəssislər həmçinin qeyd edirlər ki, miqren çox vaxt irsi yolla, hətta ana xətti ilə keçən xəstəlikdir.

Son illər aparılan araşdırmalar göstərir ki, sağlam həyat tərzi və düzgün gündəlik vərdişlər miqren tutmalarının qarşısını almaqda mühüm rol oynayır. Mütəxəssislərin fikrincə, müntəzəm fiziki fəaliyyət miqrenin qarşısını alan effektiv üsullardan biridir. İdman zamanı beyində xoşbəxtlik hormonu sayılan endorfinlər ifraz olunur.

Yüngül qaçış, yoqa, üzgüçülük və pilates kimi fəaliyyətlər qan dövranını yaxşılaşdırır, stresi azaldır və sinir sistemini balansda saxlayır. Lakin ağır idman növləri və qəfil intensiv hərəkətlər bəzi insanlarda miqreni "oyada" bilər. Buna görə də həkimlə məsləhətləşərək bədənə uyğun idman növü seçmək vacibdir.

Fiziki hərəkətlə yanaşı, yuxu rejiminin tənzimlənməsi də önəmlidir. Mütəxəssislər sutkada 7-8 saat yuxunu ideal hesab edirlər. Bəzən insanlar daha çox yatmağın faydalı olduğunu düşünsələr də, həkimlər bildirirlər ki, az yatmaq nə qədər zərərdirsə, çox yatmaq da ən azı onun qədər zərərlidir.

### "20-20-20" qaydası

Kompüter qarşısında uzun müddət fasiləsiz işləyən insanlarda göz yorğunluğu və boyun əzələlərinin gərginliyi miqren tutmalarını artırır. Buna görə də hər 40-50 dəqiqədən bir qalxıb hərəkət etmək, boyun və çiyin əzələlərini rahatlaşdırmaq, masa arxasında düzgün oturuşu qorumaq və ekran hündürlüyünü göz səviyyəsinə uyğunlaşdırmaq tövsiyə olunur.

Mütəxəssislər "20-20-20" qaydasının tətbiqini tövsiyə edirlər. Hər 20 dəqiqədən bir 20 saniyə ərzində 20 fut (təxminən 6 metr) uzaqlığa baxmaq göz əzələlərini rahatlaşdırır. Monitorun işığının çox parlaq və ya zəif olmamasına diqqət edilməlidir.

Yemək vərdişlərini dəyişdirmək və rasiona balanslı, faydalı və mövsümə uyğun qidalar daxil etmək miqrenin qarşısını almağa kömək edir. Hollandiyanın Leiden Universitetinin araşdırmasına əsasən, miqren xəstələrinin 30 faizi müəyyən qidaların baş ağrılarını artırdığını bildiriblər.

Həkimlər xəstələrə pivə, şərab, şokolad, pendir, qəhvə, çay və digər kofeinli içkilər, həmçinin duzlu yeməklər, işlənmiş ətlər, sitrus meyvələri, donuz əti, lobya, noxud, karides və xərçəng kimi qidalardan uzaq durmağı tövsiyə edirlər. Lakin bu məhsullar hər insana eyni dərəcədə təsir etmir. Hər kəs öz orqanizmini tanımalı və ağrıları artıran qidaların qəbulunu məhdudlaşdımalıdır. Bundan əlavə, kifayət qədər su içmək də miqrenlə mübarizədə vacibdir. Orqanizmin susuz qalması beyindəki damarların daralmasına və miqren ağrılarının şiddətlənməsinə səbəb olur.

Əgər görülən tədbirlər kömək etmirsə, miqren tutmaları tez-tez baş verirsə, ağrılar uzunmüddətli və şiddətlidirsə, mütləq nevroloqa müraciət etmək lazımdır. Miqren düzgün diaqnoz, həyat tərzinin tənzimlənməsi və vaxtında müalicə ilə idarə oluna bilən xəstəlikdir. Əsas olan orqanizmi dinləmək, vərdişləri dəyişmək və səhhətə biganə qalmamaqdır.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti 539-49-20

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının rəhbərliyi və kollektivi iş yoldaşları Günel Gözəlovaya əzizi

**FƏYYAZ HÜMBƏTOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Şirvan Apellyasiya Məhkəməsinin kollektivi məhkəmənin hakimi Yaşar Həşimova atası

**XANOĞLAN HƏŞİMOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 4085
Sifariş 2203

Qiyməti 60 qəpik